25 oktyabr 2019-cu il
№40 (8855)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

**Təhsil millətin gələcəyidir!**
*Heydər Əliyev*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

## Bu sayımızda

Modul tipli məktəblərin sayı artırılır ⇨səh.3

Avrasiyanın ən nüfuzlu universitetləri ⇨səh.9

Burdan çıxandan sonra... ⇨səh.11

Dilimizin yorulmaz tədqiqatçısı ⇨səh.12

# Təhsilin inkişafını əsaslandıran Strategiya

### Dövlət Strategiyasının ən uğurlu nəticələrindən biri Azərbaycanın beynəlxalq reytinqlərdə tutduğu mövqedir



Ölkəmizdə təhsilin inkişafı hər zaman diqqətdə saxlanılan məsələlərdən biri olub. Büdcədən ayrılan vəsaitin həcmindən tutmuş həyata keçirilən bütün tədbirlərdən bu sahənin inkişafına verilən dəyər görünüb.

6 ildir icra olunan və təhsil sahəsində islahatları, dolayısı ilə inkişafı əsaslandıran “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın ən uğurlu nəticələrindən biri Azərbaycanın beynəlxalq reytinqlərdə tutduğu mövqedir. Dünya İqtisadi Forumu tərəfindən ötən həftə açıqlanan “Qlobal Rəqabətlilik İndeksi-2019” hesabatında Azərbaycan ötənilki göstərici ilə müqayisədə 11 pillə irəliləyib. Hazırda 141 ölkə arasında 58-ci yerdə qərarlaşan ölkəmiz 12 indikatordan 8-i üzrə MDB ölkələri arasında yüksək nəticələr əldə edib. Məsələn, təhsilin keyfiyyət parametrlərinə əsaslanan “Bacarıqlar” indeksi üzrə ölkəmiz 6 pillə irəliləyərək 48-ci, innovasiya bacarığı üzrə 3 pillə irəliləyərək 68-ci, işçilərin peşəkar inkişafı kateqoriyası üzrə 22 pillə irəliləyərək 34-cü, peşə təhsilinin keyfiyyət göstəricisinə görə 6 pillə irəliləyərək 43-cü, bacarıqlı işçi tapmaq asanlığı üzrə 2 pillə irəliləyərək 29-cu yeri tutub. Tədrisdə tənqidi düşüncə göstəricisi üzrə 7 pillə irəliləmişik və ölkəmiz 20-ci yerdədir.

⇨Ardı səh.4

# Direktor da, müavinlər də şagirdlərdir...

Məktəbin direktoru da, müavinləri də şagirdlərdir... Yəqin ki, bunu ilk oxuyanda oxuculara təəccüblü gələcək. Elə mənə də ilk eşitdiyimdə qəribə gəldi. Çünki bizim təhsil müəssisələri üçün belə bir hal heç də xarakterik deyil. Fikirləşirsiniz ki, bu necə ola bilər? Biz axı övladlarımızı məktəbə şagird olaraq göndəririk. Amma indi haqqında söhbət açacağım Bakıdakı 192 nömrəli tam orta məktəbdə qeyd etdiyim kimi, təhsil müəssisəsinin idarəolunması şagirdlərə tapşırılır. Maraqlıdır ki, bu ideya hardan qaynaqlanır? Məktəbin ən önəmli fiqurları sayılan direktor, direktor müavinləri, digər məktəb personalını əvəz edən şagirdlər necə seçilib? Onlar üzərlərinə düşən bu vəzifələrin öhdəsindən gələ bilirlərmi? Bu və digər suallara elə bu ideyanın müəllifi olan təhsil müəssisəsinin direktoru Təhmasib Məmiyevlə birlikdə aydınlıq gətirməyi düşündüm.

### Məktəbin güclü pedaqoji kadr potensialı var

Direktor ilk olaraq məktəbin fəaliyyəti haqqında məlumat verdi. Verilən məlumatdan aydın oldu ki, Bakının Sabunçu rayonunda yerləşən 192 nömrəli tam orta məktəb 1936-cı ildən fəaliyyət göstərir. Məktəbdəki ibtidai siniflər 3 növbəli, yuxarı siniflər isə 2 növbəlidir. Hazırda məktəbdə 2212 şagird təhsil alır. Xarici dil kimi ingilis və rus dilləri tədris olunur.

Məktəbin güclü pedaqoji kadr potensialı var. Pedaqoji kadrların sayı 116 nəfərdir. Təhsil müəssisəsinin yüzlərlə məzunu ali təhsilli kadrlar kimi respublikamızın ictimai-siyasi, mədəni həyatına öz töhfəsini verib. Məktəb şagird qəbulu üzrə rayonun ümumtəhsil müəssisələri arasında nəticələri ilə həmişə öndə olub. Ötən il şagirdlərdən biri 4-cü qrup üzrə 700 bal toplayıb. Bununla yanaşı, həmin ilin məzunlarından 8 nəfər 600 baldan yuxarı, 1 nəfər 690 bal toplayaraq yüksək nəticə göstərib. Bu il isə məktəbin məzunlarından 1 nəfəri 3-cü qrupda blok üzrə maksimum nəticəni toplayaraq respublika birincisi olub, 6 nəfər isə 600 baldan yuxarı nəticə göstərib.

Təhsil müəssisəsində hərbi-vətənpərvərlik tərbiyəsi daim diqqət mərkəzindədir. Kollektiv məktəb və məktəbdənkənar tədbirlərdə, yarış və müsabiqələrdə fəal iştirak edir, burada təhsil alan şagirdlər müxtəlif idman növləri ilə məşğul olur və uğurlar qazanırlar.

Məktəbin idarə olunmasında, təlim-tərbiyə prosesinin təşkilində, təhsilin keyfiyyətinin yüksəldilməsi sahəsində pedaqoji kollektivin səmərəli iş təşkili olunub.

⇨Ardı səh.3

# “Çox istəyərdim ki, elmi məktəb formalaşdırım”

Ötən əsrin əvvəllərində müstəqillik ideallarını əsas tutan cümhuriyyət qurucularının ilk həyati hədəflərindən biri ölkədə elm və təhsilin inkişafına təkan verəcək nümunəvi universitetin yaradılması idi. Elə bir universitet ki, müstəqil dövlətin elmi potensialını üzə çıxara bilsin, azadlıq və sivil dünyaya inteqrasiya yolunu seçən gənc dövlətin elmi bünövrəsini qoyaraq ona dayaq olsun, onu möhkəmlətsin və gələcək nəsillərə çatdırsın. Və beləliklə, ilk universitetimiz - Bakı Dövlət Universiteti yaradıldı. Bu gün isə tam əminliklə deyə bilərik ki, cümhuriyyət qurucularının və ilk universitetimizin məşhur alimlərinin ruhu şad ola bilər: Bakı Dövlət Universiteti və onun gənc alimləri bu missiyanı şərəflə daşımaqda, ölkəmizin inkişafına öz töhfələrini verməkdədir. Onlardan biri Gənclər üçün Prezident mükafatçısı, BDU-nun gənc və perspektivli alimlərindən olan Flora Hacıyevadır.

⇨Ardı səh.6

# Əmək bazarının “rəqəmsallar”ı

### “Z-nəsli”nin təmsilçiləri əmək fəaliyyətinə başlayırlar

“Rəqəmsal nəsil”, yaxud “Z-lər” mövzusuna bir neçə dəfə toxunmuşuq. 1995-2010-cu illərdə doğulmuş və şərti olaraq “Z nəsli” adını almış şəxsləri tədqiq edən psixoloqların ümumi rəyi belədir ki, onlar özəl maraqlarını korporativ məqsədlərdən üstün tuturlar və nəticə etibarilə “rəqəmsallar”dan heç də həmişə yaxşı komanda üzvü çıxmır.

Bu ildən onlar əmək bazarına çıxıblar. Yaşları 25-dən bir balaca kiçik, ancaq saylarına və təsir dairələrinə görə nüfuzları az olmayan Z-ləri komanda oyunçusuna çevirmək üçün nə etmək lazımdır? Çox güman ki, bu, yaxın bir neçə ildə rəhbərlər qarşısında duran ən mühüm problemlərdən biri olacaq.

### Seyftizm

“Zetlər”i daha çox niyə qınayırlar? Əsas səbəblər budur ki, onlar eqoistdirlər, anlaşmaya meyilli deyillər və kompromisə çətin gedirlər. Hərçənd bu, heç də hər zaman belə deyil. Bununla belə, hesab edilir ki, “rəqəmsallar”ın mürəkkəb xarakteri tez-tez münaqişələrə səbəb olur. Yaşlı nəslin nümayəndələri şikayətlənirlər ki, nəinki bir yerdə işləmək, onları dərk etmək belə çətindir. “Son bir neçə ildir təhsil ocaqlarında qeyri-adi işlər baş verir. Mühazirələrdə müəllimlərə az qala ağızlarını açmağa imkan vermirlər. Professorlar deyirlər ki, özlərini narahat hiss edir, bəzən isə açıq danışa bilmirlər. Axı bu necə baş verə bilər?” - deyə sosial psixoloq Conatan Haydt təəccüblənir. Z-lər üzrə mütəxəssis hesab olunan Haydta görə, yeni problemlərin mənbəyini son dövrlərdə təlim-tərbiyə prosesində tətbiq olunan üç ideyada axtarmaq lazımdır. Söhbət bunlardan gedir:

- Nələr ki, bizləri öldürmür, deməli, zəif edir;
- Hər zaman öz hisslərinə etibar et;
- Həyat yaxşı və pis insanların mübarizəsidir.

Haydtın fikrincə, “bu böyük yalanlar” rifahın başlıca psixoloji prinsiplərinə ziddir. Bu yalanların həyatımıza müdaxiləsindən “seyftizm” deyilən mədəniyyət formalaşıb. “Seyftizm” insanları onlara lazım olmayan, daha doğrusu, əhvallarını korlaya biləcək xəbərlərdən uzaq durmağa çağırır. Bu isə nəticə etibarilə gənclərin müstəqil, müdrik böyümələrinə əks təsir göstərir, onlardan “həyatın keşməkeşli yolları ilə irəliləyən şəxsiyyətlər çıxmaz”.

⇨Ardı səh.7

# Sağlam rəqabəti və innovativ fəaliyyəti stimullaşdıran

Bu gün təhsilə münasibət, ondan gözləntilər də sözün yaxşı mənasında dəyişib. Eləcə də təhsil müəssisələrinə, müəllimlərə verilən tələblər də özünün aktuallığı, müasir dövrün çağırışlarına uyğun olması ilə fərqlənir. Təhsil müəssisələrimizdə əlverişli təlim mühiti formalaşıb, təlim göstəricilərinin yaxşılaşdırılmasına ciddi diqqət artırılıb, şagirdlərə keyfiyyətli təhsil imkanları yaradılmaqla yanaşı, təhsilverənlərin də bilik və bacarıqlarının artırılması istiqamətində mühüm işlər həyata keçirilir. Artıq təhsil ocaqlarımız öz fəaliyyətlərində daha innovativ, müəllimlər isə daha yaradıcı olmaqları, kreativ fikirləri ilə seçilirlər. Təbii ki, bütün bu imkanları isə onlara Təhsil Nazirliyi yaradır. Təhsildə inkişaf və innovasiyalar üzrə qrant müsabiqəsi nazirliyin həyata keçirdiyi uğurlu layihələrindəndir. Artıq 3-cü ildir ki, keçirilən müsabiqənin əsas məqsədi də məhz təhsil müəssisələrində, təhsilverənlərdə sağlam rəqabəti və innovativ fəaliyyəti stimullaşdırmaqdır. Bu ilki nəticələrə görə, ümumi təhsil müəssisələri kateqoriyası üzrə 53, fərdi kateqoriya üzrə 115 layihənin dəstəklənməsi məqsədəuyğun sayılıb. Müsbət qərar verilən 168 qalib layihənin maliyyələşdirilməsi Təhsil Nazirliyi tərəfindən təsdiqlənib. Ümumilikdə, müsabiqədə 44 rayon və şəhər üzrə ümumi təhsil müəssisəsi və müəllimlər qalib gəlib. Müsabiqədə bölgələrdən olan təhsil müəssisələri, eləcə də müəllimlər heç də paytaxtdakı həmkarlarından fərqlənməyərək fəallıqları ilə seçiliblər. Belə ki, Bakı ilə yanaşı, Gəncə, Sumqayıt, Lənkəran, Quba, Masallı, Bərdə, Şəki, Göygöl və Şəmkir qalib layihələri olan ən fəal rayon və şəhərlərdən sayılırlar.

Müsabiqənin builki qalibləri onlara uğur gətirən layihələrindən söz açıblar.

⇨Ardı səh.5



# Məktəbdə məktəbəqədər təhsil

*İlahə Rəsulova:*
Valideynlər bu fəaliyyətin əsas komponentidir

Səh.8

## RƏSMİ XRONİKA



- Oktyabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin görüşü olub. Həmin gün dövlət başçısı İlham Əliyev Kuba Respublikasının Prezidenti Migel Diaz-Kanel ilə görüşüb.
- Prezident İlham Əliyev oktyabrın 24-də Vyetnamın vitse-prezidentinin, Koreya Xalq Demokratik Respublikası Ali Xalq Məclisinin Rəyasət Heyətinin sədrinin, Omanın Dövlət Şurası sədrinin başçılıq etdiyi nümayəndə heyətlərini qəbul edib.
- Oktyabrın 24-də ölkə başçısı İlham Əliyev Dilarə Bağır qızı Seyidzadənin "Şərəf" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də R.Ə.Mehdiyevin "Heydər Əliyev" ordeni ilə təltif edilməsi, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri vəzifəsindən azad edilməsi və Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti vəzifəsinə təsdiq edilməsi haqqında Sərəncamlar imzalayıb. Dövlət başçısı İlham Əliyev Ramiz Mehdiyevi qəbul edib və ona "Heydər Əliyev" ordenini təqdim edib.
- Prezident İlham Əliyev oktyabrın 23-də M.Ç.Cabbarovun Azərbaycan Respublikasının Vergilər naziri vəzifəsindən azad edilməsi və Azərbaycan Respublikasının İqtisadiyyat naziri təyin edilməsi haqqında Sərəncamlar imzalayıb. Dövlət başçısı İlham Əliyev Mikayıl Cabbarovu yeni vəzifəyə - İqtisadiyyat naziri təyin olunması ilə əlaqədar qəbul edib.
- Prezident İlham Əliyev oktyabrın 23-də A.A.Əli Zadənin 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.
- Dövlət başçısı İlham Əliyev oktyabrın 23-də Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyul tarixli 779 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının tərkibi"ndə dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.
- Prezident İlham Əliyev oktyabrın 23-də Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin funksiyalarının və strukturunun genişləndirilməsi haqqında Fərman imzalayıb.
- Dövlət başçısı İlham Əliyev oktyabrın 23-də Birləşmiş Ərəb Əmirliklərinin Xarici İşlər üzrə Dövlət nazirinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.
- Prezident İlham Əliyev oktyabrın 23-də İranın Xarici İşlər nazirinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.
- Dövlət başçısı İlham Əliyev oktyabrın 22-də Ş.A.Mustafayevin Azərbaycan Respublikasının İqtisadiyyat naziri vəzifəsindən azad edilməsi və Azərbaycan Respublikası Baş Nazirinin müavini təyin edilməsi haqqında Sərəncamlar imzalayıb. Prezident İlham Əliyev Şahin Mustafayevi yeni vəzifəyə - Baş Nazirin müavini təyin olunması ilə əlaqədar qəbul edib.
- Prezident İlham Əliyev oktyabrın 21-də Azərbaycan Respublikası Baş Nazirinin müavini Hacıbala Abutalıbovu vəzifədən azad edilməsi ilə bağlı verdiyi ərizəsi ilə əlaqədar qəbul edib. Dövlət başçısı İlham Əliyev H.İ.Abutalıbovun Azərbaycan Respublikası Baş Nazirinin müavini vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb.
- Dövlət başçısı İlham Əliyev oktyabrın 21-də Azərbaycan Respublikası Baş Nazirinin müavini Əli Həsənovu vəzifədən azad edilməsi ilə bağlı verdiyi ərizəsi ilə əlaqədar qəbul edib. Prezident İlham Əliyev Ə.Ş.Həsənovun Azərbaycan Respublikası Baş Nazirinin müavini vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb.

## Təhsil nazirinin Sabirabad şəhərində vətəndaşların qəbulu vaxtı dəyişdirilib

Təhsil naziri Ceyhun Bayramovun Sabirabad şəhərindəki Heydər Əliyev Mərkəzində Sabirabad və Saatlı rayon sakinlərinin 25 oktyabr 2019-cu il tarixində nəzərdə tutulmuş qəbulunun vaxtı dəyişdirilib.

Qeydiyyatdan keçmiş vətəndaşlara qəbulun vaxtı barədə əlavə məlumat veriləcəkdir.

## Macarıstan ali təhsil müəssisələrinin nümayəndələri ilə görüş keçirilib

Oktyabrın 18-də Təhsil Nazirliyində Azərbaycan və Macarıstan ali təhsil müəssisələrinin nümayəndələri arasında görüş keçirilib.

Görüşdə Macarıstanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Viktor Szederkenyi də iştirak edib.

Macarıstanın ELTE, Seqed, Debreçen, Peç, Veterinari və Metropolitan universitetlərinin nümayəndələrinin iştirak etdiyi görüşə Azərbaycan tərəfdən Bakı Dövlət Universiteti, Azərbaycan Dillər Universiteti, Azərbaycan Tibb Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, ADA və Azərbaycan Dövlət İqtisad universitetlərinin, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının nümayəndələri də qatılıblar.

# "Akademik Məmmədağa Şirəliyevin 110 illiyinin qeyd edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamının icrası barədə

## Azərbaycan Respublikası Təhsil nazirinin əmri

"Akademik Məmmədağa Şirəliyevin 110 illiyinin qeyd edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 19 iyul tarixli 1324 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə, AMEA-nın Rəyasət Heyətinin 2019-cu il 25 sentyabr tarixli 13/9 nömrəli qərarını nəzərə alaraq və "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 13.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** "Akademik Məmmədağa Şirəliyevin 110 illiyinin qeyd edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 19 iyul tarixli 1324 nömrəli Sərəncamının icrası ilə əlaqədar Azərbaycan Respublikası Təhsil Nazirliyinin Tədbirlər Planı təsdiq edilsin (əlavə olunur).

**2.** Ali təhsil müəssisələrinin rəhbərləri Tədbirlər Planının yerinə yetirilməsini təmin etsinlər və görülmüş işlər barədə Təhsil Nazirliyinin aparatına hesabat təqdim etsinlər.

**3.** Elm, ali və orta ixtisas təhsili şöbəsi (Yaqub Piriyev) Tədbirlər Planında nəzərdə tutulan tədbirlərin iş planlarına daxil edilməsini, onların icrasına nəzarəti, təhsil müəssisələrinə təşkilati köməklik göstərilməsini və daxil olmuş hesabatların ümumiləşdirilib rəhbərliyə təqdim olunmasını təmin etsin.

**4.** İnformasiya şöbəsi (Elnur Məmmədov) əmrin əlavəsi ilə birlikdə çoxaldılıb aidiyyəti struktur bölmələrə, ali təhsil müəssisələrinə çatdırılmasını, Nazirliyin internet səhifəsində yerləşdirilməsini, "Azərbaycan müəllimi" qəzetində dərc olunmasını və keçiriləcək tədbirlərin KİV-lərdə işıqlandırılmasını təmin etsin.

**5.** Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Ceyhun BAYRAMOV,**
**Azərbaycan Respublikasının Təhsil naziri**

*21 oktyabr 2019-cu il*

## Peşə təhsili müəssisələrinin mühəndis-pedaqoji heyəti Türkiyədə təlimlərdə

2019-2020-ci tədris ili üçün 15 müxtəlif istiqamət üzrə peşə təhsili müəssisələrinin 49 nəfərdən ibarət mühəndis-pedaqoji heyəti Türkiyədə təlimlərdə iştirak edirlər.

Hazırda İzmir və İstanbul şəhərlərində avtomobil, elektrik, incəsənət, inşaat, mebel və kənd təsərrüfatı istiqamətləri üzrə təlimlər davam etdirilir. Təlim zamanı müəllimlər kənd təsərrüfatı üzrə meyvə-tərəvəz sahəsindəki aqrotexniki, incəsənət istiqaməti üzrə isə müxtəlif çəkiliş studiyalarında praktiki işlərlə yaxından tanış olublar.

Qeyd edək ki, Azərbaycan və Türkiyə arasında peşə təhsili sahəsində əməkdaşlığa əsasən təlimlərin İstanbul, Ankara və İzmir şəhərlərində keçirilməsi nəzərdə tutulub. Təlimlərin təşkilində məqsəd peşə təhsili müəssisələrinin mühəndis-pedaqoji heyətinin kvalifikasiyasının artırılmasıdır.

Təlimlərin 2-12 həftə müddətində, liderlik, turizm, inşaat, dərzi, dizayn, incəsənət, avtomobil, kənd təsərrüfatı, elektrik və zərgərlik istiqamətləri üzrə həyata keçirilməsi planlaşdırılıb.

## Təhsil naziri Surinam Respublikasının Xarici İşlər naziri ilə görüşüb




Oktyabrın 24-də Təhsil naziri Ceyhun Bayramov Surinam Respublikasının Xarici İşlər naziri xanım Yldiz Pollack-Beighle ilə görüşüb.

Görüş zamanı Azərbaycan Respublikası ilə Surinam Respublikası arasında təhsil sahəsində əməkdaşlıq perspektivləri müzakirə edilib.

# Bakıda Qoşulmama Hərəkatının Gənclər Sammiti keçirilib

Oktyabrın 24-də Bakıda Qoşulmama Hərəkatının Gənclər Sammiti keçirilib.



AZƏRTAC xəbər verir ki, çıxış edən Xarici İşlər nazirinin müavini Ramiz Həsənov tədbir haqqında ətraflı məlumat verib. Ramiz Həsənov qeyd edib ki, Birləşmiş Millətlər Təşkilatından sonra ikinci ən böyük beynəlxalq siyasi təşkilat olaraq Qoşulmama Hərəkatı siyasi məsləhətləşmələr və praktik əməkdaşlıq üçün geniş və əhatəli bir platforma-nı təmin edir.

Gənclər və İdman naziri Azad Rəhimov bildirib ki, ilk dəfə olaraq keçirilən Qoşulmama Hərəkatı Gənclər Sammiti Azərbaycanın təşəbbüsüdür. Son 15 il ərzində Bakıda dörd beynəlxalq gənclər platforması təsis edilib. Bundan başqa Bakı 2007-ci ildə "Gənclər sivilizasiyaların alyansı naminə" nəsillərarası yüksək səviyyəli konfransa, 2008-ci ildə "İslamofobiya və ksenofobiyanın müxtəlif növləri: gənclərə təsiri və qarşısının alınmasında gənclərin fəaliyyəti" mövzusunda beynəlxalq konfransa, 2011-ci ildə BMT-nin Sivilizasiyaların Alyansı Uğrunda Qlobal Gənclər Hərəkatının birinci Konqresinə, 2012-ci ildə birinci "Böyük İpək Yolu" Beynəlxalq Gənclər Konqresi və Festivalına, 2014-cü ildə Gənclər siyasəti üzrə birinci Qlobal Foruma, 2017-ci ildə Dünya Skaut Konfransına, 10 gün bundan əvvəl Türk Şurası Gənclər Platformasının birinci Baş Assambleyası kimi beynəlxalq gənclər tədbirlərinə ev sahibliyi edib. Azərbaycan beynəlxalq gənclər hərəkatının inkişafına ciddi töhfələr verib.

Ulu öndər Heydər Əliyevin Fərmanı ilə yaradılan Gənclər və İdman Nazirliyi ölkəmizin müstəqilliyini bərpa etdikdən sonra yaradılan ilk dövlət qurumlarından biridir.

Nazir bildirib ki, Azərbaycanda 300-dən çox gənclər təşkilatı fəaliyyət göstərir. Ölkəmizdə gənclər siyasətinin geniş infrastrukturu var. Belə ki, 40-dan artıq rayon və şəhərdə olan sosial xidmət müəssisələri Gənclər Evləri/Mərkəzləri fəaliyyət göstərirlər.

Azad Rəhimov deyib ki, Prezident İlham Əliyev gənclərlə görüşür, onların fikirlərini dinləyir və müvafiq qərarlar qəbul edir.

Təhsil nazirinin müavini Firudin Qurbanov Qoşulmama Hərəkatının beynəlxalq sülhün bərpası, dialoqun aparılması kimi məsələlərin müzakirə olunduğu qlobal platformaya çevrildiyini deyib.

Azərbaycanda təhsillə bağlı görülən işlərdən danışan nazir müavini əlavə edib ki, ölkəmiz bu sferada böyük uğurlara nail olub. Azərbaycanda təhsilə böyük dövlət qayğısı var. Təhsil sahəsinin inkişafı Azərbaycanda prioritet istiqamətlərdən biridir. Azərbaycan təhsilinin bugünkü inkişafının mənbəyi ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə əsası qoyulan məqsədyönlü siyasətdən qaynaqlanır. Prezident İlham Əliyev tərəfindən Azərbaycan təhsilində sistemli islahatlar aparılaraq ümummilli liderin təhsil siyasəti uğurla davam etdirilir. Təhsilin müasir hədəflərinə doğru qəbul olunmuş strateji inkişaf sənədlərinin müddəaları yüksək dəqiqliklə həyata keçirilir.

## Təhsil naziri Xorvatiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş səfiri ilə görüşüb



Oktyabrın 24-də Təhsil naziri Ceyhun Bayramov Xorvatiya Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Branko Zebiç ilə görüşüb.

Görüşdə iki ölkə arasında təhsil sahəsində əlaqələrin mövcud vəziyyəti və əməkdaşlıq perspektivləri müzakirə edilib.

## Modul tipli məktəblərin sayı artırılır

2019-cu ildə 50 modul tipli məktəbin istifadəyə verilməsi nəzərdə tutulub. Onlardan 20-si artıq quraşdırılıb, 30-nun isə tikinti-quraşdırma işləri davam etdirilir.

2017-ci ildə 106, 2018-ci ildə isə 137 modul tipli məktəb istifadəyə verilib.

Modul tipli məktəblərin üstünlükləri az-məsrəfli olması, qısa müddət ərzində istənilən relyefdə quraşdırılması, asan daşınması və sinif otaqlarının sayını şagirdlərin sayına uyğun olaraq rahatlıqla azaldılıb-artırılmasıdır.

Qeyd edək ki, ölkə Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə 2017-ci ildən ucqar kəndlərdə az şagird kontingentli qəzalı məktəblərin yeni binalarla əvəz edilməsi çərçivəsində modul tipli məktəb təcrübəsinin tətbiqinə başlanılıb.

## "Yaşıl planet" BDU-da

Bakı Dövlət Universitetində (BDU) Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə "MDB iştirakçı dövlətlərinin Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondu" və "Ekosfera" Sosial-ekoloji Mərkəzi ilə birgə "Yaşıl planet" beynəlxalq tələbə məktəbinin "Biomüxtəliflik, ekosistem xidmətləri və xüsusi mühafizə olunan təbiət ərazilərinin idarə edilməsi" mövzusunda plenar sessiya keçirilib.

BDU-nun rektoru Elçin Babayev Bakı Dövlət Universitetində ekoloji təhsil və maarifləndirmə sahəsində aparılan yeniliklər və beynəlxalq əməkdaşlıq sahəsində görülən işlərdən bəhs edib. Azərbaycanda ekoloji maarifləndirməyə və ətraf mühitin qorunmasına xüsusi diqqət göstərildiyini bildirən rektor layihənin ekologiya sahəsində çalışan mütəxəssislər arasında çoxtərəfli əlaqələrin qurulmasına əsas verəcəyini vurğulayıb.

"Ekosfera" Sosial-ekoloji Mərkəzin rəhbəri Firuzə Sultanzadə bildirib ki, layihə çərçivəsində MDB və Baltikyanı ölkələrdən olan gənclər ətraf mühit problemlərinə ictimaiyyətin diqqətini cəlb etmək, təcrübə mübadiləsi və təlim keçmək məqsədi ilə Azərbaycanda toplanıblar.

Sonda "Yaşıl planet" beynəlxalq tələbə məktəbinin iştirakçıları universitetin Ekologiya və torpaqşünaslıq fakültəsinin maddi-texniki bazası ilə tanış, Nano Araşdırmalar Mərkəzi, Təkamül muzeyində olublar.

Qeyd edək ki, 9 ölkədən 18-25 yaş aralığında 100 nəfər gənc iştirak etdiyi məktəbdə ətraf mühitin mühafizəsi, eko-liderlik, ətraf mühitin idarə olunması və digər mövzularda mühazirələr, seminarlar və ustad dərsləri keçirilir.

## Təhsil Nazirliyi ərazi üzrə ilk partiya təşkilatının iclası keçirilib



Oktyabrın 22-də Təhsil Nazirliyində Yeni Azərbaycan Partiyası Nərimanov Rayon Təşkilatının Təhsil Nazirliyi ərazi üzrə ilk partiya təşkilatının iclası keçirilib.

İclasda Təhsil Nazirliyi ərazi üzrə ilk partiya təşkilatının İdarə heyətinin yeni tərkibi seçilib, 10 nəfər gənc mütəxəssisin partiya sıralarına qəbul olunması ilə bağlı qərar verilib.

Təhsil nazirinin müavini Firudin Qurbanov yeni üzvləri təbrik edib və onlara uğurlar arzulayıb. Nazir müavini, həmçinin son illərdə təhsil sahəsində qazanılan uğurlar, əldə olunan nailiyyətlərdən danışıb və görülən işlərdə gənclərin fəal iştirakının vacibliyini qeyd edib.

## Şagirdlərin elektron yerdəyişməsinə yenidən start verilib

Oktyabrın 21-dən etibarən şagirdlərin elektron yerdəyişməsi prosesi davam etdirilir.

Cari ildən etibarən şagirdlərin yerdəyişməsi *www.sy.edu.az* portalı vasitəsi ilə elektron formada həyata keçirilir. Şagird yerdəyişməsinin elektronlaşdırılması bu prosesdə məktəb və valideyn arasında olan məsafənin azaldılması, valideynin təhsil müəssisəsi ilə təmasının daha şəffaf şəkildə təşkilinə yardım edir.

Qeyd edək ki, 2019-cu il sentyabrın 15-dək şagirdlərin elektron yerdəyişməsi ilə bağlı ümumilikdə 54830 müraciət daxil olub. Onlardan 53955 şagirdin digər təhsil müəssisəsinə yerdəyişməsinə icazə verilib. 875 sorğuya isə dil uyğunsuzluğuna, daxili müsabiqə keçirən lisey və məktəb-liseylərin müsabiqə nəticələrinə əsasən imtina verilib.

## İctimai Şuranın növbəti iclası keçirilib



Təhsil Nazirliyi yanında İctimai Şuranın növbəti iclası keçirilib. İclasda İctimai Şuranın Əsasnaməsi (reqlamenti) qəbul edilib, həmçinin Bakı Dövlət Universitetinin professoru Şahlar Əsgərov İctimai Şuranın sədri, təhsil eksperti Nadir İsrafilov sədr müavini və Azərbaycan Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri İlqar Orucov isə məsul katib seçilib.

İclasda Şura üzvləri şuranın fəaliyyət planı ilə bağlı ilkin təklifləri müzakirə ediblər. Növbəti iclasda fəaliyyət planının təsdiqi nəzərdə tutulur.

Qeyd edək ki, Təhsil Nazirliyi yanında İctimai Şura Təhsil naziri Ceyhun Bayramovun 11 iyul 2019-cu il tarixli əmrinə əsasən yaradılıb. Şuranın yaradılmasında əsas məqsəd nazirliyin fəaliyyətində şəffaflığı artırmaq, eyni zamanda təhsil sahəsində ictimaiyyətlə qarşılıqlı fəaliyyəti gücləndirməkdir.

# Direktor da, müavinlər də şagirdlərdir...




## Məktəblilər məktəb idarəetməsində

⇦ Əvvəli səh.1

**Samirə KƏRİMOVA**

Təhsil müəssisəsinin müasir avadanlıqlarla təchiz edilmiş fənn kabinetləri, sinif otaqları, laboratoriyaları, zəngin kitabxanası, akt zalı var.

Burada həm pedaqoji heyətin rahat fəaliyyət göstərməsi, həm də şagirdlərin keyfiyyətli təhsil almaları üçün bütün şərait yaradılıb.

### Məktəb idarəetməsində iştirak edən VIII, IX və X sinif şagirdləri

Direktor deyir ki, məktəb rəhbərliyinin idarəetmə mədəniyyəti onun peşə-pedaqoji mədəniyyətinin bir hissəsidir. Məktəb pedaqoji sistemdir. Bu sistemin hərtərəfli idarəsi məktəb rəhbərlərinin, müəllimlərin və şagirdlərin öhdəsinə düşən ən vacib şərtlərdəndir. Pedaqoji sistemdə müəllimlərlə şagirdlərin birgə fəaliyyəti mühüm amildir. Bunlar nəzərə alınaraq yeni tədris ilindən qərara gəlinib ki, təlim nəticələri ilə fərqlənən sinif nümayəndələri arasından seçilən şagirdlərdən ibarət -Şagird idarəetmə sistemi yaradılsın. Təhmasib müəllim şagird idarəetmə sisteminin yaradılmasının əslində gözəl bir ənənənin başlanğıcı olacağını düşünür.

Qeyd edir ki, şagird idarəetmə sisteminin yaradılmasının əsas məqsədi məktəblilərə özünüidarəetmə, işgüzarlıq, özünəinam kimi xüsusiyyətləri aşılamaq, onların gələcək peşə məsuliyyətini dərk etməsinə dəstək olmaq, şagirdlərin ixtisas seçimi zamanı geniş məlumat almalarına şərait yaratmaq və praktiki tapşırıqlar vasitəsilə məqsədə çatmaq bacarıqlarına yiyələnməsinə, onlarda liderlik xüsusiyyətlərinin inkişaf etməsinə kömək etməkdir.

Bununla bağlı ilkin olaraq şagirdlər arasından xüsusi seçim əsasında şagird idarəetmə sisteminin üzvləri müəyyən olunub. Şagirdlər təlim nəticələrinə, nizam-intizam qaydalarına, məktəbin daxili qayda və qanunlarına hörmətlə yanaşan sinif nümayəndələri arasından seçilmişdir. Belə ki, VIII sinif şagirdi Zümrüd Nazurova məktəbin direktoru, Ceyran Qənbərova (VIII sinif), Sevinc Həşimzadə (X sinif), Aydan İsmayılova (IX sinif), Lamiyə Qocayeva (IX sinif), Fatimə Kazımova (IX sinif) direktor müavinləri, Aydan Bədəlova (IX sinif) isə uşaq birliyi təşkilatının rəhbəri seçilib.

Direktorun sözlərinə görə, şagird idarəetmə sistemi məktəbdə il ərzində fəaliyyət göstərəcək. Gələcəkdə bu sistemin fəaliyyətinin daha da genişlənməsi, şagird parlamentinin yaradılması planlaşdırılır.

### Vəzifəyə təyin olunan şagirdlər iş başında

Məktəb idarəetməsində iştirak edən adları qeyd olunan şagirdlər tədris prosesi, inzibati və digər işlərlə bağlı müvafiq qərarlar qəbul edə və yeniliklər həyata keçirə bilirlər. Onlar əsasən əlamətdar günlərdə və hər həftənin cümə günləri öz vəzifələrini yerinə yetirirlər. 5 oktyabr Beynəlxalq Müəllimlər Günü ilə əlaqədar ümumtəhsil müəssisəsini məsul vəzifə daşıyan şagirdlər idarə edib, həmin vaxt rəhbərlikdən əlavə, digər məktəblilərdən ibarət müəllimlər və növbətçilər də təyin olunub.

Göründüyü kimi, az bir müddət olsa da bununla bağlı şagirdlərin artıq müəyyən təcrübələri var. Məsələn, təlim-tərbiyə işləri üzrə direktor müavinləri dərslərdə dinləmələrdə iştirak edirlər. Fənn aylıqları ilə bağlı məktəbdə təşkil olunan "açıq dərs"lərin və tədbirlərin keçirilməsində öz direktorlarına xüsusi köməklik göstərirlər.

Tərbiyə işləri üzrə müavin seçilən yeniyetmə şagirdlərin geyimlərinə, xarici görünüşlərinə, davamiyyətlərinə nəzarət edir, dərsə gecikmə hallarına yol verən uşaqlarla söhbətlər aparır, təhsil müəssisəsində tədbirlərin, valideynlərlə görüşlərin təşkilinə diqqət artırır.

Təsərrüfat işləri üzrə direktor müavini vəzifəsini daşıyan şagird isə mütəmadi şəkildə həyətyanı sahənin və dəhlizlərin, siniflərin, yeməkxana və idman zalının məktəblilərə təmiz təhvil verilməsinə nəzarət edir.

Bir sözlə, bu məktəbin idarəetməsində bütün ənənəvi qaydalara tam riayət olunur. Tədris ocağında mövcud iş rejimi gözlənilir və rəhbər vəzifələri icra edən şagirdlər onlara etibar olunan işlərin öhdəsindən layiqincə gəlirlər. Sadəcə məktəbin əsas vəzifə sahibləri öz "sələf"lərindən yaşda xeyli kiçik və şagird olmaları ilə fərqlənir.

# Təhsilin inkişafını əsaslandıran Strategiya

⇦ Əvvəli səh.1

**Ruhiyyə DAŞSALAHLI**

## Dövlət Strategiyasının ən uğurlu nəticələrindən biri Azərbaycanın beynəlxalq reytinqlərdə tutduğu mövqedir

Ölkədə keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında qabaqcıl mövqe tutan təhsil sisteminin yaradılması, təhsilin məzmununun, kadr hazırlığının, idarəetmə sisteminin və infrastrukturun qabaqcıl beynəlxalq təcrübəyə və Azərbaycanın inkişaf konsepsiyasına uyğun yenidən qurulması və ölkənin davamlı inkişafının təmin edilməsi məqsədinə xidmət edən Strategiyanın nəticələrini şərh edən Təhsil Nazirliyinin Aparat rəhbərinin müavini Fərzəli Qədirov hesab edir ki, təhsilin bütün pillələri üzrə uğurlar əldə edilib: “Strategiya ölkəmizdə keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında aparıcı mövqe tutan, səriştəli müəllim və təhsil menecerlərinə, qabaqcıl texnologiyalara əsaslanan infrastruktura malik təhsil sisteminin yaradılması məqsədinə xidmət edir. Bu məqsədə gedən yolda isə beş strateji istiqamət müəyyənləşdirilib”.

### Ümumi təhsilin bir mərhələsi

“Səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılması” istiqamətində erkən yaş dövründə inkişafın səmərəli təhsil modelinə əsaslanan məktəbəqədər təhsilin standart və kurikulumları, cəmiyyətin tələblərinə uyğun səriştə əsaslı ümumi təhsil, peşə və orta ixtisas təhsili standartları və kurikulumları, ali təhsil müəssisələrinin təhsil-tədqiqat-innovasiya mərkəzlərinə çevrilməsinə dəstək verən və rəqabətqabiliyyətli mütəxəssis hazırlığını təmin edən ali təhsil standartlarının hazırlanması nəzərdə tutulub.

Məzmun islahatları çərçivəsində “Məktəbəqədər təhsilin dövlət standartı”nın qəbulu nəticəsində bu sahənin inkişafına əlverişli zəmin yaranıb. 2017-ci ildə “Məktəbəqədər təhsi haqqında” Qanun qəbul olunub. Ümumi təhsil müəssisələrində dövlət büdcəsi hesabına 5 yaşlı uşaqların məktəbə hazırlığının təşkili Strategiyanın ən uğurlu töhfələrindəndir. Nəticə müqayisədən aydın görünür: “2013-cü ildə 24 faiz təşkil edən bu göstərici cari tədris ilində artıq 85 faiz təşkil edir. Bu bizi ona görə çox sevindirir ki, uşaqların erkən yaşdan təhsilə cəlb olunmaları gələcəkdə onların təhsilində, fərdi inkişafında və akademik nailiyyətlərində böyük rol oynayır”.

Məktəbəhazırlıq qruplarında tədris aparan müəllimlərin ibtidai sinif müəllimləri olması isə təhsildə varisliyin təmin edilməsi baxımından əhəmiyyətlidir. F.Qədirovun sözlərinə görə, məhz bunu nəzərə alaraq “Ümumi təhsil haqqında” Qanunda 5 yaşlıların məktəbəhazırlığı ümumi təhsilin bir mərhələsi kimi nəzərdə tutulub.

YUNISEF-lə birgə həyata keçirilən 32 rayonda, 320 icmada 6197 uşağı əhatə edən 3-4 yaşlı uşaqların məktəbəqədər təhsilə cəlb edilməsi də son illərin nailiyyətlərindəndir.

### Bütün təhsil pillələri üzrə qanunlar

Təhsil sahəsində ən böyük uğurlardan biri də həyata keçiriləcək hər bir islahatın əsasında qanunvericilik bazasının durmasıdır. F.Qədirovun sözlərinə görə, “Peşə təhsili haqqında”, “Ümumi təhsil haqqında” qanunların qəbul edilməsi, “Ali təhsil haqqında” Qanunun hazırlanması təhsilin bütün pillələri üzrə çevik idarəetmə və dəyişikliklər üçün hüquqi baza yaradıb.

Gələcəyin çağırışlarına cavab verməsi və innovativ inkişafın təmin edilməsi baxımından təhsilin məzmununun yenilənməsi mühüm prioritetlərdəndir. Bu istiqamətdə “Peşə təhsili üzrə dövlət standartları” təsdiq edilib, ümumi təhsilin, ali və orta ixtisas təhsilinin dövlət standartları hazırlanıb. Müzakirələrdən sonra sənədlər hökumətə təqdim ediləcək.

### Təmayülləşmə özünü doğruldur

Strategiyanın hədəflərindən biri də tam orta təhsil səviyyəsində təmayülləşmənin təşkilidir. Bu istiqamətdə islahatlar strategiyanın ən əhəmiyyətli nəticələrindən biridir: “Təmayülləşmə məzunların gələcək ixtisaslarını müəyyənləşdirməsi, həmin ixtisaslar üzrə daha dərindən bilik, bacarıq və kompetensiyalar əldə etməsi baxımından çox vacibdir. Müxtəlif təmayül istiqamətləri üzrə X-XI sinif şagirdlərinin 30 faizindən çoxu təmayül siniflərinə cəlb edilib. İlkin nəticələrin təhlili göstərir ki, bu istiqamət özünü doğruldur”.

Dünyada təhsilin inkişaf tendensiyaları təmayülləşmə istiqamətlərinin genişləndirilməsini tələb edir. Bununla əlaqədar ümumi təhsil müəssisələrində həm ayrı-ayrı fənlər, həm də peşə istiqamətləri üzrə təmayül siniflər yaradılıb. Təhsilalanların peşə seçiminə və əmək fəaliyyətinə hazırlanması, məşğulluğunun təmin edilməsi məqsədi ilə cari tədris ilindən 20 ümumi təhsil müəssisəsinin X siniflərində peşə təmayüllü siniflər açılıb: “Kənd təsərrüfatı, iaşə xidməti, inşaat və məişət texnikası sahələri üzrə zəruri infrastruktur və təcrübə sahələri yaradılıb. Həmin şagirdlər tam orta təhsil haqqında şəhadətnamə ilə yanaşı, öyrəndikləri peşə üzrə təhsil sənədi də əldə edəcəklər. Bu isə onlara əmək fəaliyyətinə başlamalarına imkan verəcək”.

11 il ərzində həyata keçirilən məzmun islahatlarının bir mərhələsi cari ildə başa çatıb, yeni fənn kurikulumları üzrə təhsilə başlayan şagirdlər XI sinfi başa vurub. Bununla əlaqədar Təhsil Nazirliyinin yaxından iştirakı ilə Dövlət İmtahan Mərkəzi tərəfindən buraxılış imtahanlarının yeni modelinə keçilib. “Əminik ki, yeni imtahan modeli təhsilalanların bilik və kompetensiyalarının daha səmərəli qiymətləndirilməsinə imkan verməklə yanaşı, məktəbin və müəllimin həm məsuliyyətinin, həm də nüfuzunun artmasına əhəmiyyətli şəkildə təsir edəcək, cəmiyyətdə ümumtəhsil məktəbinə etibarlı inam formalaşdıracaq”. Eyni zamanda cari tədris ilində I-XI siniflərdə istifadə edilən 400-dən çox dərsliyin məzmununun yenilənməsi prosesi başa çatıb.

### Layihələr

Ümumi təhsildə həyata keçirilən layihələrin önəmini də qeyd edən F.Qədirov hesab edir ki, XXI əsrdə süni intellekt və rəqəmsal bacarıqlar həyatın bütün sahələrinə nüfuz edir. Bu bacarıqların yüksək olduğu ölkələr daha çox uğur qazanır. Bu səbəbdən də həmin istiqamətlər üzrə layihələrin Azərbaycanda da icrasına başlanılıb.

Təbiət elmləri, texnologiya, mühəndislik, incəsənət və riyaziyyatın ayrı-ayrılıqda deyil, inteqrativ tədrisini nəzərdə tutan STEAM Azərbaycan üçün yenidir. Bu yanaşma şagirdlərdə XXI əsr bacarıqlarının formalaşdırılmasını, məktəblərdə robototexnika, nanotexnologiya, süni intellekt, mexanika kimi sahələri əhatə edən məzmunun tətbiqini nəzərdə tutur. Əsasən Bakı və Abşeron məktəblərində 6000-dən artıq şagirdi əhatə edir. Növbəti ildən regionların da bu layihədə iştirakı təmin ediləcək və layihəyə cəlb olunan şagirdlərin sayı 20 minə çatdırılacaq: “Bu ildən robototexnika və dizayn üzrə hazırlıq aparılan layihə növbəti tədris ilindən genişləndiriləcək. Hazırda aviamühəndislik, nanotexnologiyalar, biotexnologiyalar, kibertəhlükəsizlik istiqamətləri üzrə yeni modulların məzmunları üzərində iş gedir”.

Şagirdlərdə tənqidi və yaradıcı təfəkkürü inkişaf etdirmək, tədqiqatçılıq bacarıqları formalaşdırmaq, innovasiyaları mənimsəmək və tətbiq



etmək, yüksək texnoloji ixtisaslara marağı artırmaq məqsədi ilə icrasına başlanılan “Rəqəmsal bacarıqlar” layihəsi ən uğurlu layihələrdən birinə çevrilib. Hazırda bu layihə 120 məktəbi və 70 mindən çox şagirdi əhatə edir.

### Müəllimliyin nüfuzu artır

“Təhsilalanların fərdi xüsusiyyətlərini nəzərə alan innovativ təlim metodları və texnologiyaları vasitəsilə təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən yüksək nüfuzlu təhsilverənin formalaşdırılması” istiqamətində aparılan islahatların nəticələri çox uğurlu olub. Müəllim peşəsinin nüfuzunun artırılması istiqamətində Təhsil Nazirliyi iki istiqamətdə iş aparır: “Birinci istiqamət mövcud ümumi təhsil müəssisələrində çalışan müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması və müəllim heyətinin keyfiyyətinin yaxşılaşdırılmasıdır. İkinci istiqamət isə pedaqoji kadr hazırlığı həyata keçirən ali təhsil müəssisələrində ilkin müəllim hazırlığının təkmilləşdirilməsidir. Birinci istiqamət üzrə əsas hədəfimiz, ilk növbədə, müəllim seçiminə, məktəblərə daha peşəkar müəllimlərin cəlb edilməsinə diqqəti artırmaqdır. Təhsil Nazirliyi tərəfindən müəllimlərin işə qəbulu üzrə şəffaf, obyektiv bir mexanizm tətbiq edilir. Son illərdə müəllim peşəsinə marağı artıran bir çox amillər sırasında məhz bu mexanizmin uğurla tətbiqi və etimad qazanması xüsusi qeyd edilməlidir”.

Müəllimin artan nüfuzunun ən bariz göstəricisi isə elə müəllimlərin işə qəbulu üzrə müsabiqənin ildən-ilə artan iştirakçı sayıdır. 2019-cu ildə müəllimlərin işə qəbulu üzrə müsabiqədə 55 minə qədər namizəd iştirak edirdi ki, bu da əvvəlki illərlə müqayisədə 3-4 dəfə artım deməkdir.

Bu amillər sırasında müəllimlərin fəaliyyətinin qiymətləndirilməsi və stimullaşdırılması xüsusi qeyd edilməlidir. F.Qədirovun sözlərinə görə, 2014-cü ildən başlayaraq ümumi təhsil müəssisələrində çalışan 150 mindən çox müəllimin diaqnostik qiymətləndirilməsi keçirilib: “Nəticədə 150 mindən çox müəllimin həftəlik dərs yükü 1.5 dəfə, vəzifə maaşı isə təxminən 2 dəfə artırıldı. Ümumiyyətlə, müəllimlərin fəaliyyətinin stimullaşdırılması sahəsində atılan addımlar davamlı xarakter alıb. Bu ilin sentyabrında müəllimlərin əməkhaqqı daha 20 faiz artırılıb. Bu artımdan sonra hazırda ümumtəhsil müəssisələrində çalışan müəllimlərin orta aylıq əməkhaqqı 600 manata çatıb. Hətta bu gün məktəblərimizdə 1000 manatdan çox əməkhaqqı alan 5000-dən çox müəllim çalışır. Bu amil təhsilə, təhsil işçilərinə dövlət qayğısının bariz nümunəsi kimi qiymətləndirilməlidir. Bu qiymətləndirmənin bir əhəmiyyəti də ondan ibarət oldu ki, Təhsil Nazirliyi müəllimlərin peşəkarlıq səviyyəsi ilə bağlı etibarlı məlumat əldə etdi. Müəllimlərin məhz hansı sahədə peşəkarlığının artırılmasına ehtiyac olduğu müəyyənləşdirildi. Beləliklə, birinci istiqamət daha yüksək peşəkarlığa malik müəllimləri üzə çıxarmağa imkan verirdisə, ikinci istiqamət bizə onların hansı sahədə peşəkarlığının artırılmasına ehtiyac olduğunu, bunun üçün hansı təlim proqramlarının hazırlanmasına və təlimlərin keçirilməsinə zərurət olduğunu müəyyənləşdirməyə imkan verdi”.

Müəllim nüfuzunun əhəmiyyətli şəkildə yüksəlişini və bu peşəyə marağı ifadə edən daha bir amil. Ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplayan abituriyentlər ilk sırada müəllimlik ixtisasını seçir: “Əvvəlki illərdə yüksək bal toplayan abituriyentlər arasında nadir hallarda müəllimlik ixtisasını seçənlər olurdusa, son illərdə vəziyyət kəskin dəyişib. Cari ildə 500-dən yuxarı bal toplayan abituriyentlər arasında hər 4 nəfərdən biri, yeni həmin abituriyentlərin 25 faizi məhz müəllimliyi seçib. Bu fakt bir tərəfdən, məqsədimizə çatdığımız üçün bizi sevindirir. Başqa bir tərəfdən bu, bir neçə il sonra məktəblərimizə yüksək səviyyəli, hazırlıqlı, peşəkar kadrların gələcəyi deməkdir”.

### Müəllimlərin peşəkarlıq səviyyəsi artır

F.Qədirov müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması istiqamətində görülən işlərə də toxunub: “Dövlət Strategiyasının qəbulundan sonra təhsildə modul kredit sisteminə əsaslanan ixtisasartırma sisteminin tətbiqinə başlanılıb. Tamamilə yeni baxış, yeni yanaşma olan bu sistem müəllimlərin ehtiyacına uyğun müxtəlif istiqamətlər üzrə təlim proqramlarının hazırlanması və təlim proqramlarının modul xarakter daşıması, müxtəlif istiqamətləri əhatə etməsi baxımından yenilikdir”.

2013-cü ildən indiyədək 70 minədək müəllimin bu təlimlərdə iştirak edərək səriştələrini artırdığını deyən Aparat rəhbərinin müavini bu il daha 30 min müəllimin təlimlərə cəlb ediləcəyini bildirib: “Strategiyaya uyğun edilən yeniliklərdən biri də ondan ibarətdir ki, məktəb əsaslı ixtisasartırma təcrübəsi yaranıb. Bu istiqamətdə bilavasitə məktəblərdə tədrisin daha səmərəli təşkili üzrə təlimlər təşkil edilir”.

“Bu gün müəllimlərin ənənəvi fəaliyyəti bizi qane etmir. Ona görə də daha çox onların innovativ fəaliyyətini qiymətləndirir və təşviq edirik”, - deyən F.Qədirov bu məqsədlə 2017-ci ildən başlayaraq keçirilən “Təhsildə inkişaf və innovasiyalar üzrə qrant müsabiqəsi”nin əhəmiyyətindən danışıb: “Bu layihənin nəticəsində məktəb və müəllimlərə irəli sürdüyü təşəbbüsü reallaşdırmaq üçün dövlət hər il 1 milyon manat vəsait ayırır. 2017-ci ildə bu imkandan 38 məktəb, 84 müəllim, 2018-ci ildə 41 məktəb və 125 müəllim, 2019-cu ildə 53 məktəb və 115 müəllim yararlanaraq öz layihələrini reallaşdırmaq imkanı qazandılar”.

### Təhsildə optimallaşdırma

Nəticələrə görə cavabdeh, şəffaf və səmərəli tənzimləmə mexanizmlərinə malik, dövlət-ictimai xarakterli və dövlət-biznes partnyorluğuna əsaslanan təhsildə yeni idarəetmə sisteminin formalaşdırılması istiqamətində əsas hədəflərdən biri məhz təhsil sahəsində tənzimləmə və idarəetmə funksiyalarının təkmilləşdirilməsidir. Təhsilin inkişafı üzrə Dövlət Strategiyasında nəzərdə tutulan bu istiqamət üzrə həyata keçirilən işlər kifayət qədər əhəmiyyətlidir. Məhz bu tədbirlərdən doğan zərurətdən irəli gələrək Təhsil Nazirliyinin təşəbbüsü ilə “Təhsil haqqında” Qanuna 62 yeni dəyişiklik edilib. Nəticədə beynəlxalq təcrübədə tətbiq edilən bir sıra mütərəqqi məqamlar məhz bu dəyişikliklərdə öz əksini tapıb.

Təhsil müəssisələri şəbəkəsinin optimallaşdırılması və rasionallaşdırılması da bu istiqamət üzrə həyata keçirilən tədbirlərin tərkib hissəsidir. Bu, özünü daha çox peşə təhsili sahəsində göstərib. Son illərdə 55 peşə təhsili müəssisəsinin bazasında 24 ixtisaslaşmış peşə təhsili mərkəzi yaradılıb: “Koreya hökuməti ilə birgə həyata keçirdiyimiz layihə çərçivəsində Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi özünün yeniliyi, orijinallığı ilə bütün regionda fərqlənir. Bu ildən fəaliyyətə başlayan Mərkəzdə 231 nəfər tələbə təhsil alır. Növbəti ildən qısamüddətli kursları da nəzərə alsaq, tələbələrin sayının 1000 nəfərə çatdırılması nəzərdə tutulub”.

Ümumilikdə peşə təhsilinə yanaşma dəyişib və bu təhsil pilləsi əsas prioritetlərdən birinə çevrilib. “Peşə təhsili haqqında” Qanuna əsasən bu təhsil pilləsində 3 səviyyədə (ilk peşə təhsili, texniki peşə təhsili, yüksək texniki peşə təhsili) kadr hazırlığı nəzərdə tutulub.

F.Qədirovun sözlərinə görə, ali təhsil müəssisələrinin şəbəkəsinin də oprimallaşdırılması istiqamətində təşəbbüslər irəli sürülüb. Regionlarda bir sıra ali təhsil müəssisələri yaradılıb: “Təhsilin əlçatanlığının təmin edilməsi baxımından bunun faydalı olduğunu düşünürük”.

### Təhsilin keyfiyyəti

İdarəetmənin əsas istiqamətlərindən biri məhz təhsilin keyfiyyət göstəriciləridir. F.Qədirov deyir ki, hər il artım müşahidə edilən göstəricilər məzunların nəticələrində özünü göstərir. 2013-cü ildə qəbul imtahanlarında 300-dən çox bal toplayanların sayı 26.5 faiz, 400-dən çox bal toplayanların sayı 35.1 faiz, 500-dən çox bal toplayanların sayı 51.5 faiz, 600-dən çox bal toplayanların sayı isə 81.3 faiz artıb.

İstedadlı şagirdlərlə bağlı həyata keçirilən tədbirləri xüsusi qeyd edən F.Qədirovun fikrincə, Strategiyanın icrası dövründə fənn olimpiadalarının təşkili, respublika və beynəlxalq fənn olimpiadalarına hazırlıq sahəsində kəskin dönüş olub. Olimpiada hərəkatının genişlənməsi nəticəsində cari ildə respublika fənn olimpiadalarında 33 mindən artıq şagird iştirak edib: “Bu sahədə işin düzgün təşkilinin nəticəsidir ki, olimpiadalarda nailiyyətlərimizin sayı və çəkisi artıb. Şagirdlərimiz 2013-cü ildən indiyədək beynəlxalq olimpiadalarda 160-dan çox medal əldə ediblər. Qanunvericilikdə aparılan dəyişiklikdən sonra 100-ə qədər respublika və beynəlxalq olimpiada qalibinin, beynəlxalq müsabiqə və yarışların bu tədris ilindən etibarən müsabiqədənkənar ali təhsil müəssisələrinə qəbul olunması isə olimpiadalara marağın daha da artacağına əminlik yaradır”.

İstedadlı şagirdlərlə işin tərkib hissəsi olaraq ötən ildən bölgələrdə istedadlı uşaqlar üçün xüsusi təmayül siniflərin yaradılmasına toxunan F.Qədirovun sözlərinə görə, bu ildən həmin siniflərin sayı 80-ə çatdırılıb:

“Əlavə olaraq Gəncə və Qubada Fizika, Riyaziyyat və İnformatika Təmayüllü Respublika liseyinin, Şəki və Şirvanda isə Kimya və Biologiya Təmayüllü Respublika liseyinin filialları açılıb. Bu, regionlarda istedadlı uşaqların aşkar edilməsi və inkişafı istiqamətində atılan əhəmiyyətli addımlardır”.

### Məktəblərin siması dəyişir

“Müasir tələblərə cavab verən və ömürboyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılması” istiqamətində də mühüm tədbirlər həyata keçirilib.

Bu tədbirlərin nəticəsidir ki, ümumi təhsil müəssisələrinin 72 faizinin infrastrukturu əsaslı şəkildə təkmilləşdirilib: “3200-dən çox məktəb tikilib və ya əsaslı təmir edilib. Son illərdə məktəb tikintisi sahəsində modul tipli təhsil müəssisələri təcrübəsi tətbiq edilir. Kəndlərdə, çətin relyefi olan ərazilərdə belə məktəblərin quraşdırılması asan və əlverişlidir. Şagird sayından asılı olaraq məktəbin böyüdülüb-kiçildilmək imkanı verməsi onun üstünlüyüdür. Ölkəmizdə 2017-2018-ci illərdə 243 belə məktəb artıq istifadəyə verilib. Cari ilin sonunadək daha 50 məktəb quraşdırılacaq. Məktəb tikintisi sahəsində əldə edilən bu böyük uğurlarda ölkə Prezidentinin bu sahəyə xüsusi diqqət və qayğısı, təsdiq etdiyi proqramların çox böyük rolu olub. Birinci vitse-prezident xanım Mehriban Əliyevanın və onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun davamlı dəstəyi də məktəb tikintisində mühüm nəticələr əldə olunmasının əsas səbəblərindəndir. Məhz bu dəstəyin nəticəsidir ki, ölkəmizdə bir milyondan çox şagirdin təhsil şəraiti yaxşılaşdırılıb”.

Strategiyada nəzərdə tutulan “Təhsilin dayanıqlı və müxtəlif mənbələrdən istifadə olunmaqla yeni maliyyələşdirmə mexanizminin yaradılması” istiqamətində mühüm addımlar atılıb.

Sadəcə onu demək kifayətdir ki, dövlət büdcəsindən təhsilə ayrılan xərclər ildən-ilə artır. Təhsil xərcləri 2013-cü ildə 1.4 milyard manat təşkil etmişdisə, bu göstərici 2019-cu ildə 2.3 milyard manata çatdırılıb. 2020-ci ilin büdcəsində isə təhsil xərcləri 3.1 milyard manat proqnozlaşdırılıb ki, bu da 2019-cu ilə nisbətən 38.3 faiz artım deməkdir.

Təhsil şəraitinin yaxşılaşdırılması ilə yanaşı, təhsilin əlçatanlığının təmin edilməsi istiqamətində də dövlət öz vətəndaşlarının yanındadır.

Bu istiqamətdə cari ildə əhəmiyyətli qərarlar qəbul edilib: “Ölkə Prezidentinin sərəncamlarına əsasən təqaüd sistemi təkmilləşdirilib. Mart ayının 1-dən təqaüd yerlərinin sayı 16 min vahid artırılıb. 2019-2020-ci tədris ilində təqaüd yerlərinin sayı 45 faizə çatdırılıb. Növbəti tədris ilində isə bu göstəricinin 50 faizə çatdırılması nəzərdə tutulub. Tələbə təqaüdlərinin həcmi isə təxminən 20 faiz artırılıb. Bu tədbirlər 110 mindən artıq tələbəni əhatə edib. Bu il dövlət sifarişli yerlərin sayı 66.1 faiz artım qeyd olunub. Tələbələrin sosial müdafiəsi tədbirləri genişləndirilib.

Hazırda ali təhsil müəssisələrində təhsil alan 17120 nəfər məcburi köçkün statusuna malik, valideynini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan şəxslərin uşaqları, əlil olan tələbələrin təhsil haqqı dövlət büdcəsindən ödənilir. Dövlət sifarişi ilə təhsil alan tələbələrə görə dövlət büdcəsindən təhsil xərclərinin 30 faiz artırılması isə ali təhsil müəssisələrində təhsilin keyfiyyətinin yüksəldilməsinə bilavasitə təsir edəcək”.

Strategiyada nəzərdə tutulan hədəflərə nail olunması istiqamətində növbəti illərdə də bir sıra əhəmiyyətli tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub. Bu tədbirlər məzmun, müəllim, idarəetmə, infrastruktur və maliyyələşmə istiqamətlərini əhatə etməklə islahatların daha da dərinləşməsini özündə ehtiva edir.

# Sağlam rəqabəti və innovativ fəaliyyəti stimullaşdıran

⇦ Əvvəli səh.1

## Təhsildə inkişaf və innovasiyalar üzrə qrant müsabiqəsi qaliblərinin uğur hekayələri

Samirə KƏRİMOVA


Yaşar Əliyev


Könül Quliyeva


Rabil Abdinov


Təranə Yusifova

### Məktəb-teatr, teatr-məktəb əlaqələri möhkəmləndirilməlidir

*Yaşar Əliyev Qazax rayonu İslam Nəsibov adına Aşağı Əskipara kənd tam orta məktəbinin direktorudur. Təhsil Nazirliyinin Təhsildə inkişaf və innovasiyalar üzrə III qrant müsabiqəsində rəhbərlik etdiyi məktəbin ilk dəfə iştirak etdiyini və layihələrinin qalib olduğunu söyləyir. Təqdim etdikləri layihənin fərqlənənlər sırasında olacağını heç gözləmirmiş.*

*Müsabiqənin qalibi olan layihələri "Məktəb və teatr adlanır. Niyə məhz bu mövzuya müraciət etmələrini belə açıqlayır:*

- Bilirsiniz ki, uşaqların mənəvi inkişafında, onların dünyagörüşünün, estetik zövqünün formalaşmasında, daxili aləmlərinin zənginləşməsində teatrların rolu danılmazdır. Ölkəmizdə uşaqlara xidmət edən bir neçə teatr fəaliyyət göstərir. Bu teatrlar əsasən paytaxt Bakıda yerləşir. Teatr həm də güclü təbliğat vasitəsidir. Onun böyüməkdə olan gənc nəslin tərbiyəsinə təsiri inkarolunmazdır. Cəmiyyətdə elə ailələr var ki, teatr onlar üçün böyük maraq kəsb edir. Müəyyən obyektiv və subyektiv səbəblərdən teatra gedə bilmirlər. Bəzi ailələr üçün isə teatr rəngarəng işıqlı əyləncə, bəziləri üçün isə qaranlıq bir dünyadır. Yəni, teatr haqqında məlumatsızdırlar. Düşündük ki, məktəb-teatr, teatr-məktəb əlaqələri möhkəmləndirilməlidir. Məktəblər teatrlara tədrisin tərkib hissəsi olaraq yeni dərs-tamaşalar sifariş etmək hüququna malik olmalıdırlar. Xarici dövlətlərdə olduğu kimi, məktəbin tərkibində teatr məşğələləri olmalı və şagirdlərdən ibarət aktyor truppası təşkil edilməlidir. Burada aktual mövzularla bağlı səhnəciklər hazırlanmalı, məktəblilərin maariflənməsinə, ədəbi ehtiyaclarının ödənilməsinə, onların yerli və əcnəbi klassik yazarların əsərləri ilə əyani şəkildə tanışlığına imkanlar yaradılmalıdır. Həmçinin, şagirdlərdən ibarət teatr bayram və əlamətdar günlərdə məktəb kollektivinin asudə vaxtının səmərəli təşkil edilməsində yaxından iştirak etməlidir. Məhz təqdim etdiyimiz layihənin əsas məqsədi də məktəbdə teatr məşğələləri təşkil etmək, aktyorluq istedadı olan uşaqları üzə çıxartmaq, teatr truppası yaradaraq müxtəlif əsərləri səhnələşdirməkdir. Həmçinin, vaxtaşırı şagirdlərin asudə vaxtını daha səmərəli və mənalı olması məqsədi ilə teatr tamaşaları təşkil etməkdir.

Avqustun 20-dən start götürən layihəmizin ilkin olaraq məktəbimizdə təqdimatını keçirmiş, iştirakçılara və qonaqlara bununla bağlı geniş məlumat vermişik. Artıq səhnələşdiriləcək tamaşalarda oynamaq istəyən istedadlı şagirdlərin seçimi gedir. Onu da qeyd edim ki, layihə uşaqların hədsiz marağına səbəb olduğundan aktyor seçimi zamanı bizə nəzərdə tutulandan artıq uşaq müraciət edib. Hətta əlavə könüllü olaraq bu layihədə iştirak etmək istəyən şagirdlərimiz də var. Bu da onu göstərir ki, biz məqsədimizə çatmağa çox yaxınıq. Düşünürəm ki, dekabrda yekunlaşacaq bu layihə şagirdlərimizi digər tərəfdən də daha yaxından tanımağımıza imkan yaratmaqla yanaşı, onların aktyorluq istedad və qabiliyyətlərinin aşkarlanmasında əhəmiyyətli rol oynayacaq.

Bu gün Azərbaycanda həyata keçirilən dövlət proqramları və islahatlar çərçivəsində təhsilin bütün sahələri yenilənir, daha da təkmilləşir. Təhsildə idarəetmə, müəllim hazırlığı və digər sahələrin inkişafına xüsusi diqqət yetirilir.

Ölkəmizdə son illərdə təhsilin inkişafı ilə bağlı görülən işlər deməyə əsas verir ki, Azərbaycan öz gələcəyini daha etibarlı və inamlı görmək əzmindədir.

Bilirsiniz, innovativ fəaliyyət əslində təhsil fəaliyyətinin inkişaf formasıdır. Bölgə məktəbi olaraq belə bir müsabiqədə iştirak etmək və təqdim etdiyimiz layihə ilə seçilmək çox sevindiricidir.

### "Müsabiqə kreativ fikirlərimizi reallaşdırmağa geniş imkan yaradır"

*Müsabiqənin digər qalib layihəsi fərdi kateqoriya üzrə Masallı rayonu Çayqıraq kənd ümumi orta məktəbinin riyaziyyat müəllimi Rabil Abdinov tərəfindən hazırlanıb.*

*Onu da qeyd edək ki, bu il keçirilən müsabiqənin öncəkilərdən əsas fərqi istər müraciətlərin qəbulu, istərsə də layihələrin qiymətləndirilməsinin elektron şəkildə həyata keçirilməsidir ki, bu da prosesdə şəffaflığın və obyektivliyin qorunmasında vacib faktorlardan biri hesab edilir. Belə ki, bütün iştirakçılar grant.edu.az portalı vasitəsilə qeydiyyatdan keçərək ərizələrini elektron qaydada yerləşdiriblər. Ekspert komissiyası da layihələrin qiymətləndirmə prosesini tam elektron şəkildə həyata keçirib. Məhz Rabil müəlim də"Virtual məktəb" adlı layihəsini müsabiqənin şərtlərinə uyğun olaraq təqdim edib və sonda qalib olub. Onunla söhbətimiz bu mövzuda layihə işləməsinin hansı zəruriyyətdən yarandığı və bununla bağlı nə kimi işlərin görüldüyü barədə oldu.*

*Rabil müəllim bildirir ki, məktəb rəhbərləri, müəllimlər və valideynlər məktəblə bağlı məlumatları əldə etməkdə bir sıra çətinliklərlə üzləşdiyinin dəfələrlə şahidi olub.*

- Bəzən də elə hallar yaranır ki, məktəbin fəaliyyəti ilə bağlı normativ sənədlərin mənbəsini tapmaq çətin olur. Sənədlərə edilmiş dəyişiklikləri dəqiqləşdirmək olmur. Məktəblə bağlı sənədlərin bir çoxunun elektron versiyaları yoxdur. Bütün bunları axtarıb tapmaq üçün vaxt və bir qədər də hüquqi bilgi tələb olunur. Mənim tərəfimdən hazırlanan layihə "Virtual məktəb" adlanır. Layihənin əsas fəlsəfəsi budur ki hər hansı xəyali bir nümunəvi ümumtəhsil məktəbi mövcuddur və onun ümumdünya hörümçək torunda *www.virtual-maktab.az* domenli veb saytı mövcuddur. Bu portal vasitəsi ilə məktəbin heyəti və valideynlər vəzifə funksiyalarının icrası ilə bağlı bütün işlərin nümunəvi forması ilə tanış ola bilirlər. Hazırda saytın hazırlanmasının texniki hissəsi demək olar ki, bitib və son tamamlanma işləri gedir. Sayta bir neçə metodik məqalə də artıq yerləşdirilib. 6 ay ərzində sayt nəzərdə tutulan məktəbşünaslığa aid məlumatları özündə ehtiva etməlidir. Təqdim etdiyim layihənin əsas hədəfi məktəblərə təyin edilən direktor, müavin, pedaqoji, tədris pedaqoji və hətta texniki heyətin fəaliyyəti ilə bağlı normativ və metodik bazanı "bir pəncərə"dən hər bir kəsin ixtiyarına verməkdir. Düşünürəm ki, bu, təhsil işçilərimizə vaxta qənaət etməklə tez bir zamanda istədikləri sənədlərlə tanış olmaq imkanı yaradacaqdır.

Müsabiqədə qalib gələcəyimə əmin idim. Lakin layihənin əhatəliyinin genişliyi və veb texnologiyalardan kənd yerində istifadənin çətinliyinə görə öhdəsindən gələcəyimə tam əmin deyildim. Artıq çətinliklər dəf olunub və bu məsələlərin həlli üzərində ciddi işlər aparılır.

Son illər Təhsil Nazirliyinin apardığı islahatlar, tətbiq olunan yeniliklər biz müəllimlərin ürəyincədir. Xüsusilə Təhsil Nazirliyi tərəfindən Təhsildə inkişaf və innovasiyalar üzrə qrant müsabiqəsinin keçirilməsi bizə kreativ fikirlərimizi realllaşdırmağa geniş imkanlar yaradır. Bu müsabiqə həm müəllimlərə ideya və innovativ işlərini həyata keçirməyə maddi stimul verir, eyni zamanda da onları yaradıcılığa sövq edir. "Pul olsaydı və imkan yaradılsaydı bu işi edə bilərdim" fikri artıq keçmişdə qaldı. Dövlət müəllimin ideyasını maddi dəstəkləməklə yanaşı, onları məktəblərdə həyata keçirməsinə də gözəl bir şərait yaradır.

### "Atamla birgə öyrənirəm" adlı layihəm mənə uğur gətirdi

*"İlk dəfə idi ki, belə bir müsabiqədə iştirak edirdim". Bu sözləri Bərdə rayonu 8 nömrəli tam orta məktəbin müəllimi Könül Quliyeva söyləyir:*

- Mənə uğur gətirən layihəm "Atamla birgə öyrənirəm" adlanır. İbtidai sinif müəllimi olduğum üçün şagirdlərlə yanaşı, həm də valideynlərlə tez-tez ünsiyyətdəyəm.

Yaxşı bilirsiniz ki, övladlarının təhsilində bizim analar əsas və önəmli rol oynayır. Azərbaycan təhsilində ataların rolunu artırmaq isə, düşünürəm ki, vacib və önəmlidir. Dərslərimi müasir dövrün tələblərinə uyğun quran bir müəllim kimi müxtəlif xarici ölkələrin təhsil sistemi ilə də maraqlanır, tətbiq olunan yenilikləri hər zaman izləməyə çalışıram. Xarici ölkələrdə təhsillə bağlı məsələləri öyrənərkən fərqinə vardım ki, orada ata və ana eyni dərəcədə övladlarının təhsil həyatında mühüm rol oynayırlar. Bir sözlə, valideynlərin hər ikisi övladlarının təhsilində cavabdehlik daşıyır. Özlüyümdə həmişə düşünürdüm ki, bizdə də niyə belə olmasın? Və bu sualı özümə tez-tez verirdim. Ona görə də həmin sualın cavabı ola biləcək bir layihə hazırladım.

Layihənin əsas məqsəd və vəzifələri təhsildə ataların rolunu artırmaq, ata-övlad münasibətlərinin düzgün formalaşmasına, müasir metodikalar vasitəsi ilə ataların da yeni biliklər əldə etmələrinə dəstək olmaq, fərqli mühitdə maraqlı öyrənmə yollarını aşılamaq, məktəblərarası əlaqənin gücləndirilməsidir.

Bu ilin avqustun 15-dən artıq layihənin tətbiqinə başlanılıb və noyabrın 15-də yekunlaşacaqdır. İlkin olaraq layihənin geniş təqdimatı keçirilib, Bərdə rayonunda məktəblərin 4-cü sinif şagirdləri bununla bağlı məlumatlandırılıb. Apardığımız uğurlu təbliğat nəticəsində atalar öz övladları ilə birlikdə layihədə iştirak etmək üçün müraciət ediblər. Onlar arasında seçilən iştirakçılarla bir daha görüş təşkil olunub və müəyyən məsələlərlə bağlı məlumatlar verilib. Qeyd edim ki, layihə müddətində 5 fənn üzrə (rəsm, həyat bilgisi, riyaziyyat, ingilis dili, ana dili) təlim sessiyalarının keçirilməsi müəyyənləşdirilib. Həmin təlimlər üçün müəyyən olunan fənlər üzrə uyğun mövzular ibtidai sinif müəllimləri ilə birlikdə müzakirə edilərək seçilib.

Layihə çərçivəsində ilk təlim sessiyası cari ilin oktyabrın 6-da Bərdə rayonunda keçirilib. Layihə çərçivəsində müəyyən olunmuş 5 fəndən ilk olaraq riyaziyyatdan valideynlər və övladlar bir yerdə çalışaraq müxtəlif tapşırıqlar yerinə yetiriblər. Bu prosesdə onlar keçilən mövzunu əylənərək öyrəniblər. İlk mövzu "Vurma" olub. Burada valideynlər övladlarla birlikdə onlara eyni sayda verilmiş misalları müəyyən vaxt çərçivəsində həll etməyə çalışıblar. Sonra növbəti "İkirəqəmli ədədin bir rəqəmli ədədə bölünməsi" mövzusu öyrənilib. Onu da əlavə edim ki, burada atalar və övladlar fərqli komandalar yaratmır və hər bir ata öz övladı ilə yarışır. Belə ki, 2 fərqli flipçartlara yazılmış eyni misalları həll etməyə çalışan qruplar bir-birləri ilə yarışırlar. Sonda övladlar qrupu qalib olub.

Layihə çərçivəsində növbəti təlim sessiyası həyat bilgisi fənni üzrə baş tutub. Bu zaman da valideynlər övladları ilə bir yerdə çalışaraq müxtəlif tapşırıqlar yerinə yetirib, yeni bilgiləri əylənərək öyrəniblər. Atalar və onların övladları arasında öyrəndikləri məlumatların mənimsənilməsi və ölçülməsi məqsədilə sorğu-sual yarışı da keçirilib.

Digər fənlər üzrə də belə təlim sessiyaları keçirilib və ataların uşaqları ilə birlikdə təhsil prosesində iştirak etməsi olduqca effektiv nəticə verib.

Düşünürəm ki, layihəmizin nəticəsi olaraq artıq atalar övladlarının gələcək təhsil həyatlarında bundan sonra da fəal olacaq, uşaqlara dərslərində hər zaman köməklik göstərə biləcək və bu prosesin əslində çox da çətin olmadığını anlayacaqlar. Eyni zamanda, bu müddət ərzində birgə olan anlar, ataların övladları ilə daha çox vaxt keçirmələri, həm uşaqlarının təhsilə olan marağının artmasına, həm də ata-övlad münasibətinin düzgün şəkildə formalaşmasına şərait yaradacaqdır.

Hazırkı an üçün qarşıma qoyduğum məqsədimdən daha artığına nail ola bilmişəm,- deyə bilərəm. Çünki artıq nəinki Bərdədən, hətta digər rayonlardan da layihə ilə maraqlananlar və bunun davam edib-etməyəcəyini soruşanlar var. Təbii ki, bu, məni sevindirir və daha həvəslə, eyni zamanda daha çox çalışmağıma stimul verir.

Layihənin yekununda bütün iştirakçılara sertifikatlar və müxtəlif hədiyyələrin təqdim olunması nəzərdə tutulur.

Təhsil müəssisələrimiz, eyni zamanda biz müəllimlər üçün təqdim olunan belə müsabiqələr, müxtəlif layihələrdə iştirakımız ilk öncə, təhsil işçilərinə, məktəblərə daha çox təcrübə, yeni biliklər, əməkdaşlıqlar verir. Bununla yanaşı həm də, məktəblər və müəllimlər arasında olan rəqabəti də artırır. Və bu tip müsbət rəqabətlər müəllimlərə, şagirdlərə, valideynlərə və digər təhsillə bağlı insanlara böyük uğurlar qazandırır.

### "Məlumatların elektronlaşdırılması uşaqların daha rahat öyrənməsinə imkan verəcək"

*38 illik pedaqoji staji olan Təranə Yusifova da müsabiqənin builki qaliblərindəndir. Bakıdakı 285 nömrəli tam orta məktəbin müəllimidir. Müsabiqəyə "Audio-Ensiklopediya" adlı layihəsi ilə qatılıb və qalib olub. Müsabiqədə iştirak etmək həvəsi onda işlədiyi məktəbin direktoru Safurə Rəhimovanın bu müsabiqənin birinci ilində yer tutmasından sonra yaranıb.*

- Direktorumuzun layihəsi "Oxumadan öyrənək" adlanırdı. Layihə çərçivəsində 5-ci sinif "Ədəbiyyat" və "Azərbaycan tarixi" dərsliklərinin elektron variantını işləyib hazırlamışdı. Disk şəklində olan bu dərsliklərin məktəbimizdə təqdimatı keçirildi və mən həmin disklərlə tanış oldum. Daha sonra bu disklər məktəbdə tətbiq olunmağa başladı, müəllimlərə paylanıldı. Gözdən problemi olan uşaqlara hədiyyə edildi. Bütün bunlar müəllim olaraq məni həvəsləndirdi ki, belə bir layihə edim. Bu ideyadan yararlanaraq özüm "Audio-Ensiklopediya" adlı layihə üzərində işləməyə başladım və onu builki müsabiqəyə təqdim etdim.

Bilirsiniz, audio vəsait artıq bütün dünyada yayılıb, istədim ki, bizdə də geniş tətbiq olunsun. Düşündüm ki, 1-ci və 4-cü sinif şagirdləri üçün onların dünyagörüşünün artırılması istiqamətində maraqlı bir dərs resursu hazırlayım. Fikirləşdim ki, ensiklopediyalar çox var. Müəllim kimi görürdüm ki, şagirdlərin çoxusu kitabları alır və bir dəfə oxuyandan sonra qoyur bir tərəfə və öyrəndikləri məlumatların əksəriyyəti yaddan çıxır. Amma bu məlumatların elektronlaşdırılması, disk şəklində olması uşaqların harada olmaqlarından asılı olmayaraq rahat istifadəsinə imkan verə bilər, hətta telefonlarına da diskdən rahat şəkildə yükləyə bilərlər. Beləliklə "Audio- Ensiklopediya"nı hazırlamaqla onun şagirdlər üçün gərəkli bir vəsait olacağını özüm üçün yəqinləşdirdim. Bu vəsaitin xüsusilə bizim inklüziv təhsilə cəlb olunan şagirdlərimiz üçün istifadə baxımından daha faydalı olacağına əmindim.

Avqust ayından icrasına başlanılan layihə çərçivəsində bu günə qədər artıq müxtəlif ensiklopediyalar üzərində iş gedib. İnternet səhifələrində maraqlı kitablardan yaş səviyyəsinə uyğun olaraq materiallar toplanılıb. Həmin materiallar redaktə olunub. Onu deyim ki, toplanılan məlumatlar müxtəlif ensiklopedik biliklərə malik olan kitablardan, ensiklopediyalardan və internetdən dəqiq və yoxlanılmış məlumatlardır. Həmin məlumatların elektron versiyasının hazırlanması, səsləndirilməsi ilə bağlı rejissor və aktyor işi də artıq yekunlaşıb, hazırda səsyazma prosesi üzərində işlər gedir. Noyabrın sonu, dekabrın əvvəllərində diskimiz hazır olacaq.

Layihəmdə qarşıya qoyduğum hədəf ondan ibarətdir ki, şagirdlərin bilik və bacarıqlarının artırılmasına, dünyagörüşünün formalaşmasına nail olaq və qeyd etdiyim kimi, xüsusilə inklüziv təhsilə cəlb olunan şagirdlər üçün gözəl bir resurs hazırlansın. İbtidai sinif müəllimləri sinif təşkilat saatlarında, həyat bilgisi dərslərində bu resursdan faydalana bilsinlər.

Düşünürəm ki, təqdim olunacaq "Audio- Ensiklopediya"nı dinləyəcək uşaqların gördüklərindən, oxuduqlarından daha çox diskdən eşitdikləri məlumatlar, müəyyən bilgilər yadlarında qalacaqdır. Bu sanki bir nənənin nəvəsinə danışdığı nağıla bənzəyir. İllər keçəcək, uşaqların hafizəsində həmin müxtəlif məlumatlar, bilgilər yaddan çıxmayacaq, eynilə nə vaxtsa dinlədikləri nağıllar kimi. Məlumatların elektronlaşdırılması həm də uşaqların daha rahat öyrənməsinə imkan verəcək.

"Audio-Ensiklopediya" praktik olacaq, hər bir kəs ondan asanlıqla istifadə edə biləcək. Bu, eyni zamanda valideynlər, şagirdlərə keçilən dərslərə aid məlumatlarla bağlı sual-cavab hazırlayan müəllimlər, uşaq birliyi rəhbərləri üçün də çox gözəl vəsait olacaqdır. Vəsait gözündə problemi olan uşaqlarımız üçün də istifadə etmək baxımından rahat olacaqdır. Əmin olmadığım heç bir işin qulpundan yapışmıram. Uzun illər ərzində qazandığım təcrübə mənə belə bir layihə ilə müsabiqəyə qatılmaq inamını verdi.

Onu da xüsusi qeyd edim ki, qrant müsabiqələrin təşkili biz müəllimlərə reallaşdırmaq arzusunda olduğumuz ideyaları hazırladığımız layihələr şəklində həyata keçirməyimizə geniş imkan və şərait yaradır.

# “Çox istəyərdim ki, elmi məktəb formalaşdırım”

Əvvəli səh.1

Oruc MUSTAFAYEV

## Flora Hacıyeva: “Özünüzdən sonra gələn gənc nəslin inkişafında yaxından iştirak edin”

**Tanıtım:** Flora Hacıyeva 26 yanvar 1985-ci ildə Tovuz rayonunda anadan olub. 2000-ci ildə Tovuz rayonu N.Tusi adına orta məktəbi əla qiymətlərlə bitirib. 2000-ci ildə 15 yaşında Bakı Dövlət Universitetinin kimya fakültəsinə daxil olub, həmin fakültənin bakalavr, 2006-cı ildə isə magistratura pillələrini fərqlənmə diplomu ilə bitirib. 27 dekabr 2007-ci il tarixindən BDU-nun “Nanomaterialların kimyəvi fizikası” kafedrasına dissertant qəbul olunub. 25 noyabr 2010-cu ildə kimya elmləri üzrə fəlsəfə doktoru elmi dərəcəsi alıb.

2006-cı ildə “Nanomaterialların kimyəvi fizikası” kafedrasında baş laborant, 2011-ci ildən “Nanomaterialların kimyəvi fizikası” kafedrasında müəllim, “Nano Araşdırmalar Mərkəzində” böyük elmi işçi, 2016-cı ildən dosent vəzifəsində çalışır. Müxtəlif ölkələrdə (Yaponiya, Fransa, Almaniya, İtaliya, İspaniya, Avstriya, Çexiya, Yunanıstan, Türkiyə, Rusiya, İran və b.) təcrübəkeçmə proqramlarına qatılıb, beynəlxalq konfrans və simpoziumlarda məruzə ilə çıxış edib. 82 elmi əsərin müəllifidir, onlardan 64-ü (51-i Web of Science Clarivate Analytics agentliyi siyahısına düşən nüfuzlu beynəlxalq elmi jurnallarda) və 23 tezis xarici jurnal və konfrans məcmuələrində nəşr edilib. Nanotexnologiya sahəsi üzrə bir neçə beynəlxalq və ölkədaxili qrant layihələrinin iştirakçısı və 3 beynəlxalq layihənin (Matsumae, ISESCO, MİÜNT) rəhbəri olub. 2016-cı ildə Yaponiyanın Matsumae Fondunun qrant layihəsini qazanaraq 4 ay müddətində Kumamoto Universitetində elmi-tədqiqat işi aparıb. Matsumae Fondunun xüsusi medalı və sertifikatı ilə təltif edilib.



Elmi-tədqiqat işlərinin təhsil sahəsinə tətbiqi üzrə də işlər aparmaqdadır. Bakı Dövlət Universitetində kimya, fizika, biologiya və ekologiya fakültələrinin bakalavr və magistr pillələrində nanotexnologiya üzrə açılan ixtisaslar və fənlərin proqramlarının hazırlanmasında, eləcə də tədrisində fəal iştirak edir. Kimya fakültəsinin bakalavr təhsil pilləsi üçün “Nanokimya və nanotexnologiyanın əsasları” fənninin və Ekologiya fakültəsinin magistr təhsil pilləsi üçün “Nanotexnologiyanın ekologiyada tətbiqi” fənn proqramlarının müəllifidir.

Hazırda təhsilin doktorantura pilləsində 2 nəfər doktoranta elmi rəhbərlik edir. 2014-cü ildə elm və təhsil sahəsində əldə etdiyi uğurlara görə Gənclər üçün Prezident Mükafatına layiq görülüb. MDB ölkələrinin Gənc Alimlərinin Ekspert Şurasının, Fizika fakültəsinin D011 Dissertasiya Şurasının nəzdindəki Seminar Şurasının üzvüdür. Hazırda elmlər doktoru proqramı üzrə elmi-tədqiqat işlərini yekunlaşdırmaq üzrədir.

### “Nanotexnologiya innovasiya yönümlü bir elm sahəsidir”

*- Tədqiqatlarınızın mövzusu barədə məlumat verərdiniz. Bu sahənin aktuallığı nədədir?*

- Tədqiqatımın əsas mövzusu nanotexnologiya və bu sahədə aparılan elmi-tədqiqat işləridir. Nanotexnologiya - innovasiya yönümlü bir elm sahəsidir və hazırda dünyada ən prioritet istiqamətlərdən biri hesab olunur. Qeyd edim ki, nanotexnologiya ölçüləri 0,1-100 nm tərtibində olan obyektlərdə baş verən fiziki, kimyəvi, bioloji və sair prosesləri öyrənən multidissiplinar bir elm sahəsidir. Nanotexnologiya elmi keçən əsrin 60-cı illərindən inkişaf etməyə başlayıb və bu gün həyatımızın müxtəlif sahələrinə sürətlə daxil olmaqdadır. Bu elmdən əldə edilən nəticələr tibb, sənaye, aviasiya və kosmonavtika, hərbi sənaye, elektronika, ekologiya və sair sahələrdə çox geniş istifadə olunur. Hissəciklərin ölçüləri kiçildikcə onlar bir sıra yeni xassələrə malik olurlar və əgər bu ölçüləri qoruyub saxlamaq mümkün olsa, keyfiyyətcə yeni, yüksək effektivliyə malik materiallar almaq olar. Ölçüləri 0,1-100 nm olan nanoquruluşlar poladdan dəfələrlə möhkəm olan çox yüngül materialların hazırlanmasında, böyük yaddaşa malik kiçikölçülü qurğuların yaradılmasında, səthi islanmayan və öz-özünü təmizləyən şüşələrin istehsalında, şiş hüceyrələrinə məqsədyönlü dərman daşıma sistemlərində, güclü antiseptik və antibakterial maddələrin hazırlanmasında, səthi görünməyən obyektlərin alınmasında və sair sahələrdə çox geniş istifadə olunmaqdadır.

*- Təhsilinizdə və elmi karyeranızda BDU-nun rolu barədə nə deyə bilərsiniz? BDU-da elmi mühit necədir?*

- Mən təhsilimin həm bakalavr, magistr, həm də doktorantura pillələrini BDU-da almışam. Hazırda elmlər doktoru pilləsini də BDU-da yekunlaşdırmaq üzrəyəm. Təbii ki, mənim elmdə və təhsildə əldə etdiyim uğur və nailiyyətlərdə, həmçinin dünyagörüşümün formalaşmasında BDU-nun rolu əvəzedilməzdir. Mən 2006-cı ildən BDU-da aktiv elmi fəaliyyətə başlamışam. Deyə bilərəm ki, elm sahəsində fasiləsiz işlədiyim son 13 il ərzində universitetdə və kafedrada gənc tədqiqatçının öz potensialını üzə çıxarması üçün münbit elmi mühit olub.

*- BDU-nu seçərkən bugünkü uğurları əldə edəcəyinizə əminliyiniz var idimi?*

- Mən BDU-nun kimya fakültəsinə daxil olanda cəmi 15 yaşım var idi. O zamanlar nə vaxtsa alim olacağımı düşünmək və ya onu xəyal etməyimi demək çətin olar... Sadəcə onu bilirdim ki, elmə, təhsilə çox həvəsim vardı və bu yolda irəliləmək, təhsilimi daha da inkişaf etdirmək istəyirdim. Mən yalnız çalışır və elmi-tədqiqat işlərimi bitkin yerinə yetirmək istəyirdim. Bütün qazandığım uğurlar buradan qaynaqlanır.

*- BDU gənc alimlərə hansı imkanları verir? Universitetdə gənc alimlər üçün hansı perspektivlər var?*

- 100 illik yubileyini qeyd etdiyimiz BDU yarandığı gündən Azərbaycan Respublikasının və xalqının inkişafında böyük tarixi rol oynayıb. Bu universitet cəmiyyətimizə çoxlu sayda dahi elm adamları və elm xadimləri, tanınmış ziyalıları verib. BDU-da çalışdığım müddətdə həmişə müəllimlərim, elmi rəhbərlərim və digər həmkarlarım tərəfdən həm elmi, həm də mənəvi dəstək görmüşəm. Universitetdə gənc alim və tədqiqatçılar üçün həmişə geniş imkan və perspektivlər olub və düşünürəm ki, bu mühit bundan sonra da olacaq.



### “BDU-da çox yaxşı elmi potensial var”

*- Bir gənc alim olaraq BDU-nun elmi potensialını necə qiymətləndirirsiniz?*

- BDU-da həm yaşlı, həm də gənc nəsil nümayəndələrindən çox yaxşı elmi potensial var. Mən dünyanın bir sıra inkişaf etmiş ölkələrində elmi ezamiyyətlərdə olmuşam və bu ölkələrdə çalışmaq imkanım da olub. Bir şeyə əminəm ki, Azərbaycan xalqı çox intellektual xalqdır və bu xalqın nümayəndələri dünyanın istənilən yerində elm, təhsil və digər sahələrdə uğurlar əldə etmək qabiliyyətinə malik insanlardır. Təbii ki, bu cür intellektual gənclərin, gənc alimlərin aşkar olunmasında, onların inkişafında mühit də çox böyük rol oynayır. Bilirsiniz ki, Web of Science Clarivate Analytics bazası dünyada elm adamlarının, alimlərinin, o cümlədən ali məktəblərin elmi səviyyəsini təyin edən elmmetrik beynəlxalq bazadır. Web of Science Clarivate Analytics bazasından əldə olunan məlumata görə, Azərbaycan elmi məhsulunun 22%-ni məhz Bakı Dövlət Universiteti verir.

*- BDU impakt faktorlu elmi məqalələrin sayına görə ölkəmizdə liderdir. Sizin bir gənc alim olaraq bu göstəricidə uğur payınız nə qədərdir?*

- Bəli, düz vurğuladınız, Azərbaycan ali təhsil müəssisələri arasında Web of Science Clarivate Analytics bazasında çap olunan elmi məqalələrə görə BDU ölkəmizdə liderdir. Mənim də bu beynəlxalq bazada 50-dən çox müəllif və həmmüəllifliklə elmi məqalələrim var. Təbii ki, bundan sonra da elmi işlərimin sayının və keyfiyyətinin artırılmasına çalışacağam.

*- Elmi məhsulların kommersiyalaşdırılması - bu nə qədər vacibdir? Bir gənc alim üçün gəlir mənbəyi hesab oluna bilərmi?*

- Ümumiyyətlə, elmin kommersiyalaşdırılması bütün dünyada ölkələrin iqtisadiyyatının inkişafına təkan verən bəlkə də ən birinci amillərdən biridir. Məlum olduğu kimi, ABŞ, Kanada, Yaponiya və digər inkişaf etmiş ölkələrdə elmi innovasiyaların tətbiqindən əldə olunan gəlir ölkə iqtisadiyyatının böyük hissəsini təşkil edir. Belə demək olar ki, dünya miqyasında ölkələrin iqtisadi göstəriciləri, beynəlxalq nüfuzu və digər pozitiv üstünlükləri elmi innovasiyaların, elmi məhsulların kommersiyalaşdırılmasının verdiyi faizlə ölçülür. Təbii ki, elmi məhsulların kommersiyalaşdırılması çox vacibdir, bu, nəinki gənc alim, həmçinin elmi müəssisə və bütövlükdə ölkə üçün gəlir mənbəyidir.

*- Siz gənc alimin portretini necə xarakterizə edərdiniz: Gənc alim kimdir?*

- Gənc alimi öz çalışdığı sahədə yüksək baza biliyinə malik, həmçinin daim öz üzərində işləyən, beynəlxalq elm və təhsil sahələrində inteqrasiyada olan, öz ölkəsində yüksək ixtisaslı kadrların yetişdirilməsində yaxından iştirak edən, ölkəsini beynəlxalq səviyyədə təmsil etmək qabiliyyətinə sahib olan və təbii ki, Vətənini, xalqını sevən gənc tədqiqatçı kimi təsvir edə bilərəm.

### “Dünyanın elm və təhsil qapıları bu gün çox açıqdır”

*- Hər bir gənc alimin arzusu tədqiqatlarının nəticələrinin reallaşmasını görməkdir. Siz necə hesab edirsiniz?*

- Əlbəttə, bu, nəinki gənc tədqiqatçının, bütövlükdə bütün dünyada elm adamlarının ümumi arzusudur. Hər hansı elmi təcrübədən əldə olunan müsbət nəticələr, bu nəticələrin dünyanın tanınmış jurnallarında dərc edilməsi və ya hər hansı beynəlxalq fond tərəfindən maliyyələşdirməyə qəbul olunması, təbii ki, bunlar bir çox gənc alimin arzularının reallaşması deməkdir.

*- Gənclərə məsləhət verin: elm və tədqiqatlarda necə uğur qazanmaq olar?*

- Düşünürəm ki, burada ən vacib amil daxili istək və həvəsdir. Əlbəttə ki, çox vacib rolu elmi mühit də oynayır. Gənclərə məsləhətim arzuları və hədəfləri yolunda irəliləmək, hər hansı maneədən, çətinliklərdən çəkinməmək və qorxmamaq, çoxlu çalışmaqdan ibarətdir. İstənilən halda heç bir zəhmət yerdə qalmır. Dünyanın elm və təhsil qapıları bu gün çox açıqdır. Mən təxminən 10-15 il bundan qabaqkı illərlə müqayisədə deyə bilərəm ki, gənclərin xarici ölkələrə çıxışı, təhsil almaları, elmi-tədqiqat aparmaları çox genişlənib. Buna ölkəmizdə qəbul olunan dövlət proqramları, ölkədaxili fondların təmin etdikləri elm və təhsil layihələri, həmçinin beynəlxalq donor ölkələrin ayırdığı təqaüdləri misal gətirmək olar. Ona görə də gənclərə məsləhətim: çalışın, inkişaf edin və özünüzdən sonra gələn gənc nəslin inkişafında yaxından iştirak edin.

*- Hansısa qlobal elmi məqsədiniz varmı?*

- Bilirsiniz, elmlə çox məşğul olduqca belə bir qənaətə gəlirəm ki, doğrudan da elm sonu bilinməyən bir dəryadır, biz də o dəryanın çox kiçik damcılarını öyrənməklə məşğuluq. Elmdə kəşf olunası, oyrəniləsi o qədər sahə var ki... Əsas məqsədim çalışdığım sahə üzrə yaxşı mütəxəssis, beynəlxalq səviyyədə tanınan bir elm adamı kimi formalaşmaqdır. Çox istəyərdim ki, yaxşı tələbələrim, yetirmələrim olsun, nə vaxtsa elmi məktəb formalaşdırım. Çünki düşünürəm ki, hər bir yaxşı alimin beynəlxalq səviyyədə tanınan elmi əsərləri, elmi-tədqiqat işləri, layihələri ilə yanaşı, yaxşı bir elmi məktəbi də olmalıdır.

## “Agility Robotics” şirkətində robot-kuryer işləməyə başlayıb

Samirə KƏRİMOVA

“Agility Robotics” şirkəti “Digit” adlı robotun ikinci modelini təqdim edib.

**www.belta.by** saytının məlumatında bildirilir ki, mühəndislər sözügedən robotun işini təkmilləşdiriblər. İndi o, avtonom şəkildə hərəkət edə və kiçik yükləri daşıya bilir. Robot məkanda müstəqil hərəkət etməyə imkan verən sensor və lidarla təchiz edilib.

Robotun aşağı hissəsi qeyri-adi konstruksiyaya malikdir: ayaqlar iki seqmentdən ibarətdir və arxaya yönəlib. Aşağı ətrafların belə quruluşu robota yan tərəfə əyilmə zamanı tarazlığı saxlamağa kömək edir. İstehsalçıların sözlərinə görə, “Digit” bir ayaq üzərində asanlıqla dayana bilir. Bundan başqa, robot-kuryer ona yükləri daşımağa imkan verən xüsusi əllərlə təchiz edilib.




Hazırda şirkətin mütəxəssisləri satışa başlamaq üçün robotun daha da təkmilləşdirilməsi ilə məşğuldurlar.

## İdman məşqləri üçün evdə “güzgü-məşqçi”

Nyu-Yorkdan olan “Güzgü” startapının istehsalçıları interaktiv güzgüdən istifadə edərək fərdi məşqlərin həyata keçirilməsi üçün “güzgü-məşqçi” təqdim ediblər. Belə ki, yeni tətbiq idman dərslərinin çatdırılması, həmçinin məşq təlimatlarının izlənilməsi üçün istifadə edilə bilər. İnteraktiv güzgü məşqlərdə adi proqram prinsipi üzrə işləsə də, yeniliyin köməyi ilə eyni anda rahatlıqla öyrənmək və məşq etmək mümkündür. Ənənəvi interaktiv seanslara abunə olmaq ayda 30 dollara başa gələcək.

**www.ferra.ru** saytının məlumatına əsasən, istehsalçılar güzgüyə fərdi təlimi təmin etmək funksiyasını əlavə ediblər. Beləliklə, “güzgü” hər bir istifadəçi üçün şəxsən hazırlanmış təlim nümayiş etdirməklə yanaşı, həmçinin şəxsi məşqçi əldə etməyə imkan verəcəkdir.




Hazırda fərdi məşqçi funksiyasının qiyməti müəyyənləşdirilməyib, lakin 30 dəqiqəlik dərs üçün qiymətin təxminən 40 ABŞ dolları olacağı güman edilir.

# Əmək bazarının “rəqəmsallar”ı

## “Z-nəsli”nin təmsilçiləri əmək fəaliyyətinə başlayırlar



⇦ Əvvəli səh.1

Rüstəm QARAXANLI

Psixoloq bu qənaətdədir ki, həyata bu dünyagörüşü ilə baxan yeni nəsil üçün kollektivdə işləmək çətin olacaq. “Şirkətdə işləmək yüksək səviyyəli əməkdaşlıq və komanda üçün qurbanlar tələb edir. Əgər belədirsə, “seyftizm”i əsas götürərək, yaxud xoşumuza gəlməyən ideya və insanları boykot etməklə nə qazana bilərik? Yeni işə gəlmiş şəxslərin bəzilərində məhz bu tendensiyalar müşahidə olunur” - deyə Haydt yazır.

Gələn ilin sonunadək Z-lər dünyada ən çoxsaylı istehlakçı qrupu olacaq. Hesablamalara görə, ABŞ və Avropada onlar əhalinin təqribən 40%-ni təşkil edəcəklər. Bu isə o deməkdir ki, “rəqəmsallar” ailə büdcəsinin formalaşmasına təsir edəcək ən böyük qüvvəyə çevrilirlər. Hazırda ABŞ-da “zetlər”in ailə büdcəsinə bu və ya digər formada təsiri təqribən 1 trilyon dollar həddindədir. Bu isə o anlama gəlir ki, “rəqəmsal” gənclərlə dil tapa bilməyəcək şirkətlər sadəcə olaraq rəqabət səhnəsini tərk etməli olacaqlar. Bəziləri belə bir qənaətdədir ki, “zetlər” komanda ilə işləyə bilmirlərsə, onları maksimum formada qərarların qəbulu prosesindən uzaq tutmaq lazımdır. Utopik deyilmi? Axı bu necə ola bilər? Yaxud, yeni nəsli idarəetmə prosesindən nə vaxtadək kənar tutmaq olar? Bu sualların cavabsız qalması səbəbindən bir qisim də belə düşünür ki, illüziyalara qapılmaqdansa, yeni nəsli daha yaxşı tanımalı və öyrənməliyik. Bəlkə elə zaman keçdikcə onlar da bizi anlamağa başlayacaqlar?

### “Z-lər”i bizlərdən nələr fərqləndirir?

- *Doğulandan “xətdə”.* Əgər “millenium” nəsli rəqəmsal texnologiyaların pionerləridirlərsə, Z nəsli “rəqəmsal aborigenlər” hesab olunmalıdırlar. Onlar texnologiyalarsız həyatı anlamırlar və 7/24 rejimində rabitədədirlər;
- *Böyüklərlə rabitəsiz.* Hər bir nəsil hesab edir ki, valideynləri onları dərk etmir. Eynilə tərsinə: yaşlı nəsil yenilərdən şikayətlənir. Hər nəslin öz məntiqi var və belə baxanda, hamı haqlıdır;
- *Rəqəmsal dünya.* Əgər siz “rəqəmsal” gəncləri yaxından anlamaq istəyirsinizsə, onlayn-həyat, internetdə tanımadığınız və görmədiyiniz adamlarla dostluq və ya romantik münasibətlərin nə olduğunu anlamağa çalışmalısınız;
- *Ultrakonsentrasiya.* Əgər “zetlər” nəyəsə konsentrasiyalı diqqət yetirmirlərsə, bu, heç də onların diqqətsizliyi anlamına gəlməməlidir. Belə deyək: “zetlər”də elə bir “filtr” mövcuddur ki, onun vasitəsilə özlərinə lazım olanı daha tez və dəqiq aşkarlaya bilirlər;
- *Sayıqlıq.* Statistikaya görə, Z-nəslinin nümayəndələri onlardan əvvəl olanlardan fərqli olaraq alkoqola az meyillidirlər, evdən tez-tez və valideynsiz çıxmağa çox maraq göstərmirlər, hətta avtomobil sürmək üçün sürücülük vəsiqəsi almağa görə öncəki nəslin tineycerlərindən passivdirlər;
- *Sosial aktivlik.* Daima xəbərlərə köklənmələri, səyahəti sevmələri, ideya və mədəniyyətlərə açıqlıqları onları sosiumun problemlərinə biganəlik göstərməməyə alışdırıb. “Zetlər” üçün ədalət və rəngarəngliyin böyük önəmi var. Xeyriyyəçiliyi yüksək qiymətləndirirlər. Onların dəyərlərini yüksəldən brendlərin uğuru üçün çalışmağa hazırdırlar;
- *Qeyri-müəyyənliyə dözümsüzlük.* Avstraliyada 800 respondent arasında keçirilmiş bir araşdırmaya görə, “rəqəmsal aborigenlər” qeyri-müəyyən situasiyalardan yaxşı baş çıxarmırlar. “Forbes” yazır ki, “zetlər” kompüter proqramları kimi ikili kodla işləyirlər. Videooyunlara diqqət edək: müasir oyunlar səhvlər nəticəsində yenidən yüklənirlər. Yaxud, “Google”nin xidmətləri elə qurulub ki, insan maksimum şəkildə qeyri-müəyyənlikdən uzaq olsun və düz istiqamətə yönəlsin. Ekspertlərə görə, bu amil “zetlər”də qeyri-müəyyənliyə tab gətirməni zəiflədir;
- *Qorxu və hiperhissiyyatlılıq.* Bu nəsil maliyyə böhranları, terrorizm, müharibələr, məktəb “atışmaları”, texnologiya və sosial şəbəkələr dövründə böyüyüb boya-başa çatıb. Nəticə etibarilə onlar ehtiyatlı, iqtisadi və sosial turbulentlik şəraitində formalaşmış və bəzən də bunlardan qorxaq nəslin təmsilçiləridirlər. Belə bir qlobal qeyri-sabitlik dövründə böyümələri onunla nəticələnib ki, “rəqəmsallar” maliyyə mühafizəkarlığı və şəxsi maraqları qiymətləndirməli olublar. “İşgüzar dünyanın liderləri belə şəxslərin ən xırda narazılıqlara görə münaqişələr etdiklərini deyirlər. Gənclər bir şey olmamış dərhal insan resursları departamentinə qaçıb şikayət edirlər, sonra isə iclaslara gəlmirlər. Çünki onların “xətrinə dəyən” şəxs də oradadır” - deyə Haydt yazır.

### Nə etməli?

Reallığı nə qədər əks etdirir, deyə bilmərik. Ancaq “zetlər”in imici barədə formalaşan mənzərə bundan ibarətdir: onlar heç vaxt “biz şirkət üçün nə edə bilərik” deməyəcəklər. Şüarları budur: “şirkət bizim üçün nə edəcək?”. Odur ki, rəhbərlərin və biznes-liderlərin qarşısında duran əsas məsələ bundan ibarət olmalıdır: nə edək ki, dünənin məzunları və bugünün yeni işçiləri ilə münaqişələrdən uzaq olaq?

*1. Dəyərlərin dəqiq təsviri.* “Zetlər”lə elə ilk görüşdəcə rəhbəri olduğumuz idarə və təşkilatın, yaxud şirkətin məqsəd və dəyərlərini aydın təsvir etməliyik. Lap elə onların dünyagörüşü ilə ziddiyyət təşkil etsə də. Haydt yazır: “Əgər əvvəldən öz normalarınızı tətbiq etməsəniz, problemlərdən canınızı qurtara bilməyəcəksiniz. Hər gün yanınıza gələcəklər: “Mən eşitmişəm ki, filankəs arxamca filan sözləri deyib, bu mənim xətrimə dəyib, istəyirəm onu cəzalandırasınız”.

*2. Üzr istəməyin.* Yeni əməkdaşlar anlamalıdırlar ki, onlar da digərləri kimi komanda maraqlarını öndə tutmalıdırlar. Haydt təklif edir ki, kollektivin qarşısında belə məzmunlu bir çıxış da olsun: “Bizim şirkətin inkişafı üçün iddialı çoxlu proqramımız var. Ancaq biz onları həyata keçirmək üçün gərək birlikdə çalışaq. Biz ətrafda nifrətin artdığı dövrdə yaşayırıq. Əgər bir olmasaq, bu nifrət bizi də parçalayacaq”.

*3. Qalmaqalçılardan uzaq olun.* Yeni işçilərinizi - “zetlər”i yaxından tanımaq istəyirsinizsə, onların sosial şəbəkələrdəki davranışlarına diqqət yetirin. Orada güzəştə gedə bilmirlərsə, işdə də getməyəcəklər. “Rəqəmsallar”a ismarıclarınız təqribən bu məzmunda olmalıdır: “Əgər biz komandayıqsa, kollektiv maraqlarını öz maraqlarımızdan üstün tutmalıyıq. Bu o demək deyil ki, özümüz ikinci dərəcəliyik. Sadəcə, biz bir yerdəyiksə, bir-birimizə etibar etməliyik. Biz həmişə komanda şəklində bir olmalıyıq”.

# ...Susma, mənimlə danış!..



Jalə MÜTƏLLİMOVA

Sus, ayıbdı!
Sus, soruşmaq olmaz!
Böyük deyibsə, get əməl elə və sus!..

Bəlkə də bu, bir ideologiyanın, sovetlərin bizə gətirdiyi onlarla uğursuz mirasdan biridir. Uzun illər bizə susmağı öyrətdilər. İçimizdə “gizlənməyi” aşıladılar. Qorxunu-susmaq, səssizliyə transfer etdilər, sonra da xarakterimiz, təhtəlşüurumuza oturtdular. Əslində, sistemini belə qurmuşdular SSRİ adlı dövlətin. Hər kəsi susduraraq, hamıya səsini kəsmənini əmr edərək idarə etmək.

Sonra bu sistemdən gələn ideolojinin xırda bir detalı bir az da ailə ənənəsinə çevrildi. Bəlkə də uzun illərin vərdişi kimi, genimizə “oturdu”. Uzun müddət ailələrimizdə susmaq tərbiyəsi verildi bizə. İndi biz də övladlarımıza susmağı təklif edirik. Onun min bir bəla gətirməsinə rəğmən, səsi çıxdımı, sus deyirik uşaqlara.

Zaman keçir, susmaq həm də, ənənə halını alır. Susursansa elə bilirlər, hər şeyə dözmək və susmaq sənin vəzifə borcundur. Sən hər şeydən razısan. Hər şey əladır. Əslində kimsə anlamır ki, susmağın özü də etirazın bir formasıdır, bir az məsələnin mənəvi-fəlsəfi tərəfini düşünəndə. Yəni, təxminən belə anlaşılır böyük susqunluqların hamısı, mən susuram, susuram ki, mənimlə danış! Bir dəfə də susmağımın, susqunluğumun səbəbini öyrənməyə cəhd elə!

***

Bu gün susqunluq, fikirlərini ifadə edə bilməmək bir qədər də ictimai problem həddinə çatıb. Bu daha çox yetkinlik yaşında uşaqlarda özünü göstərir. Özünü ifadədə problem yaşayırlar. Daha çox dalana dirənmiş təsiri bağışlayırlar. Bu diqqət çəkən keyfiyyətlərinə görə bəzən də azyaşlılar arasında intihar hallarına rast gəlinir. Əslində, onların istədiyi çox şey deyil. Onlar bircə şey istəyir, məktəbdə müəllim qədər evdə valideyn də onlarla danışsın. Axı telefondan, sosial şəbəkələrdən, dolanışıq üçün qazanmaqdan gündə bir saat uzaqlaşıb, ayrılıb, onları dinləmək olar, bu mümkündür.

Biz dinləməli, bölüşməli, dərdləşməli, məsləhət verməli, yol göstərməliyik. Biz dərdləşməyi bacarmalıyıq. Onlar sual verirsə, “sonra”, “vaxtım yoxdur”, “indi alınmır”, “get o yana”, “gözlə”, “bəsdir”, “çox danışma” və sair kimi bir yeniyetmənin inciyəcəyi fikirləri söyləməyək. Bizə ən vacib olan bizimkilərdir. Bizim balalar! Onlar niyə dava elədi? Haqq tapdaladımı? Haqqa girdimi? Nə qədər vicdanlı davrandı? Necə ədalətli olmaq lazımdır? Nə olar, nə olmaz?, Niyə olar, niyə olmaz? kimi sualların cavabını mütləq verməliyik. Vaxt olmasa da, gözləyə bilməsəniz də, yorulsanız da, o, çox danışsa da, sonra gec olmasın deyə, mütləq uşaqları dinləyin, onlarla danışın...

Əgər hələ də sonra deyə düşünən varsa, Azərbaycan Respublikası Təhsil Nazirliyinin “Mənimlə danış” adlı sosial çarxına baxsın. Gecə-gündüz başında oturduğu sosial şəbəkələr üzərindən. Onların sizdən başqa heç nəyə ehtiyacı yoxdur, əziz valideynlər! Bunu anlayacaqsınız o çarxdan və dərhal bütün şəbəkələrdəki yaşıl işıqlar bozaracaq. Sizin evinizdəki “bozluq” lap elə çox parlaq və işıqlı yaşıl olacaq...

**Biz dinləməli, bölüşməli, dərdləşməli, məsləhət verməli, yol göstərməliyik. Biz dərdləşməyi bacarmalıyıq. Onlar sual verirsə, “sonra”, “vaxtım yoxdur”, “indi alınmır”, “get o yana”, “gözlə”, “bəsdir”, “çox danışma” və sair kimi bir yeniyetmənin inciyəcəyi fikirləri söyləməyək. Bizə ən vacib olan bizimkilərdir. Bizim balalar! Onlar niyə dava elədi? Haqq tapdaladımı?**

# BMU-nun tələbələri “İ2B-İdeyadan Biznesə” layihəsinin qalibləri sırasında



“İ2B-İdeyadan Biznesə” layihəsinin Bakı və region finalçıları arasından 2019-cu il üzrə qalibləri müəyyən edilib. Qaliblər sırasında Bakı Mühəndislik Universitetinin (BMU) tələbələri də var.

Qeyd edək ki, ölkəmizin 12 regionunda keçirilən startap turlarında 153 komanda iştirak edib. Startap turları zamanı dövlət qurumlarının, müxtəlif inkubasiya mərkəzlərinin, texnoparkların, eləcə də nüfuzlu İKT şirkətlərinin nümayəndələri iştirakçılar üçün təlim və seminarlar təşkil edib, onlara startap ekosistemi, ideyanı biznesə çevirməyin yolları barədə məlumat veriblər.

Bakı, Sumqayıt, Şamaxı, Şəki, Zaqatala, Tovuz, Göyçay, Gəncə, Lənkəran, Mingəçevir, Sabirabad və Naxçıvanda təşkil olunmuş startap turlarında 17 komanda yarımfinala keçib. Sonuncu seçim mərhələsində uğur qazanan 10 komanda “İ2B-İdeyadan Biznesə” layihəsinin respublika finalında mübarizə aparıb.

“InnoWeek-İnnovasiya həftəsi” çərçivəsində Heydər Əliyev Mərkəzində təşkil olunan final tədbirində layihələr mütəxəssislərdən ibarət münsiflər heyəti qarşısında təqdim edilib. 10 komanda onlara ünvanlanan sualları cavablandırıb. Münsiflər tərəfindən ideyanın unikallığı, bazar potensialı, investisiyanın mənfəət müddəti, ilkin xidmətin/prototipin hazırlanmasına tələb olunan müddət, komandanın ideyanı gerçəkləşdirmə qabiliyyəti kimi meyarlar dəyərləndirilib.

Nəticələrə əsasən, BMU-nun İqtisadiyyat və idarəetmə fakültəsinin tələbəsi Fidan Fərzəliyevanın rəhbərlik etdiyi “Buqələmun” komandası 2-ci yerə layiq görülüb. “Buqelemun.com onlayn elmi və sosial inkişaf platforması”nın rəhbərləri BMU-nun İqtisadiyyat və idarəetmə fakültəsinin tələbələri Aslan Məmmədli və Nurlan Umarovdur. Yarışmada 1-ci yerin qalibi “Heal With”, 3-cü yerin qalibi isə “Palliativ Plus” komandaları olub.

Məlumat üçün nəzərə çatdıraq ki, 2018-ci ildə keçirilən “İdeyadan Biznesə” layihəsinin startap turunda BMU-nun “Go Next” komandası I yerə layiq görülmüşdü.

Təşkilatçılar və tərəfdaşlar tərəfindən ilk üç yerin qalibinə ideyalarını biznesə çevirmək üçün maliyyə dəstəyi göstəriləcək. Qaliblər 3-6 dekabr tarixlərində təşkil ediləcək 25-ci “Bakutel” Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar sərgi-konfransında öz layihələrini təqdim etmək imkanı qazanıblar.

Onu da bildirək ki, “İ2B - İdeyadan Biznesə” layihəsi Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Heydər Əliyev Fondunun “Regional İnkişaf” İctimai Birliyi, Azərbaycan Respublikasının Gənclər Fondu, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı, İnnovasiyalar Agentliyi, “Azercell” və “Microsoft” şirkətləri tərəfindən birgə reallaşdırılır.

# Paytaxt məktəbliləri üçün ekskursiyalar

Paytaxt məktəblilərinin müxtəlif tarixi məkanlara və muzeylərə ekskursiyaları təşkil edilir.

Ekskursiyalar məktəblilərin asudə vaxtlarını səmərəli təşkil etmək, onların dünyagörüşünü, bilik və bacarıqlarını artırmaq, şagirdlərə milli-mənəvi dəyərlərimizə hörmət hissini aşılamaq, tarixi abidələrimiz haqqında dolğun məlumatları çatdırmaq məqsədlərinə xidmət edir.

Heydər Əliyev Mərkəzi, “Qala” Arxeoloji-Etnoqrafik Muzey Kompleksi, “İçərişəhər” və “Atəşgah məbədi” Dövlət Tarix-Memarlıq Qoruqlarına, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi, Nəriman Nərimanovun xatirə muzeyi, Səməd Vurğunun ev-muzeyi, Azərbaycan Hərb Tarixi Muzeyi, Milli Aviasiya Akademiyasının nəzdində fəaliyyət göstərən Azərbaycan Mülki Aviasiya Muzeyi və digər muzeylərə məktəblilərin səfərləri həyata keçirilir.

Ekskursiyalar zamanı məktəblilər eramızdan əvvəl III-II minilliklərdən orta əsrlərə qədər dövrü əhatə edən qayaüstü rəsmlər, Qaval daşı, keramika, məişət və bəzək əşyaları, silah və sikkələr, qədim yaşayış kompleksinin konservasiya olunmuş qalıqları ilə yaxından tanış olurlar. Görkəmli şəxsiyyətlərin şəxsi əşyaları, əlyazmaları məktəblilər tərəfindən maraqla qarşılanır. Şagirdlər muzeylərin kolleksiya fonduna tamaşa edir, onlara ölkə əhəmiyyətli tarixi abidələr və eksponatlar barədə ətraflı məlumatlar verilir.

Qeyd edək ki, məktəblilər üçün ekskursiyaların tədris ili ərzində davam etdirilməsi nəzərdə tutulur.

# Məktəbdə məktəbəqədər təhsil



## *İlahə Rəsulova:* Valideynlər bu fəaliyyətin əsas komponentidir

Ruhiyyə DAŞSALAHLI

Bir aydan çoxdur ki, yeni tədris ili start götürüb. Məktəb yaşında olan bütün uşaqlar məktəbdədirlər. Ancaq elə məktəblər var ki, orada sadəcə məktəb yaşı çatanlar yox, elə çatmayanlar üçün də sinif otağı ayrılıb. Xüsusən kənd məktəblərində ayrılan həmin siniflərdə hər gün 2 saat ərzində 20-22 nəfərdən ibarət 3-4 yaşlı uşaqlardan təşkil edilən qruplara müxtəlif oyunlar, əyləncəli yollarla qaydalar aşılanır. Valideynlərin prosesə fəal qoşulması nəticəsində həmin qaydaların ailədə də qüvvədə olması və körpələrin yeni öyrəndikləri qaydaları alışqanlığa çevirməsi təmin edilir.

Söhbət Təhsil Nazirliyi tərəfindən 2017-ci ilin oktyabr ayından etibarən UNİCEF və Avropa İttifaqının maliyyə dəstəyi ilə yaradılan icma əsaslı məktəbəqədər uşaq təhsil mərkəzlərindən gedir. İcma əsaslı məktəbəqədər təhsil layihəsinin meneceri İlahə Rəsulova “Azərbaycan müəllimi” qəzetinə müsahibəsində tədris mərkəzlərindəki yeniliklərdən danışıb.

### Şagird nailiyyətlərinə təsir edən komponent

*- Məktəbəqədər uşaq təhsil mərkəzlərində bugünkü mənzərə nədən ibarətdir?*

- Şagirdlərin müxtəlif fənlər üzrə nailiyyətlərini qiymətləndirən müxtəlif beynəlxalq qiymətləndirmələr mövcuddur. Oxuyub-anlama ilə bağlı olan PIRLS (Progress in International Reading Literacy Study), riyaziyyat və təbiət elmləri üzrə orta təhsilin keyfiyyətini qiymətləndirmək üçün tətbiq olunan TIMSS (Trends in Mathematics and Science Study), müxtəlif ölkələrin şagirdlərinin oxu, riyaziyyat və təbiət elmləri üzrə bacarıqlarının, eyni zamanda müxtəlif tipli problemləri hølletmə qabiliyyətlərinin qiymətləndirilməsi məqsədi ilə aparılan PISA (Program for International Student Assessment-Şagird nailiyyətlərinin beynəlxalq qiymətləndirilməsi proqramı) uşağın akademik nailiyyətlərinə təsir edən faktorları araşdırır. Məsələn, IV sinif şagirdlərinin oxuyub-anlama nailiyyətlərini ölçən beynəlxalq qiymətləndirmə buna təsir edən faktorları da ölçür. Həmin faktorlardan biri də uşaqların məktəbəqədər təhsilə cəlb olunmasıdır. Bunu nəzərə alaraq 2017-ci ildən Avropa İttifaqı və UNİSEF-in maliyyə dəstəyi ilə ölkəmizdə pilot layihəyə start verilib. Məlumdur ki, Azərbaycan ərazisində bağçaların paylanması qeyri-bərabər olduğundan, uşaq bağçalarının olmadığı, ya da sayca azlıq təşkil etdiyi rayon və kəndlərdə icma əsaslı təhsil mərkəzlərinin açılmasına qərar verilib. Artıq iki ildir ki, ölkəmizdə məktəbəqədər təhsil müəssisələri ilə əhatə olunmayan yerlərdə məktəb bu funksiyanı öz üzərinə götürür. 3-4 yaşlı uşaqlar məktəblərdə məktəbəqədər təhsilə cəlb olunurlar. Bununla da məktəbəqədər təhsilin keyfiyyətinin yaxşılaşdırılmasında vətəndaş cəmiyyəti nümayəndələri və icma əsaslı qrupların, o cümlədən valideynlərin rolu artır. Layihəyə UNİSEF-in dəstəyi ilə 50 icma əsaslı qrupla 2017-ci ilin oktyabrından start verilib. 2018-ci ilin oktyabrında Avropa İttifaqı da qoşulub. “İcma əsaslı məktəbəqədər təhsil” pilot layihəsi əsasında ilkin mərhələdə 14 şəhər və rayonda yerləşən ümumi təhsil müəssisələrinin bazasında 95 icma əsaslı məktəbəqədər uşaq təhsil mərkəzləri fəaliyyət göstərib. Ötən müddət ərzində müşahidə edilən uğurlu fəaliyyət və əldə edilən müsbət nəticələr əsasında belə mərkəzlərin sayının artırılmasına qərar verilib. Belə ki, 2019-cu ilin oktyabr ayından 32 şəhər və rayonda ümumi təhsil müəssisələrinin bazasında 250 icma əsaslı uşaq tədris mərkəzləri fəaliyyətə başlayıb. Bununla da 2019-2020-ci tədris ili üzrə icma əsaslı uşaq tədris mərkəzlərində təlimə cəlb edilən uşaqların sayı 6400 nəfərə çatıb.

*- İcma üzvləri kimlərdir?*

- Məktəbin ətrafında olan ailələr, bələdiyyə, icra, məktəb, valideynlər icma üzvləridir və onlar bu təhsil mərkəzlərindəki prosesə yaxından qoşulmalıdırlar. Təhsilin inkişafı kəndin sosial durumunun yaxşılaşması, iş imkanlarının artması deməkdir. Hər bir görüşdə valideynlərə, məktəb icmasına bu məlumatları çatdırırıq və onların bu prosesdə rolunun vacib olduğunu vurğulayırıq.

*- Bəs, kəndlərdə ailələr 3-4 yaşlı uşağını hər gün məktəbə aparmaqda maraqlıdırmı?*

- Məsələ burasındadır ki, uşaq bağçası, uşaq inkişaf mərkəzi olmayan kənddə uşaqların məktəbə gedənə qədər erkən yaş dövründə bilməli olduqları məlumat və əldə etməli olan bacarıqlar sahəsində boşluqları yaranır. Valideynlər evdə uşaqlarla birgə vaxt keçirmir, kitab oxumur, ünsiyyətə çox vaxt ayırmırlar. Uşaqlar ya televizor qarşısında, ya da telefonlarla vaxt keçirir. Həmin uşaqlar məktəb yaşına çatanda davranışlarında və təhsil sahəsində böyük boşluqlar yaranır. Əvvəla, uşaq məktəbə gəlmək istəmir, gələnlər necə davranacağını bilmir, ağlayır, qaydalara uymur. Rəngləri tanımır, heyvan və ya bitkiləri tanımaqda çətinlik çəkirlər. Axı, bunları ona başa salan olmayıb. Halbuki valideyn ev işi görərkən bunu bir oyuna çevirib uşaqla vaxt keçirə və söhbət edə bilər. Bunu ya məlumatsızlıqdan etməyib, ya da uşaqla məşğul olmağa vaxt tapmayıb. İcma əsaslı tədris mərkəzlərinə cəlb edilmələri isə bir çox şeyi dəyişib. Elə valideynlər də etiraf edirlər ki, nitqində qüsur olan uşaq mərkəzlərə gəlməyə başlayandan sonra səlist danışır. Yaxud, evdə heç vaxt dağıtdığı oyuncaqları yığışdırmayan uşaq mərkəzdən evə qayıdanda oyuncaqlarını ortalıqdan toplayır. Bir sözlə, uşaqlar intizam, davranış qaydalarına riayət etməyə başlayır. İcma mərkəzlərində 2 saat ərzində həm tərbiyəçi-müəllimdən, həm yaşıdlarından, həm digər icma üzvlərindən öyrəndiklərini tətbiq etməyə başlayırlar. Valideynlərin nə dərəcədə maraqlı olduğuna gəlincə, ilk mərhələdə fəaliyyətə başlayan 50 icmanın 13-də ikinci qruplar açılıb. Məncə, bu fakt valideynlərin sözügedən layihəni nə qədər dəstəklədiyini təsdiq edir.

*- Bəs, bu tələbatı təmin etmək iqtidarındasınızmı? İstəklərlə imkanlar üst-üstə düşürmü?*

- Sadəcə, tərbiyəçi-müəllimlərin əməkhaqqını təmin etmək lazım gəlir. Qalan məsələlər üçün müəyyən qədər texniki baza var. Yeni qruplar əvvəlkilərin nəzdində açıldığından əlavə xərc tələb edilmir. Tutaq ki, plastilin və uşaqların istifadə etdiyi bəzi ləvazimatların sayını cüzi artırmaqla tələbatı ödəyə bilirik. 32 rayon və şəhərdə əvvəlki pilot qruplarını da nəzərə alsaq, 320 icma əsaslı məktəbəqədər təhsil mərkəzi fəaliyyət göstərir. Noyabr və dekabr aylarında yeni seçimlərə başlayacağıq və növbəti tədris ilindən yeni mərkəzlərin sayını 500-ə çatdırmağı planlaşdırırıq.

*- Mərkəzlər harada açılır?*

- İlk növbədə bağça olmayan kəndlərdə, rayon mərkəzlərində. Hətta dağ kəndlərində, sərhəd bölgələrində yerləşən mərkəzlər belə var. Rayon mərkəzindən 40 kilometr uzaqlıqda olan kənddəki icma əsaslı təhsil mərkəzinə getmək əməkdaşlarımız üçün ciddi çətinliklər yaradıb. Yaxud, mərkəzlərdən birinə getmək üçün əməkdaşlarımız çay keçməli olublar. Başqa bir kənd isə Tərtərin sərhəd kəndidir. Həmin mərkəzə getmək üçün hərbi postdan icazə almalı olduq. Biz belə çətinliklərə baxmırıq. Harada ehtiyac varsa, biz ordayıq. Mərkəzin harada yerləşməsi problem olmasa da, məktəbdə boş sinfin yoxluğu icma əsaslı qrup açmağa əngəl ola bilər. Belə ki, kriteriyalardan biri məktəbdə mütləq boş otağın olmasıdır. Məktəbdə uşaqların təhlükəsiz şəraitdə təhsil alması təmin edilməlidir. Məsələn, elektrik xətləri üzdə olan sinif otaqlarında cari təmir işləri apardıqdan sonra uşaqları həmin sinfə buraxdıq. Bir neçə belə məktəbdə təmir işləri gördük.

**Sinfin dizaynı məqsədyönlü olmalıdır. Məsələn, bir tərəfdə oxu guşəsi yaradılmalıdır. Mütəmadi olaraq məktəblərə nağıl kitabları göndəririk. Həmin kitablarla guşəni zənginləşdirə bilərlər. Yaxud, musiqi guşəsi olmalıdır. Bu guşəyə də musiqi ilə bağlı şəkillər, musiqi aləti qoymaq olar. “Musiqi aləti” deyəndə, mağazadan hər hansı musiqi aləti almaları nəzərdə tutulmur.**

### İcma əsaslı təhsil mərkəzlərinin müəllimləri

*- Müəllim seçimində kimlərə üstünlük verilir?*

- Mərkəzin yeri müəyyənləşəndən sonra müəllimlər seçilir. Bu məqsədlə mərkəzlərin açılacağı kəndlərdə elanlar veririk. Elanlar məktəblərdə, kənd sovetinin binalarında divarlara yapışdırılır. Elə kənd olur ki, oradan 2-3 namizəd, elə kənd olur ki, sadəcə bir namizəd müraciət edir. Namizədlər psixoloji test və müsahibədən keçirilir. Bu testlərdə müəyyən psixoloji xüsusiyyətlər ölçülür. Məsələn, müəllim nə qədər emosional hazırlıqlıdır, nə qədər ünsiyyətcildir, uşaqların diqqətini cəlb edə bilirmi və s. Ümumiyyətlə, 6 xüsusiyyət üzrə psixoloji test və 5 açıq situasiya qoyuruq. İcmaların təcrübəsindən götürdüyümüz hallar üzrə yeni tərbiyəçi namizədlərin sərgiləyəcəyi davranışı müəyyən etməyə çalışırıq. Onlardan hiperaktiv uşaqlarla necə davranacağını, anasından ayrılmaq istəməyən uşağı təlimə necə cəlb edəcəyini soruşuruq. Təbii ki, onların hamısından dolğun cavablar gözləmirik, ancaq namizədlərdən kreativ fikirlər çıxa biləcəyinə də inanırıq. Beləliklə, müsabiqədə - psixoloji test və müsahibədə namizədlər ələnirlər. Bu il müsahibələrdə və sonradan monitorinqlərdə müşahidə etdik ki, həyata keçirdiyimiz psixoloji testin çox böyük əhəmiyyəti oldu.

*- Psixoloji test ilk dəfə keçirilirdi?*

- Bəli. Mərkəzlərin və seçiləcək şəxslərin sayı artdığından namizədlərin psixoloji testdən keçirilməsi zərurət təşkil edirdi. Çünki sadəcə 10 dəqiqəlik müsahibə ilə tərbiyəçi-müəllimlərlə bağlı qərar vermək çətin idi. Hətta psixoloji test nəticələrində orta səviyyədə olan namizədlərin bəzilərinin müsahibə vaxtı bu işə uyğun olmadıqlarını gördük.

*- Namizədlər təhsilli şəxslərdimi?*

- Təbii ki, namizədlərin pedaqoji təhsilinin olması tələblərdən biridir. Ancaq reallığı nəzərə alanda, bu tələbə göz yummalı oluruq. Nəinki pedaqoji ali təhsil, eləcə də kollec təhsili olan namizədlər, hətta orta ümumi təhsilli şəxslər belə seçilə bilir. İdeal mütəxəssis axtarmasaq da, müəyyən potensialı olanları seçirik. Hesab edirik ki, həmin potensialı düzgün yönləndirmək bizim təlimçilərdən, mentorlardan asılı olacaq. Gələcəkdə onların erkən uşaq inkişafı ilə bağlı daha dərin biliklər əldə etməsi üçün müəyyən planlar da var.

*- İcma əsaslı təhsil artıq 2 ildir həyata keçirilir. Elan veriləndən sonra müşahidələriniz nə göstərdi, mərkəzlərin açılacağı kəndlərdə 2 ildir davam edən bu proseslə bağlı məlumatlılıq nə səviyyədədir?*

- Hara gəldiklərini bilirdilər. Ancaq layihənin nədən ibarət olduğu ilə bağlı məlumatsızdılar. Adına da “bağça” deyirdilər. Müsabiqə vaxtı müəyyən məlumatları olsa da, təlimlərə çoxlu suallarla gələcəklərinə əminik. Çünki 1 aydır prosesin içindədirlər. İlk problemləri ilə qarşılaşıblar. Çətinə düşdükləri vəziyyətlərin siyahısı əllərində var.

*- Sözünü etdiyiniz təlimlər nə vaxt olur?*

- Avqust-sentyabr aylarını təlimlərə sərf etdik. Həmin təlimlərdə tərbiyəçi-müəllimlər uşaq psixologiyası üzrə hazırlıq keçdilər. Onlara izah olundu ki, bu yaşda uşaqlara nə və necə öyrədilməlidir. Proqram üzrə mövzuları uşaqlara necə başa salmalı olduqlarına dair təlimatlandırıldılar. 2 aylıq proqram, valideynlə iş, uşaqların inkişaf dinamikasını ölçmək üçün qiymətləndirmə alətlərini verdik. Noyabrda təşkil ediləcək növbəti təlimlərdə proqramla yanaşı, ayrı-ayrı istiqamətlər üzrə hazırlıq keçəcəklər. Məsələn, ilkin tibbi yardım. Uşaq özündən getdi, qıc oldu, burnundan qan gəldi və s. bu kimi hadisələrdə tərbiyəçi-müəllim necə davranmaqla bağlı məlumatlandırılacaq. Bu təlimlərdə mən də iştirak etdim və huşunu itirən şəxsə qarşı necə davranmağı öyrəndim. Məlum oldu ki, indiyədək bununla bağlı bilgim yanlış olub.

İlkin yardımla yanaşı, inklüziv təhsillə bağlı təlimlər də nəzərdə tuturuq. Kəndlərdə müəyyən sağlamlıq problemləri olan uşaqlar da icma əsaslı təhsilə cəlb olunurlar. Qarşılaşdığımız ən böyük problem onlara münasibətdir. Həmin uşaqları kəndlərdə “xəstə” adlandırırlar. Biz bu ifadəni və baxışı dəyişməyə çalışırıq. Bunu da tərbiyəçi-müəllimlərlə edəcəyik. İndi olmasa da, növbəti mərhələdə mütəxəssislərlə birlikdə həmin uşaqlar üçün fərdi planların hazırlanmasını da nəzərdə tuturuq. Təlimlərdə müəllimlərə nağıllar vasitəsi ilə öyrənmə ilə bağlı seminarımız da olacaq. Bu modul da çox maraqlıdır.

### Valideyn təhsildə iştirakının önəmini anlayacaq

*- Təlimlərdə tərbiyəçi-müəllimlərə valideynlə işi qurmağın sirri də aşılanır?*

- Əlbəttə, müəllimlərə layihənin niyə icma əsaslı adlandırıldığı, valideynlərlə işin önəmi izah edilir. Tərbiyəçi-müəllimlər bilir ki, valideynlər bu fəaliyyətin əsas komponentidir və prosesdən kənarda qalmamalıdırlar. Onların iştirakı mütləq təmin edilməlidir. Demirik ki, 20 nəfərdən ibarət qruplarda valideynlərin hamısı iştirak etməlidir. İkibir, üçbir iştirak etməli, prosesə daxil olmalı, 2 saat ərzində qoyulan qaydaları evdə də davam etdirməlidirlər. Nə baş verdiyini görməli, uşağın öyrəndiklərini valideyn evdə də tətbiq etməlidir. İkinci bir tərəfdən, indidən valideynləri prosesə cəlb etmək ona dəlalət edir ki, sonradan valideynlərlə məktəb arasında əlaqə itməyəcək. Uşaq yuxarı siniflərə getdikcə bu əlaqələr qırılmayacaq. Düşünürük ki, valideyn bu müddət ərzində təhsildə iştirakının önəmini anlayacaq.

*- Valideynləri prosesə cəlb etməyə nə qədər nail ola bilirsiniz?*

- İlk vaxtlar çətin idi. Monitorinqlərə gedəndə müşahidə edirdik ki, valideynlər qonaq kimi oturub müəllimlərin nə etdiyini maraqla izləyirlər. Bu vəziyyət yavaş-yavaş dəyişdi. Tədris ilinin ortalarında müəllimlə valideyni ayırd edə bilmirdik. Sinifdə valideynlər prosesə elə daxil olurdular ki, ilk baxışda onların müəllim yox, valideyn olduğu anlaşılmırdı. Bu, həm də icma tərbiyəçi-müəllimlərinin böyük nailiyyəti idi. Nail olmaq istədiyimiz budur ki, valideyn məktəblə yaxından maraqlansın. Ehtiyac duyulan hər hansı işi kimisə gözləmədən özü etsin, problemi özü çözsün, sınan stulu özü düzəltsin.

*- Bu prosesdə atalar nə qədər fəaldırlar?*

- O qədər də fəal deyillər. Ancaq proseslə maraqlananlar da var. Avropa İttifaqı ilə layihə çərçivəsində eston mütəxəssislərlə Masallı rayonuna getmişdim. Orada atalardan biri bizə yaxınlaşıb təşəkkürünü bildirdi. Ən çox xoşuna gələn komponentin də valideynlər üçün maarifləndirici təlim və sessiyaların nəzərdə tutulması olduğunu vurğuladı.

*- 2017-ci ildən başlayan bu prosesdə icma əsaslı təhsili tamamlayıb məktəbəhazırlığa başlayanlar yəqin ki, var. Onların məktəbəhazırlıq prosesinə keçidi ilə bağlı müşahidələriniz oldumu?*

- Təbii ki, gələcəkdə monitorinqlərə bununla bağlı araşdırma daxil etməyi düşünürük. Həmin şagirdlərin həm akademik nailiyyətlərini, həm də davranışlarını ölçməyi planlaşdırırıq. Ancaq hələlik bunu bir məktəb direktoru etdi. Belə ki, ötən il həmin məktəbdə açılan qrupa ancaq 4 yaşlılar cəlb olundu. Biz buna narahatlığımızı bildirdik ki, qruplarda 3-4 yaşlılar qarışıq olmalıdır. Direktor bu davranışının səbəbini icma əsaslı təhsilə cəlb edilən 4 yaşlıların bu il onlarla birlikdə məktəbəhazırlıq qruplarına cəlb edilməyən 5 yaşlılardan fərqini görmək məqsədi ilə izah etdi. Həmin uşaqlar bu il məktəbəhazırlıq qrupundadırlar. Bu yaxınlarda direktorla görüşdük. Həmin təhsil müəssisəsində icma əsaslı təhsilə cəlb edilən siniflə digər sinif arasında çox böyük fərq olduğunu dedi. Bundan başqa, şifahi rəylər də eşidirik. İcma əsaslı təhsil özünü ölkəmizdə də doğruldur.

### Məktəblərdə monitorinqlər

*- Bunu keçirdiyiniz monitorinqlərdə də görə bilirsinizmi? Ötən həftədən başlayaraq yeni fəaliyyətə başlayan 250 icma əsaslı uşaq tədris mərkəzlərində monitorinqlər başlanılıb. Məqsəd nədir?*

- Monitorinqlərdə həm məzmun, həm də texniki tərəflər ölçülür. Tutaq ki, sinif quruluşundan, dizaynından tutmuş, təhlükəsizliyə qədər bütün parametrlər üzrə qiymətləndirilir. Ən çox müşahidə etdiyimiz səhvlərdən biri budur ki, otağın divarlarına korkoranə şəkillər yapışdırılır, quş, ağac və s. çəkilir. Ona görə təlimlərdə bu məsələylə bağlı ayrıca seminar da müəyyənləşdirmişik. Sinfin dizaynı məqsədyönlü olmalıdır. Məsələn, bir tərəfdə oxu guşəsi yaradılmalıdır. Mütəmadi olaraq məktəblərə nağıl kitabları göndəririk. Həmin kitablarla guşəni zənginləşdirə bilərlər. Yaxud, musiqi guşəsi olmalıdır. Bu guşəyə də musiqi ilə bağlı şəkillər, musiqi aləti qoymaq olar. “Musiqi aləti” deyəndə, mağazadan hər hansı musiqi aləti almaları nəzərdə tutulmur. Tutaq ki, plastik su qablarının içərisinə lobya, makaron doldurur, onların çıxartdığı fərqli səsləri göstərməyə çalışırıq. Belə nümunələr çox vermək olar. Uşaqların istəyəndə gedib şəkil çəkə biləcəyi bir incəsənət guşəsi yaratmaq olar. Ya da bir STEM guşəsi və s. Bilməliyik ki, uşaq sadəcə eşitməklə yox, həm də görməklə, etməklə öyrənir. Monitorinqlərdə müəllimin uşağın diqqətini necə cəlb etdiyini müəyyənləşdiririk.

Hədəflərimizdən biri də təhlükəsizliyin necə təmin edilməsidir. Məktəblərdə elektrik xətlərinin necə çəkildiyinə, otaqda işıqlandırılmaya, hətta kilimlərin necə döşəndiyinə diqqət yetiririk. Hərəkət edərkən uşağın sinifdə zədələnə biləcəyi bütün ehtimalları hesablayırıq. Müəllimlərin məzmunu necə keçməsi də monitorinqlərin əsas hədəflərindəndir. Tutaq ki, fəsillə bağlı mövzunu necə başa salırlar. Burada müəllimlər bəzən proqramdan geri qaldım deyib, narahatlıq keçirirlər. Halbuki proqrama uyğun deyil, məqsədəuyğun təlimlər əhəmiyyətlidir.

*- Monitorinqlərin nəticəsi nə olacaq?*

- Hələ ki, 2 rayonda olmuşuq. Komanda olaraq, 32 rayonun hamısında eyni vaxtda olmağı çatdırmırıq. Bir yaxşı halı qeyd edə bilərəm ki, əvvəlki 50 icmanın 18 müəlliminə metodistliklə bağlı təlimçilər üçün təlim keçdik. Yeni açılan icma əsaslı mərkəzləri əvvəlki daha təcrübəli tərbiyəçi-müəllimlər metodist kimi həm monitorinq edəcək, həm də tövsiyələrini verəcəklər. Bu, həmkarın həmkara dəstəyi, təcrübə mübadiləsi kimi də müsbət nəticə verəcək. Bu minvalla bəlkə müəllimlər öz həmkarlarından daha çox öyrənə bilərlər. Monitorinqlərin nəticələri isə növbəti təlimlərdə müzakirə olunacaq. Konkret adlar çəkmədən boşluqları müzakirə edəcəyik. Hesab edirik ki, bir mərkəzdə müşahidə etdiyimiz boşluq hər halda digərlərində də rast gəlinir. Ona görə də ümumiləşdirilmiş şəkildə bir faktın izahı digərləri üçün də nümunə olacaq.





# Avrasiyanın ən nüfuzlu universitetləri

**Oruc MUSTAFAYEV**

## Akademik və işəgötürənlər arasında nüfuz ali məktəblərin göstəricilərini yaxşılaşdırıb

Böyük Britaniyanın Quacquarelli Symonds şirkəti Avropa və Mərkəzi Asiyanın inkişaf etməkdə olan ölkələrinin ali təhsil müəssisələrinin növbəti reytinqini (QS EECA University Rankings 2020) açıqlayıb. Ayrı-ayrı ölkələrdən 350 ali məktəbin daxil olduğu reytinq sıralamasına əsası 1755-ci ildə qoyulmuş, məzunlarından 13 nəfəri Nobel mükafatına layiq görülmüş Rusiyanın M.V.Lomonosov adına Moskva Dövlət Universiteti başçılıq edir. “İnkişaf etməkdə olan Avropa və Mərkəzi Asiya universitetlərinin reytinqində liderlik bizim üçün mühüm göstəricidir. O, yalnız MDU-nun deyil, bütün Rusiya ali təhsil sisteminin beynəlxalq sıralamada rolunu və əhəmiyyətini təsdiqləyir”, - deyə MDU-nun rektoru, akademik Viktor Sadovniçi bildirib.

QS-in Şərqi Avropa və Mərkəzi Asiya üzrə regional direktoru Zoya Zaytsevanın sözlərinə görə, Rusiyanın bir çox ali məktəbləri ötən illə müqayisədə “işəgötürənlər arasında nüfuz” və “akademik nüfuz” parametrləri üzrə göstəricilərini yaxşılaşdırıblar. “Bu iki parametr ümumdünya reytinqlərindən tutmuş ixtisas istiqamətlərinə qədər QS-in bütün reytinqlərində böyük əhəmiyyət daşıyır. Onların artımı o deməkdir ki, Rusiya ali məktəbləri bizim tövsiyələrimizə ciddi yanaşırlar”.

Reytinqin ilk 10-luğunda aşağıdakı universitetlər yer alıb: 1.Moskva Dövlət Universiteti, 2.Sankt-Peterburq Dövlət Universiteti, 3.Novosibirsk Dövlət Universiteti, 4.Tartu Universiteti (Estoniya), 5.Çarlz Universiteti (Çexiya), 6.Yagellan Universiteti (Polşa), 7.Varşava Universiteti (Polşa), 8.Tomsk Dövlət Universiteti (Rusiya), 9.Çex Texnologiya Universiteti (Çexiya), 10.Masaryuk Universiteti (Çexiya).

Reytinqə Azərbaycanın 5 universiteti daxildir: 1.Bakı Dövlət Universiteti (201-210). 2.Xəzər Universiteti (221-230), 3.Azərbaycan Dövlət İqtisad Universiteti -UNEC (251-300), 4.Azərbaycan Memarlıq və İnşaat Universiteti (301-350), 5.ADA Universiteti (301-350).

Reytinq çərçivəsində ali təhsil müəssisələri 10 meyar üzrə qiymətləndirilib: akademik reputasiya və işəgötürənlər arasında nüfuzdan başqa, müəllim-tələbə nisbəti, bir əməkdaşa düşən nəşrlərin sayı, beynəlxalq elmi əlaqələr, universitetin internetdə təsiri, PhD dərəcəsi olan əməkdaşların payı, elmi məqalələrdən sitatgətirmələr, əcnəbi professorların və tələbələrin payı vacibdir. Hər bir meyar universitetin ümumi qiymətləndirməsinə müəyyən töhfə verir.

Daha ətraflı *www.topuniversities.com/university-rankings/eeca-rankings/2020* səhifəsindən tanış olmaq olar.

| Reytinq | Ali məktəbin adı | Ölkə | Topladığı bal |
|---|---|---|---|
| 1. | Lomonosov Moscow State University | Rusiya | 100 |
| 2. | Saint Petersburg State University | Rusiya | 95.4 |
| 3 | Novosibirsk State University | Rusiya | 94.9 |
| 4. | University of Tartu | Estoniya | 94.2 |
| 5. | Charles University | Çex Respublikası | 93.4 |
| 6. | Jagiellonian University | Polşa | 90.4 |
| 7. | University of Warsaw | Polşa | 89.4 |
| 8. | Tomsk State University | Rusiya | 89.0 |
| 9. | Czech Technical University in Prague | Çex Respublikası | 87.2 |
| 10. | Masaryk University | Çex Respublikası | 86.6 |
| =11. | Koç University | Türkiyə | 86.3 |
| =11. | Moscow Institute of Physics and Technology | Rusiya | 86.3 |
| 13. | Middle East Technical University | Türkiyə | 86.0 |
| 14. | Warsaw University of Technology | Polşa | 85.0 |
| 15. | Bogaziçi Üniversitesi | Türkiyə | 84.5 |
| 16. | Bilkent University | Türkiyə | 83.4 |
| 17. | National Research University Higher School of Economics | Rusiya | 81.5 |
| =18. | Al-Farabi Kazakh National University | Qazaxıstan | 81.0 |
| =18. | Vilnius University | Litva | 81.0 |
| 20. | Istanbul Technical University | Türkiyə | 79.5 |
| 21. | Sabanci University | Türkiyə | 79.0 |
| 22. | Tallinn University of Technology | Estoniya | 77.2 |
| 23. | Brno University of Technology | Çex | 76.6 |
| 24. | Moscow Engineering Physics Institute | Rusiya | 76.2 |
| 25. | Belarusian State University | Belarus | 75.6 |
| =26. | Istanbul University | Türkiyə | 74.2 |
| =26. | University of Ljubljana | Sloveniya | 74.2 |
| 28. | Eötvös Loránd University | Macarıstan | 74.1 |
| 29. | Taras Shevchenko National University of Kyiv | Ukrayna | 73.5 |
| 30. | National Research Tomsk Polytechnic University | Rusiya | 73.1 |
| 31. | Bauman Moscow State Technical University | Rusiya | 72.4 |
| 32. | Vilnius Gediminas Technical University | Litva | 71.9 |
| 33. | University of Szeged | Macarıstan | 71.8 |
| 34. | Budapest University of Technology and Economics | Macarıstan | 71.5 |
| 35. | Ural Federal University | Rusiya | 70.7 |
| 36. | Kazan (Volga region) Federal University | Rusiya | 70.3 |
| 37. | University of Debrecen | Macarıstan | 69.9 |
| 38. | University of Zagreb | Xorvatiya | 69.2 |
| 39. | University of Latvia | Latviya | 68.8 |
| 40. | Babes-Bolyai University | Rumıniya | 68.5 |
| 41. | Hacettepe University | Türkiyə | 68.3 |
| 42. | University of Bucharest | Rumıniya | 67.1 |
| 43. | Wroclaw University of Science and Technology | Polşa | 66.9 |
| 44. | Palacký University in Olomouc | Çex Respublikası | 66.7 |
| 45. | The National University of Science and Technology MISIS | Rusiya | 65.7 |
| 46. | ITMO University | Rusiya | 65.6 |
| 47. | Peter the Great St. Petersburg Polytechnic University | Rusiya | 65.1 |
| 48. | Comenius University in Bratislava | Slovakiya | 64.7 |
| 49. | Sofia University "St. Kliment Ohridski" | Bolqarıstan | 64.3 |
| 50. | Corvinus University of Budapest | Macarıstan | 64.2 |
| 51. | L.N. Gumilyov Eurasian National University | Qazaxıstan | 63.1 |
| 52. | AGH University of Science and Technology | Polşa | 62.6 |
| 53. | Kaunas University of Technology | Litva | 62.3 |
| 54. | Riga Technical University | Latviya | 61.4 |
| 55. | Slovak University of Technology in Bratislava | Slovakiya | 59.6 |
| 56. | Moscow State Institute of International Relations (MGIMO University) | Rusiya | 59.4 |
| 57. | University of Wroclaw | Polşa | 58.2 |
| 58. | RUDN University | Rusiya | 57.9 |
| 59. | University of Pécs | Macarıstan | 57.6 |
| 60. | Adam Mickiewicz University, Poznań | Polşa | 56.8 |
| 61. | Vytautas Magnus University | Litva | 55.0 |
| 62. | University of Chemistry and Technology, Prague | Çex Respublikası | 54.5 |
| 63. | University of Belgrade | Serbiya | 54.2 |
| 64. | Lobachevsky University | Rusiya | 54.1 |
| 65. | Czech University of Life Sciences in Prague | Çex Respublikası | 54.0 |
| 66. | Ankara Üniversitesi | Türkiyə | 53.8 |
| 67. | National Technical University of Ukraine "Igor Sikorsky Kyiv Polytechnic Institute" | Ukrayna | 53.6 |
| =68. | Alexandru Ioan Cuza University | Rumıniya | 53.4 |
| =68. | V. N. Karazin Kharkiv National University | Ukrayna | 53.4 |
| 70. | University of Maribor | Sloveniya | 51.5 |
| 71. | Tallinn University | Estoniya | 50.8 |
| 72. | University POLITEHNICA of Bucharest | Rumıniya | 49.8 |
| 73. | Kazakh National Research Technical University after K.I. Satbayev | Qazaxıstan | 48.2 |
| 74. | Universitatea de Vest din Timisoara / West University of Timisoara | Rumıniya | 48.2 |
| 75. | Mendel University in Brno | Çex Respublikası | 47.9 |
| 76. | University of Nova Gorica | Sloveniya | 47.4 |
| =77. | VŠB - Technical University of Ostrava | Çex Respublikası | 47.0 |
| =77. | University of Silesia | Polşa | 47.0 |
| 79. | Cracow University of Technology | Polşa | 46.8 |
| =80. | Poznań University of Technology | Polşa | 45.5 |
| =80. | The "Gheorghe Asachi" Technical University of Iasi | Rumıniya | 45.5 |
| 82. | UNIVERSITY OF GDANSK | Polşa | 45.0 |
| 83. | University of Lodz | Polşa | 44.9 |
| 84. | Plekhanov Russian University of Economics | Rusiya | 44.1 |
| 85. | Tomas Bata University in Zlin | Çex Respublikası | 43.4 |
| 86. | Ivane Javakhishvili Tbilisi State University | Gürcüstan | 43.1 |
| 87. | Yildiz Technical University | Türkiyə | 43.0 |
| =88. | Nicolaus Copernicus University | Polşa | 42.6 |
| =88. | Southern Federal University | Rusiya | 42.6 |
| 90. | Far Eastern Federal University | Rusiya | 42.4 |
| 91. | University of Pannonia | Macarıstan | 42.3 |
| 92. | Novosibirsk State Technical University | Rusiya | 42.0 |
| 93. | Gazi Üniversitesi | Türkiyə | 40.8 |
| 94. | Kazakh-British Technical University | Qazaxıstan | 40.6 |
| 95. | Silesian University of Technology in Gliwice | Polşa | 40.4 |
| 96. | University of Cyprus (UCY) | Kipr | 40.3 |
| 97. | Kazakh National Agrarian University KazNAU | Qazaxıstan | 40.2 |
| =98. | New Economic School | Rusiya | 39.7 |
| =98. | Samara National Research University (Samara University) | Rusiya | 39.7 |
| 100. | Ege Üniversitesi | Türkiyə | 39.6 |



*Novosibirsk Dövlət Universiteti*



*Tartu Universiteti*



*Çarlz Universiteti*



*Tomsk Dövlət Universiteti*




## "Birlikdə inkişaf edək"

Təhsil Nazirliyinin elan etdiyi Təhsildə inkişaf və innovasiyalar üzrə III qrant müsabiqəsinin qalibi olan "Birlikdə inkişaf edək" layihəsi uğurla həyata keçirilir.

Gədəbəy rayon Qızılqaya kənd tam orta məktəbinin tarix müəllimi Tural Topçuyevin rəhbərliyi ilə həyata keçirilən layihənin məqsədi evdə fərdi təhsilə cəlb olunan şagirdlərin müxtəlif yaradıcılıq işlərinə, ekskursiyaya cəlb olunması, psixoloqla görüş vasitəsilə, həmçinin öz həmyaşıdları ilə bir məkanda olmaqla cəmiyyətə inteqrasiya olması, müxtəlif bacarıqların inkişaf etməsi, yaradıcılıq sahələrinə meyil və maraqların formalaşmasıdır. Rayon ümumtəhsil məktəblərində təhsil alan və fərdi təhsilə cəlb olunan şagirdlərin iştirakı ilə keçirilən layihənin artıq 2 ayı geridə qalıb. Belə ki, 2 ay ərzində şagirdlərlə təlimçi tərəfindən "Özümü təqdim edirəm və tanıyıram", "İnkişafa gedən yol", "Bacarıqlı əllər", "10 il sonra özümü görürəm", "Arzulamaq əngəl tanımır", "Motivasiya" və digər mövzularda təlimlər keçirilib. Bundan başqa, psixoloq tərəfindən "Valideynlərin uşaqlar üzərində davranışlarının düzgün formalaşdırılması" və "Liderlik" adlı görüşlər keçirilib.

Layihənin növbəti - yeni sonuncu ayında isə Gədəbəy rayon Heydər Əliyev Mərkəzinə ekskursiya, psixoloq tərəfindən "Qrup terapiyası" adlı görüş, şagirdlərin öz həmyaşıdları ilə eyni məkanda (sinif otağında) görüşlərinin təşkili, "Hər birimiz şagirdik" və "Biz birlikdə güclüyük" mövzusunda təlimlərin keçirilməsi nəzərdə tutulub. Layihə şagirdlərin təqdimatları, hazırladıqları əl işlərinin nümayişi ilə yekunlaşacaq.

**Raminə MƏMMƏDOVA,**
*Göygöl Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## Doqquzuncuların sınaq imtahanı

İmişlidə ümumi təhsil məktəblərinin IX sinif şagirdləri üçün buraxılış imtahanının II mərhələsi üzrə sınaq imtahanı keçirilib.

Beş mərkəzdə keçirilən sınaq imtahanında rayonun ümumi təhsil məktəblərinin 1198 şagirdi iştirak edib.

Şagirdlər Azərbaycan dili, riyaziyyat və xarici dil fənlərindən 90 test tapşırığını cavablandırıblar.

Sınaq imtahanı şagirdlərin bilik, bacarıq və vərdişlərinin daha da artmasında böyük təcrübə olacaq.

Nəticələr RTŞ-də, məktəblərdə müvafiq fənn müəllimləri, sinif rəhbərləri və şagirdlərin iştirakı ilə ətraflı şəkildə müzakirə olunacaq.

Yoxlama (sınaq) imtahanı şagirdlərin buraxılış imtahanının ikinci mərhələsinə hazırlıq məqsədilə keçirilib.

**Vilayət ƏLİYEV,**
*İmişli Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## "Sağlam gələcək naminə erkən nikaha yox deyək!"

Bərdə Dövlət İdarəetmə və Texnologiya Kollecində rayon təhsil şöbəsi, rayon gənclər və idman idarəsi və kollecin birgə təşkilatçılığı ilə "Sağlam gələcək naminə erkən nikaha yox deyək!" mövzusunda "dəyirmi masa" keçirilib.

Tədbiri giriş sözü ilə Bərdə Dövlət İdarəetmə və Texnologiya Kollecinin müəllimi, aqrar elmlər üzrə fəlsəfə doktoru Xosrov Musayev açaraq tədbir iştirakçılarına mövzu ilə bağlı məlumat verib. Qeyd edilib ki, birmənalı olaraq yetkinlik yaşına çatmayan qızların məcburən nikaha daxilolma halı valideynlər tərəfindən onlara qarşı törədilən zorakılıqdır. Qızların erkən yaşda ailə qurmağa məcbur edən valideynlər bunu çox vaxt maddi çətinliklə bağlayırlar. Belə hallar isə sonda ağır fəsadlarla nəticələnir.

Rayon gənclər və idman idarəsinin baş məsləhətçisi Fidan Nəsirli, polis şöbəsinin nümayəndəsi mayor Rəhim Quliyev, təhsil şöbəsinin metodistləri Sədiqə Vəliyeva, Aygün Xəlilova və başqaları çıxış ediblər.

Qeyd olunub ki, təhsilalma yaşında olan bir qız ailə qurmağa məcbur edilirsə, bu, onun psixoloji travma almasına və gələcəkdə zəif, mövqesiz insana çevrilməsinə səbəb olur.

Sonda mövzu ilə bağlı gəncləri maraqlandıran suallar cavablandırılıb.

**Zövqiyyə ƏSƏDOVA,**
*Bərdə Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## "Gənclərin zərərli vərdişlərdən və radikal təsirlərdən qorunması"

Masallı şəhərindəki "Dəfinə" məktəb-liseydə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Masallı bölgəsi üzrə şöbəsi, Masallı Rayon Polis Şöbəsi və rayon təhsil şöbəsinin birgə təşkilatçılığı ilə "Gənclərin zərərli vərdişlərdən və radikal təsirlərdən qorunması" mövzusunda tədbir keçirilib.

Tədbirdə çıxış edən "Dəfinə" məktəb-liseyin direktoru Taleh Əkbərov cəmiyyətdə zərərli vərdişlərin və radikalizmin törətdiyi fəsadlardan danışıb. Rayon polis şöbəsinin rəisi, polis polkovniki Habil Əmiraslanov çıxışında narkomaniya və digər zərərli vərdişlərin insanların həyat və sağlamlıqlarına ciddi təhlükə yaratdığını və cinayətkarlığın artmasına səbəb olduğunu bildirib.

DQİDK-nin Masallı bölgəsi üzrə şöbəsinin müdiri Miryahya Bədirov radikalizmin törətdiyi fəsadların qarşısının alınması və bu sahədə aparılan genişmiqyaslı tədbirlərdən söhbət açaraq, bu cür bəlalarla mübarizədə ictimai qınağın önəmini, belə halların qarşısının alınmasında ailənin və təhsil müəssisələrinin üzərinə daha çox məsuliyyətin düşdüyünü diqqətə çatdırıb.

Rayon təhsil şöbəsi metodkabinetinin müdiri Bəybala Xəlilov və başqaları çıxışlarında zərərli vərdişlərlə və radikalizmlə mübarizədə gənclər arasında maarifləndirmə işinin aparılmasının əhəmiyyətini vurğulayaraq, bu sahədə kitabxanaların, idman təşkilatlarının, eləcə də ictimaiyyətin rolunu qeyd ediblər.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

# "Fərqimiz üstünlüyümüzdür"

## *Svetlana Mahmudova:* "Layihəmizdən evdə fərdi təhsilə cəlb olunan şagirdlər və onlara dərs deyən müəllimlər faydalanacaq"

**Son illər ölkəmizin təhsil sahəsində bir sıra keyfiyyət dəyişiklikləri aparılır. Bunlardan biri də təhsil işçilərinin çox böyük marağına səbəb olan Təhsildə inkişaf və innovasiyalar üzrə III qrant müsabiqəsidir. Müsabiqənin Bakı şəhəri və regionları əhatə etməsi müsbət hal olmaqla yanaşı, müəllimlər üçün nazirlik tərəfindən verilən ən böyük şanslardan biridir. Müsabihimiz Təhsildə inkişaf və innovasiyalar üzrə III qrant müsabiqəsinin fərdi kateqoriya üzrə qalibi Qax şəhər 5 nömrəli tam orta məktəbin praktik-psixoloqu Svetlana Mahmudovadır.**




*- Svetlana xanım, bu gün məktəblərimizdə praktik-psixoloqların fəaliyyəti haqqında oxucularımıza məlumat verərdiniz.*

- Bu gün məktəblərdə fəaliyyət göstərən praktik-psixoloqların vəzifə və öhdəlikləri kifayət qədərdir. Məktəb işi bilirsiniz ki, çoxsahəlidir və burada elə bir sahə yoxdur ki, psixoloqa aid olmasın. Məktəbin qapısından içəri ayaq qoyanda bilinir ki, orada fəaliyyət göstərən psixoloqun işi hansı səviyyədədir. Təhsilin keyfiyyəti ilk olaraq məktəbdə sağlam psixoloji mühitin yaradılmasından asılıdır. Bu baxımdan məktəb psixoloqu öz üzərində dayanmadan işləməli, özünü inkişaf etdirməlidir.

*- Əslində psixoloq necə olmalıdır, onda hansı keyfiyyətlər cəmləşməlidir?*

- Psixoloq ilk növbədə psixoloji cəhətdən sağlam olmalıdır. Psixoloq üçün lazım olan keyfiyyətlər bunlardır: mehribanlıq, ünsiyyətlilik, gülərüzlülük, nəzakətlilik, xoşrəftar, başqalarının qayğısına qalmaq, xəstələrin qayğısına qalmaq, o cümlədən başqalarının mövqeyini başa düşmək bacarığı... Psixoloq məktəbdə hər bir uşağın dostudur, müdafiəçisidir. Hər bir şagird istədiyi problemləri ( həm şəxsi, həm ailədaxili, həm məktəbdaxili) barədə psixoloqa müraciət edib, ondan kömək ala bilər. Şüarımız belədir: "Sirri yayma, ziyan vurma, təzyiq göstərmə"!

*- Siz məktəbdə öz işinizi bir psixoloq kimi necə qurursunuz?*

- İşə başladığım ilk gündən məktəbin rəhbərliyi, pedaqoji kollektivi, valideyn və şagirdləri ilə birlikdə işləyirəm. Şagirdlər, müəllimlər və valideynlər arasında psixoloji bilikləri yayır, onlarda psixoloji müdafiə bacarığını formalaşdırmaq, neqativ təsirlərə qarşı psixoloji müqaviməti artırmaq üçün fərdi söhbətlər aparır və müxtəlif tədbirlər keçirirəm.

*- Məktəbdə sağlam psixoloji iqlim yaratmaq üçün hansı işləri görürsünüz?*

- Təhsil ocağında sağlam mühitin təmin olunması dedikdə şagirdlərin fiziki, mənəvi, psixoloji cəhətdən sağlamlığı nəzərdə tutulur. Məktəblilərin sağlamlığının təmin edilməsi üçün sağlam mühitin mövcud olması əsas amildir. Bunun üçün müxtəlif testlərdən, anket sorğularından istifadə edirəm. Məsələn, "Məktəb şagirdin gözü ilə", "Müəllim-şagird", "Müəllim-valideyn, "Şagird-şagird" münasibətlərini öyrənmək üçün müxtəlif sorğular keçirirəm və bunun nəticəsi olaraq da məktəbdə risk qrupuna daxil olan şagirdləri müəyyənləşdirirəm. Onların hər biri üçün pedaqoji-psixoloji bərpa planı hazırlayıram. Və situasiyadan asılı olaraq müəllim və valideynlərin iştirakı ilə həyata keçirirəm. Valideynlərin məktəb həyatında, övladlarının təlim-tərbiyəsində yaxından iştirakını, məktəblə əlaqəsini təmin etmək üçün tədbirlər planına uyğun olaraq "dəyirmi masa"lar təşkil edirəm.

*- Necə oldu ki, siz qrant müsabiqəsinə qatılmaq qərarına gəldiniz?*

- 2017-ci ildən rayon təhsil şöbəsində fəaliyyət göstərən psixoloji-tibbi-pedaqoji komissiyanın üzvüyəm. Komissiyanın məqsədi sağlamlıq imkanları məhdud uşaqları üzə çıxarmaq, onların evdə fərdi təhsil almasını və yaxud bərpa mərkəzlərinə göndərmək, onlarla işi təşkil etmək və xəstə uşaqları olan ailələrə dəstək olmaqdır.

Uşaq iflici, epilepsiya, beyin travmaları, enurez, qəzalar, əqli zəiflik, irsi faktorlar səbəbindən qüsurlu uşağa sahib olan ailələr, normal tempdə həyatı davam etdirə bilmirlər. Bu ailələrə maddi dəstəklə yanaşı, mənəvi dəstək də mütləq şəkildə olmalıdır.

Biz, pedaqoji-psixoloji komissiyanın üzvləri belə qərara gəldik ki, bu uşaqlara daha da yaxınlaşmaq, valideynlərə kömək üçün belə bir layihə işləyək.

*- Layihə qalibi olanda hansı hissləri keçirdiniz?*

- Ümumiyyətlə, istənilən sahədə qalib olmaq möhtəşəm bir hissdir və bunu sözlərlə ifadə etmək çox çətindir. Mən çox sevinirəm ki, fərdi kateqoriya üzrə təqdim etdiyim "Fərqimiz üstünlüyümüzdür" layihəsi ekspertlər tərəfindən qiymətləndirilib, müsabiqənin şərtlərinə uyğun olub. Və bu layihənin həyata keçirilməsi nəticəsində rayonumuzda evdə fərdi təhsilə cəlb olunan şagirdlər və onlara dərs deyən müəllimlər faydalanacaq.

*- Layihənin məqsədi nədir və icra müddəti nə qədərdir?*

- Layihənin məqsədi evdə fərdi təhsilə cəlb edilmiş şagirdlərə psixoloji xidmət təşkil etməklə onların bacarıq və qabiliyyətlərini, yaradıcılıq potensiallarını müəyyən etmək, sosiallaşmasına dəstək olmaq və təlim uğurlarını artırmaq, eyni zamanda bu sahədə ictimai şüurun formalaşmasına xidmət etməkdir. Layihə 3 ay ərzində icra olunacaq. Sentyabrın 2-dən dekabrın 2-nə qədər olan müddəti əhatə edəcək.

*- Sizcə, bu layihə valideynlər üçün də faydalı olacaq?*

- Təsəvvür edin, ailədə övlad dünyaya gəlir. Ata-ana hədsiz sevinc içərisindədir. Dünyaya gələn hər körpə, həm də özü ilə ailəyə hesabsız arzular gətirir, ailəni daha da möhkəmləndirir, valideynlərin məsuliyyət yükünü artırır. Aylar keçir, körpə yavaş-yavaş böyüyür. Hər şey normal gedir, uşaq qığıldayır, ata-ananın üzünə gülür, valideynlərinin dindirməsinə reaksiyalar verməklə, onlara sanki dünyanı bəxş edir. Günlərin bir günü ana hiss edir ki, deyəsən, körpəsi inkişafdan qalıb. Əllərinin əvvəlki nizamlı hərəkəti də hiss olunmur. Deyilən sözə əvvəlki kimi reaksiya vermir, daha nələr, nələr... Ananın həyəcanı ataya da keçir və körpə həkimlərin, psixoloqların pasiyentinə çevrilir, xəstəlik ailəyə sarsıntı, əsəb, gərginlik gətirir. Dünyaya normal uşaq kimi gələn bu insanlar sonralar sağlamlıq imkanları məhdud olan uşaqlara çevrilirlər.

Buna görə də biz çalışacağıq ki, müəllim və şagirdlərlə yanaşı, valideynləri də layihəmizin iştirakçısına çevirək. Axı, qüsurlu uşaqların valideynləri sağlam uşaqların valideynləri kimi uşağın ailəyə gətirdiyi sevinci, xoşbəxtliyi eyni tərzdə və eyni tempdə yaşaya bilmirlər. Ona görə də biz bu layihə ilə həm fiziki, həm əqli qüsurlu övladları olan ailələrə mənəvi yardım göstərəcək, onları məlumatlandıracaq, problemlərin həllində az da olsa yardımçı olacağıq. Ümid edirəm ki, uşaqlarda yaranan problemləri az da olsa aradan götürmək üçün onlara psixoloji dəstək olaq, onlarda özgüvən yaradaq.

*- Son sözünüz?*

- Həyatda hər bir uşağın öz dünyası var. Bu dünyaya daxil olmaq, onun acılarına kədərlənib, sevincinə sevinmək üçün əlimdən gələni edirəm. XXI əsr psixologiya əsridir. İnanıram ki, yaxın gələcəkdə psixoloji xidmət sahəsində daha uğurlu nəticələr əldə olunacaq və insanlar ondan yararlana biləcək.

**Günay MAHMUDOVA,**
*Qax Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

**Səhifəni hazırladı:** *Şakir CƏFƏROV*




# Burdan çıxandan sonra...

## Əsas məqsəd yeniyetmələri cəmiyyətə qazandırmaqdır

**Ruhiyyə DAŞSALAHLI**

Burada hər gün zəng çalınır, hər gün dərs keçilir. Amma şagirdlərin sayı illə deyil, ayla dəyişir. Gah artır, gah azalır. Onların da çoxlu kitabı var, bir otaq dolusu kitabı. İstəyəndə oxumalarına heç kim mane olmur. Əksinə, oxumaq istəyənə hardan olsa kitab tapıb verirlər. Təki oxusunlar. Onlar da həvəslə oxuyurlar. Hətta hərf öyrənməyə, söz hecalamağa belə, burada başlayanlar var. Bura gəlib çıxana qədər bir kitabı vərəqləməyənlər birdən-birə oxumaq həvəsinə düşürlər. Bəlkə bir-iki şeir, bəlkə bir-iki hekayə oxuyar, bir gün də belə gedər ümidi ilə. Bəli, onlar burada gün sayırlar. "Sayılı gün tez keçər" - deyənlərə də qulaq asmırlar. Təcrübələrindən bilirlər ki, onlara "İŞ" kəsilərək verilən illər saymaqla bitmir, yaşanaraq bitir: 2 il "iş", 3 il "iş", 5 il "iş"...

"İş alan"lardan 17-55 yaş arasında 196 nəfər 2018/2019-cu tədris ili üzrə buraxılış imtahanlarında iştirak edib. Müəyyən müddətə azadlığı məhdudlaşdırılan həmin şəxslərdən 2 nəfəri 18 yaşına çatmayan məzunlardır. Onların nə işi var oxumaqla, deməyin. Nə çoxdur həbsə girib əlində kitabla çıxan.

Hər il cəzaçəkmə müəssisələrində də imtahan keçirən Dövlət İmtahan Mərkəzindən bildirilib ki, builki imtahanlarda xüsusi fərqlənən olmasa da, cəzaçəkmə müəssisələrinin indiyədək nəticələri ilə öyünən məzunları da olub. 2013-2019-cu illərdə 18 yaşına çatmayan 12 nəfər məktəbi bitirib. Onlardan 6 nəfər həmin imtahanlarda fərqlənib. Ümumiyyətlə, 2013-2018-ci illər ərzində keçirilən buraxılış imtahanlarında 19 şagird imtahan nəticələri ilə fərqlənib.

### Kitab onların çıxış yoludur

Deyilənə görə, kitab burda ən yaxşı çıxış yollarından biridir. Bu müəssisəyə girən əlinə kitab alır. Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin tərbiyə müəssisəsində yaşı az olsa da, barəsində artıq cinayət işi açılan, işi məhkəmə instansiyalarında təsdiqini tapan, axırda illəri əlindən alınan 45 nəfər cəza çəkir. Bütün planları, hətta xəyalları, arzuları belə, cəzalarının bitdiyi gündən başlayır. Hər planın əsasında azadlıq dayanır. "Burdan çıxandan sonra"! Bu cümləni çoxu işlədir. Amma elə həmin çoxluq da burdan çıxandan sonrakı günlərdə nə edəcəkləri ilə bağlı qərarsızdır. Dağı dağ üstünə qoyacaqlar?

### Bir anın peşmanlığı hələ 2 il çəkəcək

2016-cı il oktyabrın 3-ü. Payız özünü göstərməyə başlamışdı. Həmin il İ.R. IX sinifdə oxuyurdu. Bir qızı sevəcək, o qız uğrunda davaya girəcək qədər böyüdüyünü düşünürdü. Ancaq sonrakı 2 il göstərdi ki, sən demə, hələ böyüməyibmiş. Bu həyatda öyrənməli olduğu çox şey var. Cəza çəkdiyi 7 ayda anlayıb artıq.

İ.R.-nın hekayəsi çox maraqlıdır. Belə potensiallı bir gəncin azadlığının məhdudlaşdırıldığına, gələcəyinin kölgələndiyinə inanmaq olmur. Ancaq reallıq budur. O, ailəvi yaxınlıqları olan yaşıdı ilə qız üstündə dalaşıb. Yıxıb onu yerə, ürəyi soyuyana qədər əzişdirib. Ən çox da üzünə vurub. Sonra ona dəstək olan dostları ilə oradan uzaqlaşıb. Bir neçə saatdan sonra polis şöbəsindən zəng edib, onu ifadə verməyə çağırıblar. Orada öyrənib ki, demə, onun əlində daş da olub. Dostunun çənəsini sındırıb. Məhkəmə müstəvisində mübarizə aparmağa çalışsa da, istəyinə nail ola bilməyib. Uzun məhkəmə prosesi onun üçün uğursuz tamamlanıb və XI sinifdən məzun olub yaşıdları kimi universitetə deyil, tərbiyə müəssisəsinə göndərilib. Tələbə həyatına yox, məhbusluq həyatına başlayıb.




Ailəsi İ.R-nı yaxşı yetişdirib. Ana dilindən savayı ingilis və rus dillərində də bilir. İnformatika fənnini sevib və bacardığı qədər yaxşı öyrənməyə çalışıb. "4" və "5" qiymətlərlə orta ümumtəhsil pilləsində təhsilini 214 nömrəli tam orta məktəbdə tamamlayıb. Hələ azadlıqdaykən bir kitab yazıb. Azadlığı məhdudlaşdırılana qədər kitabını bitirib. Həmin kitabının qəhrəmanı 17 yaşlı oğlandır. Ruhuna tülkünün ruhu girmiş bir oğlan. Kitabda xeyirlə şərin mübarizəsi xeyrin qələbəsi ilə yekunlaşır. Fantastik janrda yazdığı kitabını "Alore Virus" təxəllüsü ilə internet kitabxanasına yerləşdirib və artıq 1000 nəfər oxuyub. "Əsəri ilə özünün oxşarlığı varmı", - deyə maraqlanırıq: "Elə mənim də ruhumu başqası ələ almışdı. Artıq dəyişmişəm. Hətta bir il əvvəl, hələ həbsə düşmədən dəyişdim. İşə başlamışdım. Ailəmə işləyib kömək edirdim. İndiki ağlım olsa, o davanı etməzdim. Ağlım başıma gələndə gec idi. Ancaq öz üzərimdə işlədim, özümü inkişaf etdirdim, dəyişdirdim".

Artıq ikinci kitabını yazmağa başlayıb. Lermontovu, Yesenini sevə-sevə oxuyub. İndi də oxumağa davam edir. Azadlığı məhdudlaşdırılandan bəri artıq 40-a yaxın kitab oxuyub. Tərbiyə müəssisəsində onu tapıntı hesab edirlər. "Belə uşaqlar həmişə ələ düşmür", - deyirlər. Yaxşı ki də düşmür. Ona görə də yetkinlik yaşına çatmasına baxmayaraq, böyüklər üçün cəzaçəkmə müəssisəsinə köçürülməməsi ilə bağlı məhkəmə qərarı çıxarılıb. İ.R. 20 yaşına qədər, yəni cəza müddəti bitənə qədər tərbiyə müəssisəsində qalacaq. Burdan sonrakı yol xəritəsini də cızıb. Əvvəlcə ali təhsil müəssisələrinə qəbul imtahanlarında iştirak edəcək. Azadlıqdan məhrum edilənlər ali təhsil müəssisələrinə qəbul imtahanlarında iştirak edə bilmədiyindən bununla bağlı planını azadlığa çıxandan sonrakı dönəm üçün qurub: "Burda qaldığım müddətdə bildiklərimi unutmayım deyə kitablar oxuyuram. Ali təhsil müəssisələrinə qəbul imtahanlarının proqramını da götürüb ona uyğun burada hazırlaşıram. Burada müəllimlər mənə lazım olan köməyi edirlər".

Deyir ki, burda oxumaq, hazırlaşmaq və bir çox şeyə nail olmaq daha asandır: "Azadlıqda olanda insan vaxtını boş yerə sərf edir. Gəzir, əylənir. Oxumağa az vaxt tapır. Ancaq azadlığı məhdudlaşdırılan şəxslərin gəzib əylənməyə vaxtı olmadığı kimi, oxumağa və düşünməyə də çoxlu vaxtı olur. Məsələn, mən artıq bilirəm ki, oxumaq mənim üçün çox vacibdir. Azadlıqda olanlar oxumaqdan daha maraqlı məşğuliyyətlər tapır, burada isə oxumaqdan maraqlı heç bir məşğuliyyət yoxdur".

Bu tələbatını tərbiyə müəssisəsinin kitabxanası ödəyirmi? İ.R. istədiyi kitabı tapıb oxuyur. Burada böyük kitabxana var. Ancaq tapa bilməyəndə lazım olan kitabı anası gətirir.

Neft mühəndisi olmaq istəyir. Atasının dənizdə işləyən dostlarından bu işlə bağlı maraqlı əhvalatlar dinləyə-dinləyə uşaqlıqdan arzusu formalaşıb. Ancaq sonra Rusiyaya gedəcək. Deyir qohumlarının çoxu Rusiyadadır.

**Bu yaşda insan çox vaxt valideyninin dəyərini dərk etmir. Tərbiyə müəssisəsində qaldığım müddətdə anladım ki, valideynlərimi nə qədər çox sevirəm. İnsan hansı yaşda olursa-olsun, valideyninə ehtiyac hiss edir. İndi özümü daha yaxşı tanıyıram. Həyatımla bağlı çox düşündüm. Harda nəyi səhv etdiyimi təhlil etdim. Bir yandan düşünürəm ki, yaxşı ki, bura düşdüm.**

### İkinci kitab hazırlığı

İkinci kitabını da yazacaq. Artıq başlayıb belə: "Burda qaldığım müddətdə çox şey öyrəndim, çox şey dərk etdim. İlk növbədə səbrin nə olduğunu bilmirdim, burada səbir etməyi öyrəndim. Bu yaşda insan çox vaxt valideyninin dəyərini dərk etmir. Tərbiyə müəssisəsində qaldığım müddətdə anladım ki, valideynlərimi nə qədər çox sevirəm. İnsan hansı yaşda olursa-olsun, valideyninə ehtiyac hiss edir. İndi özümü daha yaxşı tanıyıram. Həyatımla bağlı çox düşündüm. Harda nəyi səhv etdiyimi təhlil etdim. Bir yandan düşünürəm ki, yaxşı ki, bura düşdüm. Həyatımın dəyərini anlamağımda azadlığımın məhdudlaşdırılması çox böyük rol oynadı".

Tərbiyə müəssisəsində öyrəndiyi, qazandığı bir məşğuliyyət də var: heykəltaraşlığa başlayıb. Kurslarda maraqla iştirak edən İ.R.-ın burada da bir tülkü "qəhrəman"ı var: "Mən tülküyə fərqli prizmadan yanaşıram. Tülkü çox ağıllı heyvandır. Çıxılmaz vəziyyətlərdən çıxmağı, çıxış yolu tapmağı bacarır. Harda qaçmaq lazımdır, harda yox, bunu çox yaxşı bilir.

Bir sözlə, onun çox məşğul olan məhbəs həyatı davam edir. Arada tərbiyə müəssisəsinin kompüterlərindən faydalanır. İnternetə çıxışı olmasa da, bu sahədə bilik və bacarıqlarını qorumaqda ona kömək edəcəyini istisna etmir: "Kompüterdə oyun da oynayıram. Amma ən çox heykəltaraşlıqla maraqlanıram. Heykəltaraşlıq mənim üçün həbsdəki qazancımdır. Çünki bununla məhz həbsdə olduğum üçün maraqlandım, azadlıqda olsam maraqlanmazdım".

Bir sözlə, 3 kompüteri və 3000-dən çox kitabı olan kitabxana İ.R.-ın ixtiyarındadır. Ona hər cür şərait yaradılır ki, təki İ.R. bundan sonra cəza çəkəcəyi iki ili dəyərləndirsin.

### Polis mayorunun quldur oğlu kitaba bağlanıb

B.C. isə 17 yaşındadır. Quldurluqda günahkar bilinərək həbs olunub. B.C. bir nəfər dostu ilə yanacaqdoldurma məntəqəsinə silahlı basqın edib. Kassanı aça bilməyib, ancaq bir işçinin cibindən pul götürə biliblər. Hərəkətin məsuliyyətini sonradan anlayan B.C. cəzasını da layiqincə çəkir. Günahkar axtarmır, bütün məsuliyyəti cinayət ortağına yükləmir: "4 ildir işləyirdim. Maşın düzəldirdim. Ancaq istəyirdim pulum çox olsun. Ona görə də başqa bir dostumla qərara gəldik ki, basqın edib çoxlu pul götürək".

Quldurluğu ailəsindən, anasından xəbərsiz edib. Deyir ki, maşın düzəldərək aldığı əməkhaqqını anasına verib, soyğunda qazandığını özü götürüb: "Soyğunda götürdüyüm puldan anama versəydim, anlayacaqdı. Yanında işlədiyim maşın ustası qohumumuz idi. Ona görə də soyğundan nə qazansam, özüm üçün xərcləyirdim. Restorana gedir, əylənirdik".

Yolu tərbiyə müəssisəsinə düşənə qədər kitablarla heç maraqlanmayıb. Amma bura gələndən Çingiz Aytmatovun artıq 11 kitabını tamamlayıb. Kitabxanaya gedib və o gündən kitablara aludə olub. Deyir ki, həm vaxtı gedir, həm də beyni inkişaf edir.



Cinayətkar "karyerası" kimi, məktəb həyatı da uğursuz başlayıb. Evləri yandığından sənədləri vaxtında hazır olmayıb və onu məktəbə qoymayıblar. Hərfləri evdə öyrətməklə kifayətlənib. Atası vəfat edib, polis mayoru anasının himayəsində olub. Uşaqlarla iş üzrə inspektor kimi fəaliyyət göstərən ana B.C. üçün də əlindən gələni etməyə çalışıb. Sənədləri üzündən məktəbə gedə bilməyən oğluna yazıb-oxumağı öyrətməsi üçün müəllimlə razılaşıb. Evdə təhsil alan B.C. hərfləri çətinliklə öyrənib: "Tərbiyə müəssisəsinə gələndə kitabları hecalayaraq oxuyurdum. Artıq sürətimi kifayət qədər artırmışam".

İndi tərbiyə müəssisəsində fəaliyyət göstərən Xətai rayonu 45 nömrəli axşam tam orta məktəbinin dinləyicisi, şagirdidir. Azadlıqda fürsət tapıb öyrənə bilmədiklərini burada məcburən öyrədirlər. O, tez-tez heykəlciklər də düzəldir. İt, ayı, şaxta baba düzəltmək istəyib, müəllimi də ona kömək edib. "Qardaşımın heykəlini düzəltmək istərdim", - deyir: "Böyük qardaşım qəzada həlak olub. Bu yolla onu öz həyatımda əbədiləşdirəcəyimə inanıram".

Buna baxmayaraq, ona kitab oxumaq heykəl düzəltməkdən daha maraqlı gəlir. Deyəsən, kitab soyğundan da önə keçib. Deyir daha soyğunçuluq etməyəcək. Quldur B.C.-ni kitabsevən B.C. əvəz edib.

### Həbsə düşənlər kitab oxuyur, heykəl yaradır, maşın düzəldirlər

Zahidin (ad şərtidir) isə 16 yaşı var. Oğurluqda günahkar bilinərək həbs edilib. 3 dost mağaza yarıb, sonra isə ələ keçib. Ancaq elə bilməyin ki, əziyyətə qatlaşmayıb. Öz əməyi ilə yaşamağa uşaqlığından başlayıb. Kuryer olub. İş yerinin motosikleti ilə sifarişi ünvana çatdırıb: "Motosiklet özümün olsa, ona görə də əlavə pul verirdilər. Mən də borc-xərc edib özümə motosiklet aldım. Şirkətin sifarişlərini öz motosikletimlə aparır, buna görə daha çox pul alırdım. Motosiklet almaq üçün götürdüyüm borcu da qaytarmışdım".

Atası rəhmətə gedib. Anası başqası ilə ailə qurub. Qardaş-bacısı atalığı ilə normal yaşasa da, Zahid tez-tez problemlər yaradıb, ailədə söz-söhbətə səbəb olub: "Hər gün səhər 11-12-yə qədər yatırdım. Sonra durub bir siqaret çəkib, acqarına işə gedir, axşama qədər ac-susuz işləyirdim".

Günə siqaretlə başlayan Zahidin gündəlik rejimi artıq dəyişib. Bütün məhkumlarla normal münasibət qurub. Ancaq ən çox rəis müavini Elçin Orucovla dərdləşdiyini deyir.

Tərbiyə müəssisəsində rəis müavini Elçin Orucovun sözlərinə görə, burada yeniyetmələri cəmiyyətə qazandırmaq üçün əllərindən gələni edirlər. Vətənpərvər, xalqına və millətinə bağlı insan kimi yetişdirməyə çalışırlar: "Hər səhər onlar himnimizi eşidir, oxuyur. Günə himnlə başlayırıq. Tərbiyə müəssisəsində tam orta təhsilli 2 məhkum var. Ancaq onları da məktəbə cəlb edirik. 14.30-da məktəbimizdə dərslər başlayır. Bütün məhkumlar dərslərə cəlb edilir".

Rejimlə yeyib, rejimlə yaşayan məhkumlar üçün tez-tez maarifləndirici tədbirlər təşkil olunur. Bu məsələdə QHT-lər fəallıq göstərirlər. Spirt, tütün, narkomaniya və başqa zərərli vərdişlərlə bağlı mütəmadi seminar, treninqlər təşkil edilir.

E.Orucov tərbiyə müəssisəsindən çıxıb ali məktəbə gedənlərin belə olduğunu vurğulayıb: "Azadlığa çıxdıqdan sonra hətta Bakı Dövlət Universitetinə qəbul olunan var. O.K. adlı bir nəfər isə burada heykəltaraşlıq öyrənib və hazırda azadlıqda heykəltaraşlıqdan dərs deyib pul qazanır".

18 nömrəli peşə məktəbinin avtomobil çilingəri ixtisası üzrə tərbiyə müəssisəsində daimi hazırlıq təşkil olunur. Maraqlanan yeniyetmələr bu imkandan yararlana bilirlər. Ayrı-ayrı peşələr üzrə də mütəmadi kurslar təşkil olunur. Müəyyən dövrü əhatə edən həmin kurslardan fərqli olaraq avtomobil çilingəri və heykəltaraşlıq üzrə daimi hazırlıq həyata keçirilir: "Heykəltaraşlıq üzrə müəllim Elxan Zeynalov mütəmadi olaraq gəlib bildiyini burdakı uşaqlara da öyrədir. Düzdür, bəzən məktəbdən yayınmaq üçün də heykəltaraşlıqla maraqlanırmış kimi görünənlər olur. Ancaq biz bunu bilirik. Marağı və bacarığı olanlarla Elxan müəllim çox həvəslə məşğul olur. Uşaqların artıq xeyli əl işi də var. "Saf rənglər" Beynəlxalq Rəsm Yaradıcılıq Festivalında da sərgilənən və mükafatlanan əl işləri olub. Məsələn, Əşrəf Əhmədov adlı yeniyetmənin "Buqələmun"u qiymətləndirilib".

***

Onlar üçün heç nə hələ bitməyib. Oxumaq, təhsil böyük əksəriyyətini cəmiyyət sıralarına faydalı insan kimi qaytaracaq.

**Məmmədağa Şirəliyev - 110**

Görkəmli Azərbaycan alimi, sovet dövrünün seçilən türkoloqlarından biri akademik Məmmədağa Şirəli oğlu Şirəliyevin anadan olmasının 110 ili tamam olur. M.Şirəliyevin adı sağlığında ikən təkcə SSRİ ərazisində deyil, xarici ölkələrdə də tanınırdı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Akademik Məmmədağa Şirəliyevin 110 illiyinin qeyd edilməsi haqqında” 19 iyul 2019-cu il tarixdə sərəncam imzalamışdır.

Akademik M.Şirəliyev Azərbaycan dilçilik elminin Bəkir Çobanzadə, Fərhad Ağazadə, Abdulla Tağızadə, İdris Həsənov, Xoca Səid Xocayev kimi dilçilər nəslindən sonrakı elmi nəslə mənsub idi. Bu nəslin nümayəndələrinə isə başda M.Şirəliyev olmaqla, Əbdülləzəl Dəmirçizadə, Muxtar Hüseynzadə, Əliheydər Orucov, İsmayıl Əfəndiyev və başqa bu kimi görkəmli dilçi alimləri aid etmək olar.



# Dilimizin yorulmaz tədqiqatçısı

## Dialektoloji araşdırmalar, dialekt və şivələrimizin tədqiqi onun elmi fəaliyyəti ilə bağlıdır

**Aydın NAĞDALIYEV,**
*Gəncə Dövlət Universitetinin fəxri professoru, filologiya üzrə fəlsəfə doktoru*

Sovet dövrü elmi məktəb yaratmış Azərbaycan alimlərindən Yusif Məmmədəliyev, Abdulla Qarayev, Həsən Abdullayev, Mustafa Topçubaşov, Əhməd Seyidov, Ziya Bünyadov, Azad Mirzəcanzadə və başqa alimlər kimi M.Şirəliyev də elmi məktəb yaradan ziyalılardan idi. Başlanğıcını görkəmli sovet türkoloqu N.Aşmarindən götürən milli dialektlərimizin öyrənilməsi M.Şirəliyevin elmi fəaliyyəti nəticəsində elmi məktəb səviyyəsinə qaldırıldı. Azərbaycanda dialektoloji araşdırmalar, dialekt və şivələrimizin tədqiqi bilavasitə bu alimin adı və elmi fəaliyyəti ilə bağlıdır.

Görkəmli alim Azərbaycanın qədim elm və mədəniyyət mərkəzlərindən olan Şamaxıda doğulmuş, onun uşaqlıq illəri erməni daşnak-bolşevik quldurlarının Şamaxı və ona yaxın əraziləri gülləbaran, talan etdikləri illərə təsadüf etmişdi. M.Şirəliyev 1931-ci ildə Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsini bitirmiş, sonralar respublikanın müxtəlif ali məktəblərində dərs demiş, kafedra müdiri, dekan, prorektor və b. vəzifələrdə çalışmışdır.

M.Şirəliyevin aspiranturada elmi rəhbəri B.Çobanzadə olmuşdur. Lakin B.Çobanzadə qanlı Stalin repressiyasının günahsız qurbanı oldu, buna baxmayaraq, gənc aspirant daha ciddi səylə elmi axtarışlarını davam etdirdi. Bu yerdə professor Əlövsət Abdullayevin sözləri yada düşür: “... İstanbul Universitetində təhsil almış dilçi professor B.Çobanzadə 1937-ci ildə həbs edildi. Onun aspirantları M.Şirəliyev, Ə.Dəmirçizadə, M.Hüseynzadə, İ.Əfəndiyev başsız qaldılar. Sonralar onların yetişməsi üçün uzun illər lazım oldu”.

M.Şirəliyev 1941-ci ildə “Bakı dialekti” mövzusunda namizədlik dissertasiyası müdafiə etmiş, lakin əsərin elmi məziyyəti nəzərə alınaraq, ona birbaşa filologiya elmləri doktoru elmi dərəcəsi verilmişdir. O, Azərbaycan Respublikası Elmlər Akademiyasının həqiqi üzvü (1962) seçilmiş, “Əməkdar elm xadimi” fəxri adına layiq görülmüşdü (1962). Görkəmli alim 1949-cu ildən ömrünü Elmlər Akademiyası sisteminə bağlamış, Nizami adına Ədəbiyyat və Dil İnstitutunun, sonralar, 1969-cu ildən isə uzun illər Nəsimi adına Dilçilik İnstitutunun direktoru vəzifəsində işləmişdir.

Böyük türkoloqun elmi fəaliyyətində başlıca yeri dialektoloji tədqiqlər tutur. Alimin dialekt və şivələrin öyrənilməsi sahəsindəki işi bir sıra nəzəri ümumiləşdirmələr aparmağa, ümumiləşdirici nəzəri əsərlər yaratmağa imkan verdi və bu əsasda “Azərbaycan dialektologiyasının əsasları” adlı dərsliyi nəşr olundu (1962). Həmin əsər 1968-ci ildə təkmilləşdirilmiş şəkildə yenidən çap edildi. Sonralar bu əsərinə görə görkəmli alimə Azərbaycan Respublikasının Dövlət mükafatı verildi.

50-ci illərin sonlarından Azərbaycan dialektologiyasının yeni bir sahəsi, dilçilik coğrafiyası inkişaf etməyə başladı. Keçmiş sovet türkologiyasında, eləcə də Azərbaycan dilçiliyində dilçilik coğrafiyasının əsasını M.Şirəliyev qoymuşdur. O, ilk dəfə Azərbaycan dialektlərinin arealıq prinsipləri nəzərə alınmaqla düzgün elmi təsnifini vermişdir. Türk dilləri dialektlərinin tədqiqi sahəsində birinci olaraq, Azərbaycan dialektoloqları dialektlərin özünəməxsus xüsusiyyətlərini aydınlaşdırmaq və izoqlassları (dilçilik coğrafiyasında dil xüsusiyyətləri eyni olan yerləri birləşdirən xətt - A.N.) seçmək məqsədilə dilçilik coğrafiyası metodunu tətbiq etdilər. M.Şirəliyevin rəhbərliyi ilə türk dilləri arasında ilk dəfə Azərbaycan dialektoloqları dilimizin Şərq qrupu dialekt və şivələrini əhatə edən təcrübi dialektoloji atlas hazırlamışlar. Türkologiya tarixində ilk təcrübə olaraq, 128 xəritədən ibarət “Azərbaycan dilinin dialektoloji atlası” 1990-cı ildə nəşr olunmuşdur.

1964-cü ildə M.Şirəliyevin redaktorluğu altında “Azərbaycan dilinin dialektoloji lüğəti” nəşr edilmişdir. Azərbaycan dilçilərinin yaxından iştirakı ilə ikicildlik “Azərbaycan dilinin dialektoloji lüğəti” 1999-cu ildə Türkiyədə nəşr olundu və lüğətə fəxri redaktor kimi M.Şirəliyevin adı salındı.

XX əsrin 70-ci illərindən Bakı şəhəri keçmiş SSRİ məkanında türkoloji mərkəzlərdən biri kimi tanınmağa başladı. Bu, bir tərəfdən Azərbaycan KP MK-nın birinci katibi ümummilli lider Heydər Əliyevin Azərbaycanı Ümumittifaq miqyasında daha yaxından tanıtması ilə əlaqədar idisə, digər tərəfdən də M.Şirəliyev və başqa türkoloq alimlərimizin elmi nüfuzları bu sahədə təsirsiz qalmamışdı. 1970-ci ildən Bakıda beynəlxalq səviyyəli “Sovetskaya tyurkologiya” jurnalı nəşr olunmağa başladı. Sovet dövründə türk dillərinin dialektologiya məsələlərinə həsr edilmiş elmi konfranslardan üçü Bakıda keçirilmişdi (1956, 1960, 1965).

Sovet dövründə türkdilli respublikaların hamısında dialektoloji tədqiqləri idarə edən və əlaqələndirən bir təşkilat - Dialektologiya Komitəsi fəaliyyət göstərirdi ki, onun da sədri akademik M.Şirəliyev idi. Böyük türkoloqun elmi fəaliyyətinin nəticəsi idi ki, Azərbaycan dialektologiya məktəbi başqa türk dilləri dialektlərinin tədqiqi yolunda nümunəyə çevrilmişdi.

Görkəmli alimin elmi yaradıcılıq sahəsi yalnız dialektoloji araşdırmalarla bitmir, o, dilimizin qrammatikasına, nitq mədəniyyətinə, üslubiyyatına, orfoqrafiya və orfoepiyaya, türkologiyanın nəzəri məsələlərinə dair əsərlərin, ali və orta məktəblər üçün dərsliklərin müəllifi olmuşdur. Təkcə onu qeyd etmək kifayətdir ki, alimin M.Hüseynzadə ilə birlikdə orta məktəblər üçün yazdığı “Azərbaycan dilinin qrammatikası” (sintaksis) kitabı yarım əsrə yaxın məktəblilərin stolüstü dərsliyi olmuşdu. Bir sözlə, alimin qələmindən 200-dən artıq elmi əsər, məqalə və dərslik çıxmışdır.

Azərbaycan dilçilik elmi onilliklər ərzində M.Şirəliyev, Ə.Dəmirçizadə, M.Hüseynzadə kimi alimlərin çiyinləri üstündə formalaşdı və bu alimlərin elmi fədakarlığı sayəsində 60-70-ci illərdə elmdə nüfuzlu imza qoymuş, İttifaqda və beynəlxalq aləmdə tanınan dilçilər nəsli yetişdi. M.Şirəliyevin bilavasitə rəhbərliyi ilə təkcə Azərbaycanda deyil, eləcə də türkdilli respublikalarda çoxlu dilçi kadrlar, türkoloqlar hazırlandı. Bu türkdilli ərazilərin koordinatları Aşqabad, Alma-Ata, Daşkənd, Kazan, Ufa şəhərlərindən keçir.

Stalinin repressiya “dalğa”sının nisbətən səngidiyi 50-ci illərin əvvəllərində bir çox alim, şair və ziyalılar kimi M.Şirəliyev də kosmopolitizmdə günahlandırıldı. Xalq şairi S.Vurğun da onların sırasında idi. Şairin “Muğan” poemasında kosmopolitizmdə günahlandırılması barədə bir eyhamı qeyd etmək yerinə düşər:

*Kosmopolit tənqidçilər ömrü boyu dandı məni*
*Dedi: “Əsl şairlərin nə yurdu var, nə vətəni”,*
*Dedi bütün yer üzüdür sənətkarın ana yurdu*
*Bizim çoban şairi də saz üstündə şeir qurdu...*

Görkəmli alimin elmi fəaliyyət dairəsi yalnız keçmiş SSRİ ərazisi ilə məhdudlaşmırdı. O, 1957-ci ildə Türk Dil Qurumuna üzv seçilmişdi (o zamanlar Azərbaycandan Ə. Dəmirçizadə və H.Araslı da bu qurumun üzvü idilər). 1953-54-cü illərdə Bolqarıstan hökumətinin dəvəti ilə Sofiya Universitetində, 1963-cü ildə Polşa Respublikasının Varşava, Krakov universitetlərində türk dillərindən mühazirələr oxumuşdu. Tanınmış türkoloq bir sıra beynəlxalq elmi yığıncaqlarda uğurla çıxış etmiş, əsərləri bir çox xarici dillərdə çap olunmuşdur.

Zəhmətkeş alim çoxcildlik “Azərbaycan Sovet Ensiklopediyası”nda baş redaksiya heyətinin üzvü idi. Keçən əsrin 70-ci illərində görkəmli alimin həyatı və elmi biblioqrafiyası haqqında rus dilində “Görkəmli adamların həyatı” seriyasından kitabça da nəşr edilmişdi.

M.Şirəliyev indi həyatda olmasa da, unudulmaz xatirəsi onu tanıyanların qəlbində yaşayır və fəxredici haldır ki, görkəmli alimin adı bu gün də keçmiş sovet dövrünün dünyaşöhrətli türkoloqları A.Kononov, N.Baskakov, A.Borovkov, A.Şerbak, V.Serebrennikov və b. alimlərin sırasında çəkilir.

Peyğəmbər Əleyhissalam buyururdu: “Elmindən fayda gələn alim min abiddən irəlidir”. Bəli, türkoloq alim M.Şirəliyev elmi ilə xalqına, vətəninə fayda gətirən elm yolçusu idi.

Bu kiçik məqalə ilə böyük alimin xatirəsini yad edir, ona hörmət və ehtiramımızı göstəririk. Xalq şairi S.Vurğun demişkən, “Bizdən ayrı düşənlərə Borcumuzdur bu ehtiram!”.

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük dramaturq, Əməkdar incəsənət xadimi, Xalq yazıçısı İlyas Əfəndiyevin vəfatından artıq 23 il ötür. Azərbaycan ədəbiyyatı və dramaturgiyasının milli sərvəti sayılan İlyas Əfəndiyevin 105 illiyi ilə əlaqədar efir məkanlarında, çoxsaylı qəzet və jurnallarda, internet portallarında silsilə xəbər və yazılar öz əksini tapmaqdadır.

İlyas Əfəndiyevin yaradıcılığına nəzər salsaq, görərik ki, nasir ədəbiyyata gəldiyi ilk gündən maraq dairəsi dramaturgiya sahəsinə olmuşdur. O, teatr mühitinə 1943-cü ildə Mehdi Hüseynin təklifi ilə onunla müştərək yazdığı “İntizar” pyesinin tamaşası ilə daxil olmuş, ömrünün sonuna qədər teatr və səhnədən ayrıla bilməmişdir. O, öz gəlişi ilə Azərbaycan ədəbiyyatına və dramaturgiyasına yeni ruh, yeni nəfəs, yeni çalar və motivlər gətirmişdir.



# İlyas Əfəndiyev dühası

## Azərbaycan ədəbiyyatına yeni ruh, yeni çalar gətirmiş yazıçı

**Vəfa GÖVHƏR,**
*Bakı Xoreoqrafiya Akademiyasının mətbuat katibi*

İlyas Əfəndiyev yaradıcılığı çoxşaxəlidir. Belə ki, o, yaradıcılığı dövründə hekayələr, əmək qəhrəmanları haqqında oçerklər, irihəcmli pyeslər və romanlar, dramaturji cəhətdən bir-birindən fərqli olan səhnə əsərləri yazıb-yaratmışdır. Məhz bu kontekstdən İlyas Əfəndiyev bütün sovet məkanında öz dövrünün ən görkəmli və məhsuldar yazıçısı kimi dəyərləndirilmişdir. Həmin dönəmlərdə yazdığı hekayələr, oçerklər - “Söyüdlü arx”, “Dağlar arxasız olmur”, “Üçatılan”, “Körpüsalanlar”, “Geriyə baxmaÖ qoca” kimi romanları və bir-birindən maraqlı pyesləri bunun bariz nümunəsidir.

İlyas Əfəndiyevin xarici ölkələrin teatrlarında səhnələşdirilən dramaturgiya nümunələri də az deyildir. Ədibin ayrı-ayrı əsərləri türk, fars, rus, alman, ingilis, fransız, bolqar, çex və digər dillərə tərcümə edilmişdir. Onun yaradıcılığı təkcə nəsr və dramaturgiya nümunələri ilə məhdudlaşmır. O, bədii yaradıcılığın mühüm sənətkarlıq məsələlərinə, yazıçı fərdiyyətinə, dil, üslub problemlərinə, dram əsərlərinin səhnə təcəssümünə dair qiymətli məqalələrin, onlarla publisistik yazının müəllifidir.

Böyük dramaturq 1964-cü ildə yazdığı “Sən həmişə mənimləsən” pyesi ilə Azərbaycan səhnəsində lirik-psixoloji dramın əsasını qoyur. Bu yolu uğurla davam etdirən dramaturq növbəti illərdə “Mənim günahım”, “Unuda bilmirəm”, “Məhv olmuş gündəliklər”, “Qəribə oğlan”, “Bağlardan gələn səs” və s. pyeslərini yazır. Azərbaycan dramaturgiyası xəzinəsini zənginləşdirən, insani dəyərlər və xüsusiyyətlər aşılanan bu kimi pyeslərlə Azərbaycan teatr sənətində yeni bir mərhələ açılır - İlyas Əfəndiyev teatr məktəbi.

İlyas Əfəndiyev yaradıcılığında üslub dəst-xətti ilə seçilən “Şeyx Xiyabani” pyesi ədəbiyyatımızda Azərbaycan xalqının birliyi probleminə həsr olunmuş ilk dram əsəridir. Sovetlər dövründə Xiyabani hərəkatı bu taydakı Demokratik Respublikanın bilavasitə təsiri ilə İranda - Cənubi Azərbaycanda azərbaycanlıların hüquqları uğrunda mübarizəyə qalxmış milli hərəkat kimi deyil, sovet ideologiyasına xas bir şəkildə və qəsdən dini hərəkat kimi səciyyələndirilərək, bolşeviklərlə əlaqələndirilirdi. Bu mövzu yazıçının “Unuda bilmirəm”, “Məhv olmuş gündəliklər”, “Büllur sarayda” pyeslərində də bir motiv olaraq özünü göstərmişdir.

60 ildən çox yaradıcılıq yolu keçmiş İ.Əfəndiyev 90-cı illərdə, həyat və yaradıcılığının ən müdrik və qocaman çağlarında belə, usanmadan incəsənət və mədəniyyətimizə öz töhfələrini verməkdə idi. Sovet rejiminin bərqərar olduğu, partiya qadağalarının hökm sürdüyü bir vaxtda, Azərbaycanın tarixi və milli dəyərlərinə dair hər hansı bir faktı və ya məlumatı yazmaq yasaq olunduğu bir dönəmdə İlyas Əfəndiyev bu mövzuları çəkinmədən, cəsarətlə ədəbiyyata gətirmiş, onları yeni zamanın kontekstində oxuculara təqdim etmişdir.

Yaradıcılığı boyu hakim ideologiyanı tərənnüm etməyən ədib o dövrdə ədəbiyyatda yasaq olan Cənubi Azərbaycan və mühacirət mövzularında əsərlər yazmış, “Tənha iydə ağacı” pyesi ilə ilk dəfə mühacirət mövzusunu ədəbiyyata gətirmişdir.

Dünya dramaturgiyasında qəbul olunmuş bir neçə klassik dramaturqun səhnə sənətində yaratdıqları ədəbi məktəblər vardır ki, bunlardan Şekspir, Molyer, Ostrovski, Çexov, Brext dramaturji məktəblərini misal çəkmək olar. Eləcə də Azərbaycanda Mirzə Fətəli Axundov, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Cəfər Cabbarlı, Səməd Vurğun, İlyas Əfəndiyev ədəbi məktəbləri də mövcuddur ki, yetişməkdə olan neçə-neçə gənc aktyor, rejissor nəslinin bəhrələnməsi üçün mədəni məbəddir.

Azərbaycan dramaturgiyasında yuxarıda adları sadalananlarla yanaşı Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev kimi ədəbi simalarımızın da böyük xidmətləri olmuşdur. Lakin danılmaz faktdır ki, 20-ci əsrin ikinci yarısından etibarən Akademik Milli Dram Teatrı əsasən İlyas Əfəndiyev dramaturgiyasının nəhəng sütununa söykənirdi. İlyas Əfəndiyev bütün səhnə əsərlərini yalnız Akademik Milli Dram Teatrı üçün yazmışdır.

İlyas Əfəndiyevin sağlığında ikən 20-dən artıq pyesi Akademik Milli Dram Teatrında tamaşaya qoyulmuşdur. Yarım əsr ərzində onun səhnəmizə bəxş etdiyi “İşıqlı yollar”, “Bahar suları”, “Atayevlər ailəsi”, “On manatlıq lüstr”, “Mahnı dağlarda qaldı”, “Xurşidbanu Natəvan”, “Bizim qəribə taleyimiz”, “Sevgililərin cəhənnəmdə vüsalı”, “Ağıllılar və dəlilər”, “Hökmdar və qızı” və s. əsərləri tamaşaya qoyulmuşdur. Yazıçının uşaqlar üçün yazdığı “Ceyran ovu”, “Maraqlı hadisə”, “Qoruqlarda”, “Yasəmən ağacı”, “İz ilə”, “Ovçunun nağılı”, “Zəmidə bir turac səslənirdi” kimi hekayələri məktəb dərsliklərinə salınmışdır.

Azərbaycan filmoqrafiyasında yazıçının - “Körpüsalanlar”, “Bizi dağlarda axtarın”, “Atayevlər ailəsi”, “Gözlə məni”, “Bircəciyim”, “Sən həmişə bizimləsən”, “Bizim qəribə taleyimiz” və b. əsərləri əsasında filmlər də çəkilmişdir.

Bir faktı qeyd etmək lazımdır ki, Azərbaycan ədəbiyyatında heç bir dramaturq İlyas Əfəndiyev qədər teatrla uzunmüddətli fəal yaradıcılıq əlaqəsi yaratmamışdır. Belə ki, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında yazıçının bütün pyeslərinə səhnə həyatı verilmişdir. Bütün pyeslər xüsusi uğurla səhnəyə qoyulmuş və rəğbətlə qarşılanmışdır. Bu əsərlər Azərbaycan teatrı tarixində əsl hadisəyə çevrilmiş, ölməz sənət nümunələri kimi oxucu və tamaşaçı yaddaşında həmişəyaşarlıq qazanmışdır.

İlyas Əfəndiyev Azərbaycan dramaturgiyasının inkişafında müstəsna xidmətlər göstərmiş ədiblərimizdən biridir.

Dövri mətbuatda peşəkar nasir və dramaturq İlyas Əfəndiyevin məhsuldar yaradıcılığı haqqında zirvələrdə qərar tutmuş tanınmış qələm sahibləri, yazıçı və şairlərimizdən M.Hüseyn, O.Sarıvəlli, M.Arif, M.Cəfər, B.Bayramov, İ.Şıxlı, Ə.Cəfərzadə, B.Vahabzadə, Ə.Vəliyev, X.R.Ulutürk və başqaları geniş söz açmışlar. Yazılan və söylənilən müsbət fikir və rəylər bir daha onu göstərir ki, İ.Əfəndiyev böyük sənətkar olmaqla yanaşı, həm də mənəvi baxımdan böyük düha sahibidir.

Hələ zamanında ədəbiyyatımızın inkişafında xidmətlərini nəzərə alan ulu öndərimiz Heydər Əliyev İ.Əfəndiyevin anadan olmasının 80 illiyinin təntənəli surətdə qeyd edilməsi haqqında sərəncam imzalamış və onu “Şöhrət” ordeni ilə təltif etmişdir.

İlyas Əfəndiyevin uşaqlar üçün yığcam və sadə dildə yazmış olduğu kiçikhəcmli hekayələri hazırkı ibtidai məktəb dərsliklərinə də salınmışdır. İ.Əfəndiyev yaradıcılığı ətrafında hər zaman tədqiqat işləri aparılmış, onun hər dəfə yeni izah, yeni yanaşma, yeni interpretasiya tələb edilən ədəbi nəsri haqqında monoqrafik əsərlər yazılmışdır. Bu gün İlyas Əfəndiyev irsindən müəyyən seçmələr orta məktəb dərsliklərində öz əksini tapmaqla yanaşı, incəsənət yönlü ali təhsil ocaqlarında da, xüsusilə teatrşünas, rejissor, aktyorluq və s. kimi ixtisas fənlərində böyük dramaturqun yaradıcılığı daha dərindən tədris olunur.

Böyük ədibimizin illər öncə haqq dünyasına qovuşması Azərbaycan dramaturgiyası üçün böyük itki idi. Lakin onun yazıb-yaratdığı, qoyub getdiyi dramaturji məktəb və mədəni irsi ona ölməzlik, həmişəyaşarlılıq gətirmişdir. Əziz və sevimli dramaturqumuz İlyas Əfəndiyevin ruhuna hər zaman Uca Tanrıdan rəhmət diləyirik.

# Yeni məktəbə gedən yol və ya müasir məktəbin fəlsəfəsi

**Hikmət ƏLİZADƏ,**
*BDU-nun professoru, pedaqoji elmlər doktoru, Təhsil Şurasının sədri*

(Əvvəli qəzetin 18 oktyabr tarixli nömrəsində)

Təxəyyül bütün adamlarda eyni səviyyədə inkişaf etmir. Ancaq bir cəhət dəqiq məlumdur: təxəyyülü güclü olduqca insanlar başqa insanları, təbiət və cəmiyyət hadisələrini daha yaxşı anlayırlar. Məsələnin belə qoyuluşu təfəkkürlə yanaşı, təxəyyülün inkişafını gündəmə gətirdi. Nəticədə interaktiv (fəal) təlim metodları daha da aktuallaşdı, dərsin mərhələləri təlimin yeni məqsədlərinin həyata keçirilməsi müstəvisində öz məzmununu dəyişərək aşağıdakı kimi oldu:

**1.**Motivasiya, problemin qoyuluşu; **2.**Tədqiqatın aparılması; **3.**İnformasiya mübadiləsi; **4.**İnformasiyanın müzakirəsi və təşkili; **5.**Nəticə, ümumiləşdirmə, **6.**Yaradıcı tətbiq etmə; **7.**Qiymətləndirmə və refleksiya.

Bu mərhələlərdən göründüyü kimi, müasir dərs təfəkkür və təxəyyülün inkişafına istiqamətlənir. Problem qoyulur, fərziyyə irəli sürülür, tədqiqat aparılır və sonda nəticə hasil olur. Hər bir dərsin məzmununa müvafiq olaraq, müəllim təlimin müxtəlif interaktiv (fəal) metodlarından istifadə edir.

**Günün sualı:** Görəsən ümumtəhsil məktəbi çərçivəsində dərsdə təfəkkür və təxəyyülü inkişaf etdirmək olar?

## Məktəbin yenilənməsi və ya yeni məktəbə doğru ilk addımlar...

Bu suala cavab vermək üçün, ilk növbədə, diqqəti təhsilin məzmunu probleminə yönəltmək lazımdır. Təəssüf hissi ilə qeyd edilməlidir ki, xüsusən orta ümumtəhsil məktəblərində nöqsanlar təhsilin məzmunu ilə başlanır, təhsilin məzmunu ilə bitir. Əgər müqayisə etsək, orta ümumtəhsil məktəbinin məzmunu son 30-40 il ərzində çox cüzi dəyişiklikləri özündə ehtiva edir. Halbuki, təhsilin məzmunu müasir dövrdə yenilənməlidir. Bu məsələni izah edək:

Keçən əsrin 90-cı illərində ölkəmizin ictimai-siyasi həyatında baş verən hadisələr təhsil sistemində bir müddət sanki "durğunluq" yaratdı. Müstəqilliyə qədəm qoyduqdan sonra təhsil sistemini məhz təfəkkür və təxəyyül paradiqması müstəvisində inkişaf etdirmək lazım olduğu məlum oldu. Məktəbin təkmilləşdirilməsi bu axarda həyata keçirilməli idi. Biz artıq açıq cəmiyyətdə yaşamağa başlamışdıq. İndi dünyaya açılan pəncərə daha da böyümüşdü. Artıq müəllim və dərslik yeganə bilik mənbəyi deyildi. Ümumtəhsil orta məktəbinin məzmunu obrazlı desək, "yeni dövrün nəfəsi ilə isinməli" idi. Orta ümumtəhsil məktəbində təhsil müddətinin bir il artırılması bu ümidləri artırdı. Onbirillik təhsil üçün yeni məzmun hazırlamaq lazım idi. Təhsil müddətinin bir il artırılması onun məzmununda köklü dəyişiklik etmək üçün yeni imkanlar yaratmışdı. Lakin təhsilin ənənəvi məzmunu, bir neçə kosmetik əlavələrlə, on bir il müddətinə bölüşdürüldü və onbirillik məktəb öz fəaliyyətinə başladı. Fəal təlim metodlarının tətbiqi genişləndirildi. Bu, təhsilin məzmununun yenilənməsi demək deyildi. İnteraktiv (fəal) təlim metodlarının tətbiqi müasir təhsil paradiqması baxımından birmənalı şəkildə müsbət qiymətləndirilməlidir və onun məktəbə gətirilməsi ən uğurlu yenilik kimi mənalandırılmalıdır. Lakin bəzi məktəb və ya müəllimlərin pedaqoji fəaliyyəti istisna olmaqla, orta ümumtəhsil məktəbi müstəvisində bu metodların tətbiqi psixoloq və pedaqoqların qeyd etdikləri kimi, elə də sevindirici nəticəyə gətirib çıxarmadı. Bir sıra hallarda təlim prosesində psixoloji amillərin (şagirdin özünüaktuallaşma səviyyəsinin, motivasiyasının, idraki maraqlarının, qabiliyyətlərinin və s.) lazımi səviyyədə nəzərə alınmaması bu metodların tətbiqində çətinliklər yaratdı. Yeni metodlar yeni rəhbərlik üslubu tələb edirdi, müəllimlərin əksəriyyəti isə hələ də köhnə idarəetmə üsullarından istifadə edirdi. Yeni metodlar yeni dərsliklər tələb edirdi, köhnə dərsliklər yeni metodlar üçün nəzərdə tutulmamışdı və s.

## Bir daha dərsliklər haqqında

Təhsilin məzmununu əks etdirən əsas sənədlərdən biri olan dərsliklərlə bağlı təkcə elmi səviyyədə deyil, hətta ictimai səviyyədə belə ciddi iradlar vardır. Görəsən, bunun səbəblərini harada axtarmaq lazımdır? Bəzən dərsliklərin belə səviyyədə olmasının günahını təkcə ayrı-ayrı müəlliflərdə, onların səriştəsizliyində axtarırlar. Biz bunu inkar etmirik. Belə hallara da təsadüf edilir. Amma bu əsasən metodiki səviyyədə mövcud olan nöqsandır. Əgər dərsliklərin yazılmasında metodoloji səviyyədə nöqsanlar olmasaydı, onları aradan qaldırmaq da asan olardı. Metodoloji səviyyədə nöqsanlar mövcud olduğuna görə metodiki səviyyədə dərsliklərdə aparılan korrektə işləri öz faydalılığı ilə fərqlənmir. Problemin sistemli həlli, ilk növbədə, dərslik hazırlanması üçün metodoloji müstəvidə ilkin, başlanğıc meyar kimi nəyin əsas götürülməsinin ayırd edilməsini tələb edir. Təbii ki, dərslik hazırlanarkən hansı meyarlara istinad olunması pedaqoji ictimaiyyətə bəllidir. Burada heç bir mübahisəli məsələ yoxdur. Amma nə qədər qəribə olsa da pedaqoji ədəbiyyatda ilkin, başlanğıc meyar kimi heç nə göstərilmir. Fikrimizcə, belə meyar kimi ilk növbədə, dərsliyin hansı məktəb tipi üçün yazılması nəzərdə tutulmalıdır. Təəssüf hissi ilə qeyd edək ki, dərsliklər yazılarkən, bu meyar mahiyyətcə nəzərə alınmır. Bu boşluq dərsliklərdə müəyyən nöqsanların yaranması ilə nəticələnir ki, bunları da metodiki səviyyədə aradan qaldırmaq mümkün olmur.



## Kurikulumların tətbiqi, ümidlər və...

Kurikulumların tətbiq edilməsi məktəb həyatında canlanma yaratdı. Əslində bu, məktəbin inkişafının yeni mərhələsinin başlanğıcı idi. Kurikulumların tətbiqi artıq bütün siniflərə tətbiq edilmişdir. Şəxsiyyətyönümlü və nəticəyönümlü xarakter daşıyan bu kurikulumlar nəzəri cəhətdən özünəməxsus pedaqoji əhəmiyyətə malikdir. Onların tətbiqi fəal təlim metodlarına geniş meydan açdı, şagirdin özünüaktuallaşma səviyyəsinin yüksəlməsinə, motivasiyasının formalaşmasına, idraki maraqlarının, qabiliyyətlərinin nəzərə alınmasına imkan verdi və fənlərin tədrisi şagirdlərdə səriştələrin formalaşmasına xidmət etməyə başladı.

Bütün bu deyilənlər pedaqoji, psixoloji və təlim texnologiyaları baxımından yüksək qiymətləndirilməlidir. Görülən pedaqoji işlərin ilkin nəticələrini təhlil etsək məlum olar ki, kurikulumların tətbiqi təfəkkür və təxəyyül paradiqmasının təhsil sisteminə tətbiqini genişləndirdi və ümumtəhsil orta məktəbini yaradıcı təfəkkür və təxəyyül məktəbinə çevirmək imkanı yaratdı. Bu paradiqma müəllim-şagird münasibətlərini yeni müstəviyə - subyekt-subyekt münasibətləri səviyyəsinə qaldırdı, müəllim-şagird əməkdaşlığına şərait yaratdı. Kurikulumların tətbiqi zamanı müəllimlər üçün təşkil olunan təlimlər aparılan islahatların müvəffəqiyyətini daha da artırdı. Bu yeniliklər pedaqoji nöqteyi-nəzərdən müsbət qiymətləndirilməlidir. Lakin dünya sürətlə inkişaf edir. Bu prizmadan baxanda ümumtəhsil orta məktəbi heç də qüdrətli görünmür, əksinə, onun dünyanın inkişafını sakit və təbəssümlə seyr etdiyinin şahidi ola bilirik. Görəsən bunun səbəbi nədir? Axı müstəqillik əldə edildiyi gündən bu günə qədər məktəbin inkişafı üçün çox iş görülüb. Məsələn: Məktəb həyatı demokratikləşdirilib, müəllimin rəhbərlik üslubu yeniləşib, müəllim-şagird münasibətləri əməkdaşlıq müstəvisində inkişaf edir, məktəbin məzmunu müəyyənləşdirilərkən, hansı fənlərin, hansı məzmunda tədris edilməsi şagirdlərə həyatda hansı biliklərin lazım ola biləcəyi ehtimalı üzərində müəyyən edilmiş, hər bir fənni şagirdlərdə motivasiyanın yaradılması müstəvisində tədris edilir, onlara həyatda bu biliklərdən harada və necə istifadə edə biləcəkləri öyrədilir, fənlərin tədrisində müasir əyani vəsaitlərdən istifadə edilir, məktəbəqədər yaş dövrünün son pilləsində uşaqların məktəbə hazırlığı reallaşıb və s.

Göründüyü kimi, müstəqillik əldə edildiyi zamandan bu günə qədər orta ümumtəhsil məktəbinin inkişafı üçün çox iş görülüb. Lakin bu günə qədər unudulub ki, orta ümumtəhsil məktəblərinin xəmiri "hamıya hər şey öyrətmək" prinsipi ilə yoğrulub. Sual oluna bilər? Bu gün hamıya hər şeyi öyrətmək mümkündürmü? Təbii ki, xeyr, mümkün deyil. "Hamıya hər şeyi öyrətmək" prinsipi XVII əsrdə yaranmışdır, həmin dövrdə bu prinsip öz təcəssümünü tapa bilərdi. Bu gün inkişaf etmiş ölkələrin məktəblərində təhsilin məzmununun əsas meyarı insana hansı səriştələrin aşılanması üzərində qurulur. Belə yanaşma qabiliyyət problemini və təmayül siniflər məsələsini aktuallaşdırır. Başqa sözlə desək, təmayül siniflərdə təhsilin məzmunu şagirdin qabiliyyətinin inkişafına istiqamətlənir. Təmayül məktəblər və təmayül siniflər müasir təhsil konsepsiyalarının tətbiqi üçün münbit şərait yaradır. Təhsil Nazirliyinin son dövrlərdə təmayül siniflər yaradılması qənaəti təhsilimizin bugünkü inkişafının daha da yüksək səviyyəyə qaldırılması üçün mühüm əhəmiyyət kəsb edir. Daha dəqiq ifadə etsək, təmayül siniflərinin yaradılması Azərbaycan təhsilinin inkişafının növbəti mərhələsidir. Mövcud normativ sənədlər və metodologiya bu siniflərin yaradılması üçün tam qənaətbəxşdir.

**Təmayül məktəblər və təmayül siniflər müasir təhsil konsepsiyalarının tətbiqi üçün münbit şərait yaradır. Təhsil Nazirliyinin son dövrlərdə təmayül siniflər yaradılması qənaəti təhsilimizin bugünkü inkişafının daha da yüksək səviyyəyə qaldırılması üçün mühüm əhəmiyyət kəsb edir. Daha dəqiq ifadə etsək, təmayül siniflərinin yaradılması Azərbaycan təhsilinin inkişafının növbəti mərhələsidir. Mövcud normativ sənədlər və metodologiya bu siniflərin yaradılması üçün tam qənaətbəxşdir.**

Orta məktəbdə təmayül siniflərin yaradılması bəzi pedaqoji tələbləri gündəmə gətirir. İbtidai sinifləri bitirən şagirdlərin qabiliyyətlərinin müəyyən edilməsi həyata keçirilməli, həftəlik dərs saatları azaldılmalı, müstəqil fəaliyyət saatları artırılmalı, şagirdlərə dərs vaxtı verilən tapşırıqların müstəqil fəaliyyət saatlarında müəllimin nəzarəti altında yerinə yetirməsi və ya diskussiyada iştirak etməsi zəruri tələblərdir. Bu tələblərin həyata keçirilməsi şagirdlərdə əqli bacarıqların və zəruri səriştələrin, o cümlədən biliklərin daha dərindən mənimsənilməsinə şərait yaradar. Məsələnin belə qoyuluşu Milli Kurikulumun məktəb qarşısına qoyduğu tələblərlə uzlaşır və bu tələblərin həyata keçirilməsi üçün zəruri şərait yaradır. Belə təcrübə inkişaf etmiş ölkə məktəblərində də vardır. Bu məsələlər daha geniş təhlil və müzakirə tələb edir.

## Mövcud təcrübə və ya təmayül məktəblər (liseylər) haqqında

Təmayül məktəbləri hələ sovet dönəmində də fəaliyyət göstərirdi. Bu məktəblər yarandığı ilk illərdən şagirdin qabiliyyət və maraqlarına əsaslandığı üçün təhsilin keyfiyyəti bu məktəblərdə daha yüksək idi. Həmin dövrlərdə əgər ümumtəhsil orta məktəbləri daha çox yaddaş məktəbi kimi xarakterizə olunurdusa, təmayül məktəbləri ondan bir pillə yüksək, təfəkkür məktəbi kimi qiymətləndirilirdi. Onların çevrəsində "fizika-riyaziyyat", "kimya-biologiya", "incəsənət" və s. təmayüllü məktəbləri qeyd etmək olar. Lakin bu tip məktəblərin sayı çox az idi. Belə məktəblər adətən paytaxt şəhərlərdə yaradılır və onlar əsasən internat xarakterli idi. Yəni, şagirdlər həftənin I-VI günləri məktəbdə yaşayır, orada həm dərs oxuyur, həm istirahət edir, asudə vaxtlarını orada keçirir, həm dərslərinə hazırlaşır, həm də qidalanır və orada gecələyirdilər. Bu məktəblərin internat tipli olmasının səbəbi şagirdlərin hər gün uzaqdan məktəbə gəlib-getmə problemini həll etmək idi. Lakin şəxsiyyətin sosiallaşması baxımından müəyyən əhəmiyyətə malik olan bu məktəblərin sayının az olmasının səbəbi onun ümumtəhsil orta məktəbi ilə müqayisədə daha çox maliyyə xərcləri tələb etməsi idi. Lakin nəticə baxımından bu məktəblərdə şagirdlərin inkişafı daha yüksək idi.

İlk növbədə bu məktəblərdə şagird dərsdən sonra nəzarətsiz qalmır, müəllimlərin rəhbərliyi altında dərslərinə hazırlaşır, maraq və qabiliyyətlərinə müvafiq olaraq, əlavə məşğələdə iştirak edir, müəllim tərəfindən təşkil edilən tədbirlərdə fəaliyyət göstərirdi. Bir sözlə, şagird bütün günü məktəb tərəfindən məqsədyönlü şəkildə təşkil olunan müəyyən tədbirdə iştirak edir, asudə vaxtlarında ünsiyyət tələbatlarını təmin etmək, sinif yoldaşları ilə dialoqa girib, müəyyən məsələləri müzakirə etmək imkanına malik idi. Bu məktəblərdə fikrimizcə, əsas çatışmayan cəhət şagirdin sosiallaşmasında valideynlərin, qohumların, qonşuların, həyət dostlarının və s. rolunun azalması idi. Əvəzində şagird hansı təmayüllü məktəbdə oxumasından asılı olaraq, gələcək peşəsini daha aydın təsəvvür edirdi, onda bu istiqamətdə motivasiya yaranırdı və o, bütün fəaliyyətini özünün gələcək peşəsini daha dərindən öyrənməyə cəhd edirdi. Məqsəd aydınlığı onun fəaliyyətini stimullaşdırırdı. Bu məktəbli həyatı üçün mühüm əhəmiyyət kəsb edir ki, ənənəvi ümumtəhsil orta məktəbində bu məqam çatışmayan amillər sırasında özünə möhkəm yer tuturdu.

Müstəqillik əldə etdiyimiz müddətdə isə dünya praktikasına uyğun olaraq, ölkəmizdə bir çox liseylər yarandı. Onlar məzmunları etibarı ilə bir çox məqamlarda təmayül məktəblərindən faydalandılar. Hətta deyərdim ki, təmayüllü məktəblərdən də irəli gedərək, daha maraqlı, daha çevik, daha praktik məktəb tipi yaratdılar. Bu məktəblərin əksəriyyəti, sadəcə olaraq təmayül siniflərdən ibarət oldu.

Təmayül məktəb və liseylərə qəbul müsahibə (və ya imtahan) yolu ilə keçirilir. Bunu təbii saymaq lazımdır. Hər bir lisey qəbul etdiyi şagirdin maraq və qabiliyyətlərini, motivasiyasını, bilik və dünyagörüşünün səviyyəsini və s. bilməlidir. Təsadüfi deyil ki, bu məktəblər qısa zaman kəsiyində daha savadlı məzunları ilə fərqlənməyə başladı. Hərçənd ki, bu məktəblərin də məzmununda həllini gözləyən problemlər az deyil. Məsələ burasındadır ki, bu məktəblərin ümumtəhsil orta məktəbindən fərqi yalnız təmayül siniflərində təmayül fənlərin saatlarının artıq olmasıdır. Proqramlarındakı cüzi fərqləri hətta məzmun fərqi kimi qiymətləndirmək də düzgün olmazdı. Belə ki, bu məktəblərdə təhsil alan şagirdlər elə ümumtəhsil orta məktəbinin dərsliklərindən istifadə edirlər. Halbuki bu məktəblərin hər biri özünəməxsus dərsliklərə malik olmalı idi. Hətta buna baxmayaraq, bu məktəblərin məzunları daha yüksək biliyə malik olurlar. Görəsən, bu məktəblərin müvəffəqiyyətinin səbəbi nədir? Bu məsələni izah edək:

Birincisi, bu məktəblərdə maraq və qabiliyyətinə görə bir-birinə yaxın şagirdlər təhsil alırlar. Ona görə də bu şagirdlər üçün müəllimin verdiyi tapşırıqlar daha çox idraki əhəmiyyət kəsb edir, onlar bir-birləri ilə daha asanlıqla dialoqa girir, problemi daha anlaşıqlı şəraitdə müzakirə edirlər. Elə buna görə də bu məktəblər "yaradıcı təfəkkür məktəbi" kimi daha yüksək statusu qoruyub saxlaya bilmişlər. İkincisi, siniflər qruplaşdırılarkən, maraq və qabiliyyətlər üstün tutulduğundan, bu siniflərdə fəal təlim metodlarının tətbiqi daha yüksək pedaqoji səmərə əldə etməyə imkan verir. Üçüncüsü, bu məktəblərdə təxəyyül-yaradıcılıq paradiqmasının tətbiq edilməsi üçün münbit şərait vardır.

Bəs bu məktəblər hansı nöqsanlara malikdirlər? İlk növbədə qeyd etmək lazımdır ki, bu məktəblərdə də təhsilin məzmunu düzgün tənzimlənməmişdir. Hər şeydən əvvəl, ümumtəhsil məktəbi üçün nəzərdə tutulan dərslikdən təmayül xarakter daşıyan liseyin istifadə etməsi metodoloji cəhətdən səhvdir. Hər bir məktəb tipinin məzmununa uyğun olaraq kurikulumu, fənn kurikulumları və dərsliyi olmalıdır.

İlk növbədə, hansı tip məktəbdə hansı fənləri tədris etmək lazımdır?-sualını aydınlaşdırmaq lazımdır. Bundan sonra araşdırmaq lazımdır ki, hansı tip məktəbdə, hansı fənn, hansı məzmunda tədris edilməlidir. Məsələn, liseydə humanitar təmayüllü siniflərdə humanitar fənlər hansı məzmunda, təbiət fənləri hansı məzmunda, əksinə, texniki təmayüllü liseydə təbiət fənləri hansı məzmunda, humanitar fənlər hansı məzmunda tədris edilməlidir. Yəqin siz də razılaşarsınız ki, humanitar təmayüllü siniflərdə, məsələn, riyaziyyat fənni həm məzmunu, həm də tədris texnologiyası baxımından texniki təmayüllü sinifdə tədris olunan riyaziyyat fənninin məzmun və tədris texnologiyasından fərqlənməlidir, əksinə, humanitar təmayüllü liseydə tarix və ədəbiyyat fənni, riyaziyyat təmayüllü liseydə tədris olunan tarix və ədəbiyyat fənlərinin məzmunu və tədris texnologiyası baxımından fərqlənməlidir. Digər fənlərin məzmunu da bu qayda ilə müəyyən edilməlidir. Bu zaman belə meyardan çıxış etmək lazımdır: məsələn, gələcəkdə tarixçi olacaq bir insan riyaziyyat, fizika, kimya, biologiya, coğrafiya və s. fənlərdən nəyi bilməli, əksinə, riyaziyyatçı ola biləcək bir insan tarix, ədəbiyyat və s. fənlərdən nəyi bilməlidir. Bu fənlərin sərhədlərini müəyyən etmək çox çətindir.

## Şagirdin dərs yükü nə qədər olmalıdır?

Keçən əsrin 80-ci illərindən etibarən şagirdlərin çox yükləndiyi həm pedaqoqlar, həm psixoloqlar, həm metodistlər, həm də ilk növbədə, bəlkə də müəllimlər tərəfindən tez-tez vurğulanırdı. Artıq yüklənmənin aradan qaldırılmasında liseylər geniş imkana malikdir. Burada sadəcə olaraq, hər bir təmayül sinfində hansı fənlərin hansı məzmunda tədris edilməsinin metodoloji əsasını tapmaqdır. Bu metodologiyanın hazırlanması həm məktəbin məzmununun təkmilləşməsinə, həm şagird hazırlığının keyfiyyətinin, həm də texnoloji bazanın tətbiqinin pedaqoji səmərəsinin artmasına kömək edər, şagirdləri əlavə yüklənmədən qurtarar.

## Alternativ dərsliklər problemi

Dərsliklər haqqında hələ çox danışılmalıdır. Bu sahədə hələ çox işlər görülməlidir. Bir məqalə çərçivəsində bütün suallara cavab tapmaq çətindir. Amma buna baxmayaraq, metodoloji əhəmiyyət kəsb edən bəzi məqamları vurğulayaq. İlk növbədə, məktəbin hər bir tipi üçün ayrı-ayrı dərsliklər çap edilməlidir. Hətta mümkün olarsa, hər bir məktəb tipi üçün ümumi proqramı özündə əks etdirən alternativ dərsliklər olmalıdır. Dərslikdən əlavə, şagirdlər üçün dərslikdə verilən materialların daha dərindən mənimsənilməsi, müəllimlər üçün isə verilən materialı daha yaxşı izah etmək üçün müxtəlif metodiki vəsaitlər olmalıdır.

## Epiloq əvəzi

Azərbaycan məktəbi şərəfli tarixə malikdir. O, daim öz fəaliyyətini zamanın tələbinə uyğun qura bilmişdir. Bu gün də Azərbaycan məktəbi əsrin önəmli psixopedaqoji mənzərəsi ilə seçilir, inkişafedici, şəxsiyyətyönümlü, nəticəyönümlü və tərbiyəedici təlim modellərinə əsaslanır. Ümidvarıq ki, təmayül siniflərin yaradılması Azərbaycan təhsilinin yeni keyfiyyət mərhələsinə yüksəlməsində önəmli rol oynayacaqdır.

# İngilis dilini öyrənənlər üçün dərs nümunələri

BRITISH COUNCIL

LearnEnglish

## The suffragettes

By Andreea Pulpea

### Activity 1

Before you read, decide which word(s) (1–5) go(es) with which meaning (a–e).

| | | |
|---|---|---|
| **1.** by force | **2.** hunger strike | **3.** injury |
| **4.** in the event of (something) | **5.** right | |

**a.** damage to the body in an accident or attack
**b.** if (something) happens
**c.** a time when you stop eating to show you disagree with something very much
**d.** something the government allows you to do or have
**e.** using power to make someone do something they don't want to do

### Activity 2

Use the words (1-5) from Activity 1 to complete the sentences.

1. A lot of football players suffer from back ............
2. In this country, anyone over the age of 18 has the ............ to drive a car.
3. A man went on ............ because he disagrees with the new government plans.
4. ............ a fire, leave the building immediately.
5. John started a fight in the club so the security guards took him outside ............

On 4 June 1913 a woman called Emily Davison went to a horse race, threw herself under the king's horse and later died from her injuries. A note which said 'Votes for women' was found in her pocket. All her life, Emily had been fighting for women's rights. She was a 'suffragette', part of a group of women who started working together in 1903 to ask for equal rights for women. When Emily was young, she and all the other women in the UK were not allowed to vote, go to university or work in the same jobs as men. In the event of a divorce, the husband took the children. Sometimes, in poor villages, wives were sold in the market.

The suffragettes wanted to change all this. More than a thousand were arrested, but they did not stop. They went on hunger strike in prison and many were given food by force. In 1928, women in the UK finally got the right to vote and then more and more women started to go to university and get jobs. In 1952, female teachers were given the right to earn the same money as male teachers. Many things have improved since the suffragettes' time, but many people say that men and women are still not equal in society. For example, even now in the UK, men earn 20 per cent more than women for the same work. If you are a male manager, your chance of being promoted is 40 per cent higher than a female manager's. That's why many people are still fighting for equal rights for women in the UK.

### Activity 3

Read the text again. Match the numbers on the left (1–7) with the information on the right (a–g).

| | |
|---|---|
| **1.** 1903 | **a.** more opportunity for male managers to get better jobs |
| **2.** 1913 | **b.** number of suffragettes arrested |
| **3.** 1928 | **c.** the gap in salaries between men and women doing the same work |
| **4.** 1952 | **d.** the year a famous suffragette was killed |
| **5.** 20% | **e.** the year when female teachers won an important right |
| **6.** 40% | **f.** the year when the suffragettes achieved one of their main aims |
| **7.** over a thousand | **g.** the year when women began to ask for equal rights |



### Activity 4

**Example**: *A note* ***was found*** *in her pocket.*

We use the passive (verb '**to be**' + **past participle**) when the person doing the action is unknown, unimportant in the situation or obvious. In the example above, it doesn't matter ***who*** found the note. The important thing in this sentence is the ***note***.

Look at the sentences below and decide which verb is correct.

1. The Internet **(a) was invented / (b) invented** 50 years ago.
2. Many cities around the word **(a) want / (b) are wanted** to reduce pollution.
3. All the players **(a) were made / (b) made** a huge effort in last night's game.
4. The man involved in last night's shooting **(a) was caught / (b) caught** on camera. He **(c) was arrested / (d) arrested** this morning.
5. She **(a) was spent / (b) spent** all her money on clothes.

### Activity 5

Complete the sentences below using the correct form of the verb in brackets (active or passive).

Jane Austen was an English writer. She (a) ............ (bring up) in Hampshire, where her father (b)............ (work) as a priest. Her first novel (c ) ............ (publish) in 1811. Later, she (d)............ (write) five other novels. She (e)............ (die) in 1817, at the age of 41.

### Activity 6

Do you think equal rights are important in society? Why/why not? Do you think men and women should have different duties at home? Can men and women achieve the same results in the same jobs?

### Answers

**Activity 1**
1. e; 2. c; 3. a; 4. b; 5. d

**Activity 2**
1. injury; 2. right; 3. hunger strike; 4. In the event of; 5. by force

**Activity 3**
1. g; 2. d; 3. f; 4. e; 5. c; 6. a; 7. b

**Activity 4**
1. a; 2. a; 3. b; 4. a, c; 5. b

**Activity 5**
a. was brought up; b. worked/was working; c. was published; d. wrote; e. died

**To find more English language activities visit www.britishcouncil.org/learnenglish**

Send your feedback to learnenglishprint@britishcouncil.org

© British Council 2017

# "Qazandığımız uğurlara görə müəllimimizə minnətdarıq"

## *Nigar Hüseynli:* "Ən böyük arzum Bakı Musiqi Akademiyasının tələbəsi olmaqdır"

**Sifai SƏFƏROVA**

İstedadlı yeniyetmə və gənclərin yaradıcılıq imkanlarının üzə çıxarılması, inkişaf etdirilməsi, onların müxtəlif beynəlxalq müsabiqə və festivallarda uğur qazanması qürurvericidir. Azərbaycan incəsənətini, musiqisini dünyada layiqincə təmsil edərək nailiyyətlər qazanan istedadlı gənclərimiz yetərincədir. Onlardan biri - beynəlxalq müsabiqələr qalibi Nigar Hüseynli ilə söhbətimiz səmimi və məzmunlu oldu.

### Gimnaziyamız istedadlar yetişdirir

Mən artıq Azərbaycan Milli Konservatoriyası tərkibində Respublika İncəsənət Gimnaziyasının 8-ci sinif şagirdiyəm. Həyatımda iz buraxan unudulmaz anları heç vaxt unutmayacağam. Bəlkə də həmin anlardır məni seçdiyim sənətə bir daha bağlayan, onu mənə sevdirən. Ümumiyyətlə, düşünürəm ki, sevgisiz həyatda heç nəyə nail olmaq mümkün deyil. Sevgi insana tükənməz enerji, ruh, həvəs, eyni zamanda böyük qələbələrə ümid yaradırr. Əməkdar müəllim Nigar Nəcəfovadan fortepiano dərsini həvəslə alıram. Musiqi mənim həyatımdır desəm, yanılmaram. Gimnaziyamız istedadlar yetisdirir.

Nigar xanım bizim potensialımızı hamıdan yaxşı bilir və ona görə də hər birimizin qarşısında bacardığımız qədər tələblər qoyur. Deyir ki, bütün yetirmələr qarşısında eyni tələbləri qoysam, uğurlu nəticələr ala bilmərəm. Elə şagirdimiz var bir ilə, eləsi var iki ilə gözlənilən uğurlu nəticəni qazanıb müəllimimizi sevindirir. Bütün uğurlarımızda sevimli müəllimimizin əməyi var. Hər dəfə biz beynəlxalq müsabiqələrdən medallarla qayıdanda onun sevincinin hədd-hüdudu olmur. Biz qazandığımız uğurlarla həm də təhsil ocağımızın şərəfini layiqincə qoruyuruq.

### O alqışların səsi qulağımdadır

...Hərdənbir uşaqlıq illərimi xatırlayıram. Uşaq ikən çoxlu oyuncaqlarımla yanaşı musiqi alətlərim də olub. Pianinoda "Cücələrim" mahnısını ifa etməyim hamının xoşuna gəlirdi. O qədər alqışladılar ki, məni... O alqışların səsi indi də qulağımdadır. Görün neçə illər ötüb onun üstündən.

### Beynəlxalq müsabiqələr qalibi olmuşam

İndi mən artıq müxtəlif musiqi alətlərində sərbəst ifa etməyi bacarıram. Beynəlxalq müsabiqələr qalibi olmuşam. Azərbaycan və dünya bəstəkarlarının əsərlərini sevə-sevə ifa edirəm. Müxtəlif illərdə Parisdə Nikolay Rubinşteyn adına XIII beynəlxalq festivalda, Nyu-Yorkda keçirilən beynəlxalq müsabiqədə iştirak edərək birincilik qazanmışam. Münsiflər heyəti mənə birincilik diplomu təqdim edəndə dünyanın ən xoşbəxt adamı sayırdım özümü.

### Dostlarım böyük zövq aldılar

7 günlük səfərimiz maraqlı keçdi. Səfər zamanı Fransanın tarixi abidələri, Luvr muzeyi, Notr-Dam de Paris kilsəsi yaddaşıma həmişəlik həkk olunub. Eyfel qülləsini gəzdiyim anları heç vaxt unutmuram. Gəzintidən qayıtdıqdan sonra "İbis" otelində dünya bəstəkarlarının bənzərsiz əsərlərini - A.Debüsinin "Gəzinti" və F.Şopenin əsərlərindən parçaları, Azərbaycan bəstəkarı Niyazinin xoreoqrafik valsını məharətlə ifa etdim. Dostlarım böyük zövq aldılar.




### Qızıl medalla mükafatlandırıldım

2019-cu ilin iyunu mənim üçün xüsusilə əlamətdar oldu. Budapeştdə 19-cu "Renaissance" beynəlxalq müsabiqədə, "Balaton" gənclər festivalında iştirak etdim. 5 nominasiya üzrə keçirilən müsabiqədə fortepiano ixtisası üzrə birincilik qazanaraq qızıl medalla mükafatlandırıldım.

### Milli mətbəximizlə tanışlıq

Müsabiqədən sonra münsiflər heyəti qaliblər üçün ziyafət təşkil etdi. Biz onların milli mətbəxi və adət-ənənələri ilə yaxından tanış olduq. Biz də ora əliboş getməmişdik, özümüzlə Azərbaycandan apardığımız müxtəlif şirniyyatları stolun üstünə düzdük. Onlar bizim şirniyyatların çox dadlı olduğunu söylədilər. Ələlxüsus da Azərbaycan paxlavasını...

Sonra milli və dünya rəqslərini nümayiş etdirdik. Bizim milli rəqslərimizi də həmyaşıdlarım çox bəyəndilər və söz verdilər ki, nə vaxtsa Bakıya gəldikləri halda bizlərlə hökmən görüşəcəklər. Biz də məmnunluqla onları qarşılayacağımıza söz verdik və əmin etdik ki, onlar heç vaxt bizim paytaxtımızdan doymayacaqlar. Xalqımızın necə qonaqpərvər olduğu barədə də dostlarımıza ətraflı danışdıq...

### 8 saat musiqi ilə məşğul oluram

Yeri gəlmişkən qeyd edim ki, qazandığımız uğurlar asanlıqla başa gəlmir. Şəxsən mən gün ərzində 8 saat musiqi ilə məşğul oluram. Fortepiano müəllimim Nigar Nəcəfova söhbətimizin əvvəlində dediyim kimi olduqca tələbkardır. Tək mən yox, bütün şagird dostlarım qazandığımız uğurlara görə sevimli müəllimimizə minnətdarıq.

### Xor kollektivinin üzvüyəm

Mən məktəbimizin xor kollektivinin də üzvüyəm. Tədbirlərdə həmin tərkibdə də istedadımı nümayiş etdirirəm. Biz tez-tez Heydər Əliyev Mərkəzində, Muğam Mərkəzində və Bakı Konqres Mərkəzində konsert proqramları ilə çıxışlar edir, diplom və fəxri fərmanlara layiq görülürük. Ən böyük arzum isə Bakı Musiqi Akademiyasının tələbəsi olmaqdır.

*Hələ ömrünün yeniyetməlik dövründə olan Nigar Hüseynlinin musiqi aləmində qazandığı uğurlar onun ən böyük arzularına da asanlıqla çatacağına bizdə əminlik yaradır. Və bu xoş arzularla da istedadlı yeniyetməyə dünya salonlarının alqışlarını arzulamaqla xudahafizləşdik.*


## "AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktorun müavini**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 6483, **Sifariş** 3595

**Məsul növbətçi:** Ş.Cəfərov


# "Vətənim Azərbaycan"

Lənkəran rayonu Ləj kənd N.Aslanov adına tam orta məktəbin müəllimi İlkin Qəniyevin rəhbəri olduğu "Vətənim Azərbaycan" layihəsinin məktəblilər arasında "Azərbaycanın tarixi və coğrafiyası" üzrə breyn-rinq yarışı keçirilib.

Yarışda Lənkəran rayonunun Vilvan, Şağlaser, Separadi, Viravul 1, Viravul 2 nömrəli, Girdəni, Cil, Osaküçə kənd tam orta məktəblərinin şagirdlərindən ibarət komandalar mübarizə aparıb.

Gərgin keçən yarışda mümkün 65 baldan 57 balı toplayan Lənkəran rayonu Cil kənd tam orta məktəbinin komandası ilk yeri qazanmaqla "Vətənim Azərbaycan" layihəsinin final turuna vəsiqə alıb.

Müvafiq olaraq II yeri 29 balla Lənkəran rayonu Viravul 2 nömrəli kənd tam orta məktəbinin, III yeri isə 26 balla Lənkəran rayonu Separadi kənd tam orta məktəbinin komandaları tutub.

Qeyd edək ki, Təhsil Nazirliyinin Təhsildə inkişaf və innovasiyalar üzrə 3-cü qrant müsabiqəsinin qalibi olan "Vətənim Azərbaycan" layihəsi çərçivəsində Lənkəran rayonunun ümumtəhsil müəssisələrinin şagirdləri arasında Azərbaycanın tarixi və coğrafiyası üzrə breyn-rinq bilik yarışı Lənkəran rayonunda daha 3 istiqamət üzrə həyata keçiriləcək. Növbəti yarışmanın mərkəzi Lənkəran rayonu Hirkan qəsəbə tam orta məktəbi olacaq.

# Etibarsız sayılır

**Bakı şəhəri** C.Nurməmmədov adına 108 nömrəli tam orta məktəbin IX sinfini 2015-ci ildə bitirmiş Abasov İbrahim Əzizxan oğluna verilmiş A-501741 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Mühəndis və İnşaat Universiteti** tərəfindən 2001-ci ildə Hatice Namdara verilmiş H-100 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2000-ci ildə Şalbuzov İslam Şakir oğluna verilmiş A-045542 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 21 nömrəli tam orta məktəbi 1984-cü ildə bitirmiş Abasova Təranə Ağamalı qızına verilmiş 948035 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**14 nömrəli Bakı Peşə Liseyi** tərəfindən 2016-cı ildə İbrahimov Pərviz Qaroğlan oğluna verilmiş AA-073869 nömrəli diplom və A-494661 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Biznes və Kooperasiya Kollecinin tərkibində Texniki Peşə Məktəbi** tərəfindən 2012-ci ildə Bədəlov Ceyhun Ələsgər oğluna verilmiş A-026524 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 91 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Qarəhmədov Tural Yalçın oğluna verilmiş E-137526 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2017-ci ildə Bəylərov Abbasqulu Bəhlul oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 6 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Eyvazova Telli Kamal qızına verilmiş B-626160 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**ADNSU-nun nəzdində Bakı Neft Energetika Kolleci** tərəfindən 2019-cu ildə Sadıqzadə Tofiq Hüseyn oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2016-cı ildə Süleymanova Mərziyyə Vahid qızına verilmiş A-089570 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Bakı Biznes Universiteti** tərəfindən 2002-ci ildə Rzayeva Ülkər Aslan qızına verilmiş A-117483 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutu** tərəfindən 1989-cu ildə Əmirov Namiq Nazir oğluna verilmiş PB-043408 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**15 nömrəli Kirovabad şəhər Texniki Peşə Məktəbi** (indiki 3 nömrəli Gəncə Peşə Məktəbi) tərəfindən 1989-cu ildə Qasımov Məhəmməd Şəmil oğluna verilmiş 609992 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutu** (indiki Bakı Slavyan Universiteti) tərəfindən 1995-ci ildə Atababayeva Mehriban Rizvan qızına verilmiş AB-I-009101 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Q.Allahverdiyev adına** Şəmkir rayon Şiştəpə kənd tam orta məktəbinin IX sinfini 2007-ci ildə bitirmiş Mehralıyev Elcan Rafiq oğluna verilmiş A-472332 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 53 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Mərdanov İlqar Seyfəlmülk oğluna verilmiş A-500727 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağstafa şəhər** Ə. Hüseynov adına 1 nömrəli tam orta məktəbin IX sinfini 1993-cü ildə bitirmiş Əhmədova Xatirə Şəmistan qızına verilmiş A-077808 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayon** Köçəsgər kənd tam orta məktəbini 2005-ci ildə bitirmiş İsmayılova (Novruzova) Şəms Adil qızına verilmiş 145405 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayon** Köçəsgər kənd tam orta məktəbinin IX sinfini 2006-cı ildə bitirmiş Sadıxova Arifə Arif qızına verilmiş 308617 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayon** Poylu kənd tam orta məktəbini 2004-cü ildə bitirmiş Əfəndiyev Xoşbəxt Cövdət oğluna verilmiş A-054213 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 129 nömrəli tam orta məktəbi 1993-cü ildə bitirmiş Həsənov Rüfət Telman oğluna verilmiş 070520 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi rayon** Gələbədin kənd tam orta məktəbini 1993-cü ildə bitirmiş Baxşəliyev Bəxtiyar Süleyman oğluna verilmiş A-037356 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 279 nömrəli tam orta məktəbi 1997-ci ildə bitirmiş Haxverdiyeva (Ağayeva) Ülviyyə Haxverdi qızına verilmiş 100397 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universitetin nəzdində Bakı Dövlət Nəqliyyat və Rabitə Kolleci** tərəfindən 2019-cu ildə Məmmədova Məleykə Mustafa qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Alışar kənd tam orta məktəbini 2004-cü ildə bitirmiş İsmayılov Elgün Hüseyn oğluna verilmiş A-748358 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universitetini** 2012-ci ildə bitirmiş Abdullayeva Fidan Məhəmməd qızına 2013-cü ildə verilmiş A-256812 nömrəli bakalavr diplomu və diploma əlavə qiymət cədvəli tapıldığı üçün etibarlı sayılır.

**Masallı rayon** Qodman kənd tam orta məktəbini 2013-cü ildə bitirmiş Əlizadə İslam Firudin oğluna verilmiş A-230336 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 116 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Abbasov Azad Aydın oğluna verilmiş B-493296 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Odlar Yurdu Universiteti** tərəfindən 2016-cı ildə Teymurov Toğrul Kamil oğluna verilmiş A-108344 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı 1 nömrəli Tibb Məktəbi** tərəfindən 2007-ci ildə Məmmədova Sima Əli qızına verilmiş BB-II-051484 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 43 nömrəli məktəb-lisey kompleksini 2014-cü ildə bitirmiş Hüseynov Teymur Manuyeloviçə verilmiş A-293910 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət İqtisadiyyat və Humanitar Kolleci** tərəfindən 2018-ci ildə Atakişizadə Nurxanım İsmət qızına verilmiş AA-111393 nömrəli subbakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Qubadlı rayon** Qaralar kənd tam orta məktəbini 2013-cü ildə bitirmiş Hüseynov Tərlan Xandadaş oğluna verilmiş A-231996 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Mahmudkənd tam orta məktəbinin IX sinfini 1991-ci ildə bitirmiş Heydərov Ülfət Lətif oğluna verilmiş 655570 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 17 nömrəli tam orta məktəbi 1994-cü ildə ümumi orta təhsil səviyyəsi üzrə bitirmiş Quliyev Elburus İsmayıl oğluna verilmiş Ə-1380 nömrəli şəhadətnamə əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Bakı Kooperativ Texnikumu (indiki Bakı Biznes və Kooperasiya Kolleci)** tərəfindən 1986-cı ildə Şərifov Əliş Məcid oğluna verilmiş İT-029141 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Qodman kənd tam orta məktəbini 1994-cü ildə bitirmiş Əyyubova Nadirə Xanoğlan qızına verilmiş A-086779 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Eçara kənd tam orta məktəbini 2015-ci ildə bitirmiş Əkbərli İzzətəli Zakir oğluna verilmiş A-457239 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** V.Əliyev adına 4 nömrəli humanitar təmayüllü məktəb-liseyi 2011-ci ildə bitirmiş Ağazadə Fərid Xalid oğluna verilmiş A-052971 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Xolmili kənd tam orta məktəbini 2017-ci ildə bitirmiş Bağırzadə Fərid İlyas oğluna verilmiş E-048334 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2001-ci ildə İsmayılova Kəmalə Rauf qızına verilmiş AB-I-077615 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Kür qəsəbə 1 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Əhmədova Türkanə Kamran qızına verilmiş A-161341 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Seyfəli kənd tam orta məktəbini 1998-ci ildə bitirmiş Məmmədova Məleykə Arif qızına verilmiş A-260824 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki rayonu** Çələbixan qəsəbə tam orta məktəbini 2007-ci ildə bitirmiş Qarayev Babək İsmayıl oğluna verilmiş B-395808 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi rayon** Mehrablı kənd tam orta məktəbini 1999-cu ildə bitirmiş Quliyev Yalçın Vidadi oğluna verilmiş A-358967 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

# ALLAH RƏHMƏT ELƏSİN!

Təhsil Nazirliyinin rəhbərliyi və kollektivi Nazirliyin əməkdaşı Avaz Yusifova qardaşı

**AYAZ YUSİFOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı şəhər 26 nömrəli tam orta məktəbin pedaqoji kollektivi məktəbin direktoru Yaqut Məmmədovaya bacısı

**SARIGÜL ƏLİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

132-134 nömrəli təhsil kompleksinin kollektivi kompleksin ibtidai sinif müəllimi Gülnarə Cəfərovaya atası

**ADİL HACIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

132-134 nömrəli təhsil kompleksinin kollektivi kompleksin fizika müəllimi Aytəkin Məcidovaya atası

**VAQİF MƏCİDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

# "Estoniyadan Vətənimizə qələbə sevinci ilə döndüm"

## *Fəxri Məmmədəlizadə:* "Çox sevinirəm ki, qızıl medal qazanmışam"

**Rəşad ZİYADOV**

Ölkəmizdə istər olimpiya, istərsə də, qeyri olimpiya idman növlərinin inkişafı üçün bütün lazımi şərait yaradılıb. İdmançılarımız isə uşaq yaşlarından onlara yaradılan şəraitdən istifadə edərək yarışlara hazırlaşır, beynəlxalq turnirlərdən, dünya çempionatlarından və olimpiya oyunlarından vətənimizə qızıl medallarla dönürlər. Bu gün uşaqların idmana olan sonsuz sevgisi, marağı onların gələcək idman karyerası yoluna işıq salır. Söz yox ki, idmanla məşğul olmaq ağır zəhmət tələb edir. Bu zəhmətə qatlaşmaq, gərgin hazırlıqlarda səbirlə məşqçilərin tapşırıqlarını yerinə yetirmək isə elə də asan deyil. İdmanda uğur gərgin məşqlərdən çox asılıdır. Artıq ölkəmizdə böyük uğurlar əldə edən perspektivli idmançıların sayı isə günbəgün artır.




...Təsadüfən Azərbaycan Tibb Universitetinin kafedra müdiri, professor Vəsadət Əzizovla söhbət əsnasında 7 yaşlı Fəxrinin böyük uğurundan xəbər tutduq. Dəyərli alimin "Bu, sizin üçün gözəl bir mövzudur, balaca çempionlarımızı təbliğ etmək vacibdir", - söyləməsi Fəxrini bizim müsahibimizə çevirdi. Və kiçik yaşlı "qəhrəman"ımızı yaxından tanımağa qərar verdik.

Yeddi yaşlı Fəxri Rauf oğlu Məmmədəlizadə də istedadlı və bacarıqlı idmançılardandır. O 4 ilə yaxındır ki, kapoeyra idman növü ilə məşğul olur. Bu idman növü haqda bildiklərini də bizə ürəkdolusu danışdı. Kapoeyra Braziliya idman növüdür. Braziliyada yaşayan Afrika əsilli kölələrin özlərini müdafiə üçün təkmilləşdirdiyi bu idman növü artıq dünyanın 120-yə yaxın ölkəsində mövcuddur. Estetik görünüşü, musiqi, rəqs və döyüşü özündə cəmləşdirməklə digər döyüş növlərindən fərqlənir.

### "Erməni əsilli rəqibimi məğlub etdim"

Yeddi yaşlı çempionun idmana başladığı qısa müddətdə əldə etdiyi uğurları da az deyil. Medallar, fəxri fərmanlar masasının üstündə göz oxşayır. Uğur hekayəsini bizimlə bölüşən Fəxrinin keçdiyi yola birlikdə nəzər saldıq: "İlk yarışım Bakı birinciliyi uğrunda olub. Həmin yarışda III yerə layiq görülmüşəm. Bir müddət sonra Respublika çempionatı keçirildi. Bu yarışın önəmli olduğunu nəzərə alaraq daha ciddi hazırlaşdım və I yeri tutdum. Bundan sonra Bakıda keçirilən beynəlxalq turnirdə iştirak etdim. Burada III yerlə kifayətləndim. Hədəfim bu günlərdə Estoniyada keçirilən beynəlxalq turnirdə qabaqcıl yerlərdən birini tutmaq idi. Çox sevinirəm ki, Estoniyadan vətənimizə qələbə sevinci ilə döndüm. Həmin yarışa 12 ölkədən təxminən 120-yə yaxın idmançı qatılmışdı. Mənim üçün ən maraqlı və yaddaqalan görüşüm yarımfinalda erməni əsilli rus təmsilçisi ilə qarşılaşmağım oldu. Onu təmiz qələbə ilə məğlub edərək finalda Estoniya idmançısına qalib gəldim".

Balaca idmançımızın "erməniylə qarşılaşanda hansı hissləri keçirdin" sualımıza cavabı da qısa oldu: "O hansı ölkəni təmsil etməsindən asılı olmayaraq bizim düşmənimizdir və qarşılaşmada ermənıyə məğlub olmaq olmazdı".

### "Arzum bayrağımızı yüksəkliklərə qaldırmaqdır"

*- Yarışlara necə hazırlaşırsan?*

- Yarışa çıxanda ancaq qələbə qazanmaq haqqında düşünürəm. Çalışıram ki, heç bir səhvə yol verməyim, rəqib həmin anda bundan istifadə edə bilər. Tələsmədən rəqibin nə edəcəyi haqqında fikirləşirəm. Rəqibin ancaq gözlərindən onun nə edəcəyini bilmək olar.

Fəxri onu yarışlara hazırlayan müəllimini də yaddan çıxarmır. Bildirir ki, uğurlarında məşqçisi Zahid Rüstəmbəyovun böyük əməyi var: "Məşqçilərimə hər zaman təşəkkür edirəm. Çox sevinirəm ki, qızıl medal qazanmışam. Sevincimin həddihüdudu yoxdur. Heç kimə içimdəki sevinc hissinin böyüklüyünü izah edə bilmirəm...".

Gələcək planlarından da danışan balaca çempion idmanı əzmlə davam etdirəcəyini deyir. Bildirir ki, qarşıya qoyduğu məqsəd isə respublika və dünya çempionatlarında iştirak etmək, bayrağımızı ucaltmaqdır: "Arzum dünya, Avropa çempionatlarında birinci yerə çıxmaqdır. Bayrağımızı yüksəkliklərə qaldırmaqdır".

### "Gələcəyinə böyük ümidlər bəsləyirəm"

*Məşqçi müəllimi Zahid Rüstəmbəyov:* - "Fəxri çox mübarizdir. Heç vaxt istədiyindən dönmür. Məqsədinə çatmaq üçün həmişə çalışır. Nəyisə etmək olmaz deyəndə, öz fikrində qalır. "Bunu eləməliyəm, gələcəkdə lazım olacaq", - deyir həmişə. Ona görə də onun gələcəyinə böyük ümidlər bəsləyirəm. Əminəm ki, döyüşlərinə davam edəcək".

Fəxri Məmmədəlizadə Bakı Avropa Liseyinin 2-ci sinif şagirdidir. Dərslərinə həmişə yüksək səviyyədə hazırlaşır. Şagirdlərinin uğurlarına valideynləri, doğmaları ilə bərabər məktəb də sevinir, onlarla fəxr edir.

### "Fəxri dərs əlaçısıdır"

*Bakı Avropa Liseyinin direktoru Zülfiyyə Veysova:* - "Uğurlu idman siyasətinin nəticəsi olaraq Azərbaycan həm də dünyanın idman ictimaiyyəti tərəfindən ciddi tərəfdaş, idmançılarımız isə əsas rəqib kimi qəbul olunurlar. Azərbaycanın qısa müddətdə idman sahəsində əldə etdiyi tarixi nailiyyətləri və idmançılarımızın hər dəfə beynəlxalq arenalarda qazandıqları qalibiyyətlər, bayrağımızı ucaltmaları dövlətimizə şərəf gətirən amillərdir. Rəhbərlik etdiyim Bakı Avropa Liseyinin şagirdlərinin bir çoxu dərslərini yaxşı oxumaqla yanaşı idmanla da məşğul olurlar. Onların idman sahəsindəki hər il təkrarlanan yeni qələbələri bizim kollektivimizin bütün üzvlərini sevindirir. Onların əldə etdikləri qələbələrdən sonra liseyimizdə idmançılarımızın şərəfinə geniş tədbirlər təşkil edirik. Liseyimizin bütün şagirdləri onları gur alqışlarla qarşılayırlar. Balaca Fəxrimizi də bu yaxınlarda Estoniyadakı qələbəsi münasibətilə təbrik etdik. Onun yarımfinalda erməni əsilli idmançını məğlub etməsi isə bizə xüsusi sevinc hissləri yaşatdı. Fəxri Bakı Avropa Liseyinin 2-ci sinif şagirdidir. Dərslərinə həmişə yüksək səviyyədə hazırlaşır və dərs əlaçısıdır".




*Fəxrinin sinif rəhbəri Nailə Şükürova:* - "İdmançılarımız çempion olanda, üçrəngli bayrağımız Dövlət himnimizin sədaları altında zirvələrə qalxanda hər bir Azərbaycan övladı kimi mən də qürur hissi keçirirəm. Mənim ən zəhmətkeş şagirdlərimdən biri Fəxri Məmmədəlizadədir. Fəxri azyaşlı olmasına baxmayaraq, bütün uşaqlar üçün əyani nümunədir. O, öz üzərində daim çalışır və bu istiqamətdə əlindən gələni əsirgəmir. Çox diqqətcildir və bu, onun təhsilindəki uğurlarının artmasına səbəb olur. Sinif yoldaşları ilə çox yaxşı münasibəti var, hər kəsə kömək etməyi sevir və böyüklərə hörmətlə yanaşmağa çalışır. Bu, ilk növbədə, valideynlərin ona nə qədər gözəl tərbiyə verdiyini göstərir".

### "Azərbaycanı ən layiqli şəkildə təmsil edəcək"

Əlavə etmək istəyirəm ki, Fəxri üçün idman həyat tərzidir. O, kapoeyranı çox sevir, məşqlərdə çox aktiv fəaliyyət göstərir və bütün yarışlarda iştirak etməyə çalışır. Hesab edirəm ki, Fəxrini idman həm zahirən, həm də daxilən çox gözəl formalaşdırır və onu daha cəsur edir. İnanıram ki, Fəxri daha gözəl nailiyyətlərə imza atacaq, Azərbaycanı fəxrlə ən layiqli şəkildə təmsil edəcəkdir".

**"İdman infrastrukturunun xüsusilə regionlarda yaradılması imkan verir ki, bölgələrdə yaşayan uşaqlar, gənclər idmanla məşğul olsunlar. İdmanla məşğul olan uşaq, yeniyetmə fiziki cəhətdən sağlam olur. Eyni zamanda, yüksək mənəvi keyfiyyətlərə də malik olur".**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**




## Aydın Allahverdiyev şahmat üzrə beynəlxalq reytinq turnirinin qalibi olub

"Elfim" Professional Şahmat Mərkəzinin Nərimanov filialında şahmat üzrə beynəlxalq reytinq turniri keçirilib.

AZƏRTAC xəbər verir ki, İsveçrə sistemi üzrə keçirilən yarışda 29 idmançı iştirak edib. Yarışın yekun nəticələrinə əsasən, birinci yeri 6,5 xalla Aydın Allahverdiyev tutub. İkinci və üçüncü yerlərə Səid Səmədzadə (5,5 xal) və Müctəba Qurbanov (5 xal) layiq görülüblər.

Yarışın rəsmi bağlanış mərasimində çıxış edən Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin baş məsləhətçisi Salman Əbdülov və yarışın baş hakimi, beynəlxalq dərəcəli hakim Nurəli Məmmədzadə şahmatçıların idman ustalıqlarının artırılmasında, həmçinin zəka sahiblərinin erkən yaşlardan beynəlxalq reytinqə yiyələnməsində bu yarışın xüsusi rolunu vurğulayıb, qaliblərə və iştirakçılara gələcəkdə uğurlar arzulayıblar.

Sonda yer tutan idmançılar müvafiq dərəcəli diplom, medal və pul mükafatı ilə təltif olunublar.

## Güllə atıcılığı üzrə Azərbaycan kuboku yarışlarına yekun vurulub

Salyan rayon 2 nömrəli tam orta məktəbin atıcılıq turnirində Gənclər və İdman Nazirliyi və Azərbaycan Atıcılıq Federasiyasının birgə təşkilatçılığı ilə güllə atıcılığı üzrə ölkə kuboku yarışları keçirilib.

AZƏRTAC xəbər verir ki, kişilərin yarışında Ruslan Lunyov birinci olub. Rəhim Rəhimov ikinci, İlkin Əhmədli üçüncü yeri tutublar.

Qadınların mübarizəsində Zərifə Qasımova, Nəzrin Abbaslı və Əminə Ümərova fərqləniblər.

Mükafatçılar Gənclər və İdman Nazirliyinin diplom və medalları ilə təltif ediliblər.

## Stolüstü tennisçimiz Adil Əhmədzadə Avropanın istedadları siyahısına daxil edilib

Avropa Stolüstü Tennis Birliyinin (ASTB) təşkilatçılığı ilə "ETTU Eurotalents" adlı istedadların axtarışı proqramının seçmə turu keçirilib. AZƏRTAC xəbər verir ki, 11 yaşlı tennisçimiz Adil Əhmədzadə Avropa istedadları siyahısında ilk onluğa daxil olub. ASTB tərəfindən il boyu təşkil olunan təlim-məşq toplantılarında Avropanın 13 yaşadək tennisçiləri bir neçə istiqamətdə öz güclərini sınayıblar. Aralarından dözümlü, çevik və istedadlılar seçilərək ASTB-nin "Eurotalents U-13" turnirində güclərini sınayıblar. On dörd Avropa ölkəsindən 37 idmançı arasında ən yüksək nəticə göstərən 11 yaşlı həmyerlimiz A.Əhmədzadə yekun mərhələyə vəsiqə qazanaraq, yaxşıların-yaxşısı adı uğrunda mübarizəyə qatılıb. Sloveniyada baş tutan ASTB-nin "Eurotalents U-13" yekun turnirində ilk 16-lığa düşmək uğrunda mübarizə aparan turnirin ən kiçikyaşlı iştirakçısı A.Əhmədzadə Avstriya, İngiltərə, Çexiya və rumıniyalı rəqiblərini arxada qoyaraq yeddinci yerdə qərarlaşıb. Bununla da, stolüstü tennisçimiz Azərbaycan stolüstü tennis tarixində ilk dəfə Avropanın 13 yaşadək istedadları siyahısına daxil olub.

Qeyd edək ki, turnirdə yüksək bal toplayan 16 idmançıya ASTB növbəti ildə böyük dəstək verəcək.